# AZƏRBAYCAN DEMOKRATİK RESPUBLİKASI

## Azərbaycan hökuməti

## 1918 – 1920

**BAKI. GƏNCLİK. 1990.**

Az. 2.
Az 39

T ə r t i b  e d ə n l ə r:  V. Allahverdiyev, Ş. Mehdiyev

R e d a k t o r u:  H İ D A Y Ə T

A39 Azərbaycan Demokratik Respublikası: Azərbaycan hökuməti (1918-1920). B., Gənclik – Gənclik mərkəzi, 1990, 96 səh.

Kitabda tariximizin bir qaranlıq səhifəsinin bəzi tərəflərinin açılmasına cəhd göstərilir. Təqdim olunan məqalələrdə Azərbaycan Demokratik Respublikasının (1918-1920) təməlini qoyanlar, Azərbaycan parlamenti və onun işi haqqında qısa məlumat verilir. Məqalələr Azərbaycan hökümətinin bütün nazirlərini əhatə etmir.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

**A4702060204 Sifariş yolu ilə -90**
**M 653 (12) - 90**

**ISBN 5 – 8020 – 0681 - 1**

Gənclik 1990.
Gənclik mərkəzi

# Tərtibçilərdən

1918-1920-ci illər Azərbaycanın siyasi və sosial tarixi çox mürəkkəb problem olmaq etibarı ilə dərindən öyrənilməyə ciddi ehtiyac duyur. XX əsrin ilk onillikləri üçün Şimali və Cənubi Azərbaycanda baş verən hadisələri anlamağa çalışmaq, bu hadisələrə ümumbəşəri təfəkkürün bir hissəsi kimi baxmaq, insan cəmiyyətinin demokratikləşməyə doğru inkişafına bir damla da olsa öz töhfəsini vermək bu gün çox vacibdir.

Yeni əstrin əvvəlləri üçün bir tərəfdən mütləqiyyətin bir çox demokratik dəyişikliklər etməyə məcbur olması, digər tərəfdən isə Azərbaycan şəraitində yeni milli burjuaziyanın meydana çıxması və onun milli təfəkkürün inkişafına təsiri cəmiyyətdə müəyyən siyasi qüvvələrin formalaşmasına və onların "günəş altında" yer axtarmasına gətirib çıxarmışdı. Azərbaycan milli burjuaziyasının istedadlı gəncləri oxumaq üçün dünyanın müxtəlif təhsil ocaqlarına göndərməsi olduqca müvəffəqiyyətli addım olmuşdu. İlk dövrdə doğma vətənə qayıdan azərbaycanlılar siyasi hərəkatda Rusiya sosial – demokratiyasının mövqeyini müdafiə etsələr də sonralar ondan daha çox uzaqlaşır və milli – demokratik hərəkat genişlənirdi. Təsadüfi deyil ki, artıq 1904 – cü ildə azərbaycanlı inqilabçıların demokratik təşkilatı "Hümmət" yaradılmışdı. İnqilabçı demokratların bir çoxu, o cümlədən M. Ə. Rəsulzad. H. Hacınski və b. bu cəmiyyətin üzvləri olmuşdular.

Bakı neft sənayesinin daha sürətli inkişafı Qərbi Avropa həyat tərzi ilə tanışlığı genişləndirir və istər – istəməz azərbaycanlıları qabaqcıl ictimai fikir və sosial ədalət uğrunda mübarizəyə səsləyirdi. Məhz bununla izah olunur ki, bolşeviklər Bakıda hakimiyyəti ələ keçirə bilmələrinə baxmayaraq, Azərbaycan ziyalılarını bu ittifaqa cəlb edə bilmədilər. çünki müsəlmanlar daha demokratik quruluş uğrunda mübarizəyə atılmışdılar.

1918 – ci ilin mart hadisələri Azərbaycan ziyalılarını sosializm və sovet hakimiyyəti ideyasından çox – çox uzaqlaşdırdı. "Türk ədəmi – mərkəziyyət partiyası", "Müsavat" bitərəf Azərbaycan ziyalısına arxalanıb hakimiyyət uğrunda mübarizəyə başladı. Öz fəaliyyətinin əvvəlində Rusiya tərkibində muxtariyyət uğrunda çarpışan "Müsavat" partiyası 1918 – ci ilin ərəfəsi üçün artıq tam müstəqil və demokratik Azərbaycan ideyasına qulluq etməyə başladı. Bu ideya xalq arasında böyük razılıqla qarşılandı. "Xalqlar dostuluğu" demaqoq şüarları ilə pərdələnən Bakıdakı erməni "bolşeviklərinin" Sovet hökuməti özünün Azərbaycan əleyhinə fəaliyyəti ilə xalqı milli hərəkata daha çox sövq edirdi. Bunu M. Ə.

Rəsulzadə özü də gizlətməmiş və partiyanın ikinci qurultayında açıq demişdir: **“Bizim partiyamız sinfi deyildir. Bizim partiyamız millidir”.**

Azərbaycan milli hərəkatın geniş yayılmasının səbəblərindən biri də budur ki, bu ölkə müstəmləkə ölkəsi idi və məhz bunun nəticəsində, başqa xalqlar – rus xalqı həyat şəraitinin yaxşılaşdırılması uğrunda sinfi mübarizəyə qalxanda, o da milli azadlıq uğrunda çarpışmalı idi.

1918 –ci il. Mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. 1920-ci il aprelin 27- də məlum hadisələr üzündən tarixi səhnədən getməli oldu. Üstündən düz 71 il keçəndən sonra Azərbaycan xalqı yeni demokratik zəmində mübarizə meydanına atılıb mayın 28- ni Azərbaycan dövlətinin yaranma günü elan etməyi tələb etdi. Xalqın iradəsi qəbul olundu...

Amma böyük və ciddi təəssüf hissi ilə deməliyik ki, Azərbaycan tarixçisi düz 70 il çalışmışdı ki, bu həqiqəti yada salmasın. Bu isə tarixçinin özündə qul psixologiyasının yaradılmasına gətirib çıxarmışdır. Yaddan çıxarmamalıyıq ki, **insan iki həqiqətə - təbiətə və tarixə xəyanət edə bilməz. Edərsə böyük qurbanlar verər.** Biz artıq bunun şahidi olmuşuq.

Diqqətinizə təqdim olunan bu toplu geniş oxucu kütləsi üçün nəzərdə tutulur və tarixi həqiqəti bərpa etmək yolunda ilk addımlardan biridir.

# 1. AZƏRBAYCAN HÖKÜMƏTİ

*"Ədəbiyyat və incəsənət",* 4 may 1990.

Azərbaycan milli demokratiyası Fevral inqilabından sonra Rusiyanın federativ – demokratik əsaslarda yenidən qurulması təqdirində bu dövlətin tərkibində milli muxtariyyət uğrunda mübarizə aparırdı. Siyasi proseslərin sonrakı inkişafı göstərdi ki, onların ümid etdiyi demokratik və federativ Rusiya ideyası illuziyadan başqa bir şey deyildir. Milli hərbi hissələr yaratmaq cəhdi qarşısında 1918-ci ilin martında təşkil edilmiş qırğınlardan sonra Azərbaycan milli demokratiyası istiqlaliyyət uğrunda açıq mübarizə və milli hakimiyyət yaratmağın milli qurtuluş üçün yeganə yol olduğunu dərk etdi. Azərbaycan nümayəndələrinin təkidilə Zaqafqaziya seymi aprel ayının 9-da Zaqafqaziyanın suverenliyini elan etdi. Lakin daxili ziddiyyətlər və xarici oriyentasiya məsələrindəki antaqonizmlər Zaqafqaziya Federativ Demokratik Respublikasının tərkibindən çıxdıqdan sonra, 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın istiqlaliyyəti elan edildi. İstiqlal bəyannaməsində Azərbaycan Demokratik Respublikasında ali icraedici hakimiyyətin Müvəqqəti hökümətə məxsus olduğu bildirildi. Müvəqqəti hökümət Azərbaycan Milli Şurası qarşısında məsul idi.

Azərbaycan Milli Şurası ADR –in ilk hökümətini təşkil etməyi şuranın üzvü, bitərəf Fətəli xan Xoyskiyə tapşırdı. Elə həmin gün Fətəli xanın təklif etdiyi Nazirlər Şurasının tərkibi təsdiq edildi (məsələyə əlavə olunmuş siyahıya baxın).

Müvəqqəti hökümət lazımi hazırlıq işləri gördükdən, ilk növbədə Azərbaycanın öz istiqlaliyyətini elan etməsi və Azərbaycan Respublikasının müvəqqəti paytaxtının Gəncə şəhərində yerləşməsi haqqında dünyanın əsas siyasi mərkəzlərinə rəsmi bəyanat göndərdikdən sonra Gəncəyə köçdü. Lakin burada müxtəlif irticaçı qüvvələr Azərbaycan Milli Şurası və Müvəqqəti hökümətin işini pozmağa cəhd etdilər. İyunun 17-də Milli Şuranın müvəqqəti buraxılması və bütün qanunverici hakimiyyətin Müvəqqəti hökümətin əlində cəmləşməsi haqqında qərar qəbul edildi. Qərarda deyilirdi: "Azərbaycanın keçirməkdə olduğu muşkulati-daxilliyə və xariciyyəni nəzəri – etinayə alaraq Azərbaycan Şurayi – Millisi bütün hüquq və səlahiyyətini Fətəli xan Xoyski təhti – sədarətində təşəkkül edən

kabinəyə həvalə və məzkur kabinəyi arayi – ümumiyyə üzərinə müstənəd – bilətəxir Məclisi – müəsissan dəvət oluncaya qədər Azərbaycan həqqi – hakimiyyətini kəndi əlində bulunduraraq kimsəyə tərk etməməyə müvəzzəf edir". Elə buradaca Müvəqqəti hökümətin hüquq və vəzifələrinin ümumi istiqamətləri göstərilirdi. Müvəqqəti hökümət hər vasitə ilə Azərbaycanın müstəqilliyini qorumalı, siyasi azadlıqlar, torpaq və başqa vacib qanunları ləğv etməmək şərtilə qalan məsələlərin həllində tam ixtiyar sahibi idi. Müvəqqəti hökümət 6 aydan gec olmayaraq Müəssisələr məclisinə seçiklər keçirib, hakimiyyəti ona təhvil verməli idi.

Nazirlər Şurasının tərkibində bəzi dəyişikliklər edildikdən sonra yeni kabinə işə başladı. İyunun 19- da Azərbaycanda hərbi vəziyyət elan edildi. Bakı quberniyası Xalq Komissarları Sovetinin Gəncə üzərinə hazırladığı hücumu dəf etmək və daha sonraz Qafqaz İslam Ordusunun köməyilə Bakını azad etmək üçün milli qoşun hissələrinin yaradılması sahəsində əməli işlər başladı. Sonrakı aylar Müvəqqəti hökümətin Azərbaycanın paytaxtına sahib olması uğrunda mübarizəsinə həsr edildi. Bakı uğrunda mübarizə aparmaqla yanaşı Müvəqqəti hökümət dövlət aparatı qurmaqla məşğul idi. Bu sahədə ən böyük problem milli kadrların çatışmaması ilə bağlı idi. Çar zülmünün Azərbaycana vurduğu ən böyük zərbələrdən biri – dövlət aparatına yerli müsəlman əhalinin yaxın buraxılmaması özünü kəskinliyi ilə hiss etdirirdi. Yeni yaranmış dövlət orqanları məmurlarının xeyli hissəsini qeyri – yerli millətlərin nümayəndələri təşkil edirdi. Odur ki, Nazirlər Şurasının 1918 –ci il 27 iyun tarixli fərmanında deyilirdi: "Dövləti lisan türk dili qəbul edilərək, irəlidə bütün məhkəmə, idareyi – daxiliyyə və sair dəvair vəzifələri başında duranlar bu lisanı bilənlər olana qədər hökümәti müəssisələrdə rus dili istimalına müsaidə edilsin". İki il ərzində dövlət orqanlarının işinin tamamilə ana dilinə keçməsi nəzərdə tutulurdu. İctimai həyatın başqa sahələrinin də milliləşdirilməsinə başlandı.

Müvəqqəti hökümətin diqqətini cəlb edən işlərindən biri də avfqust ayında yaradılmış Fövqəladə Təhqiqat Komisiyyası idi. Bu komisiyyanın funksiyasına yerli əhaliyə qarşı vəhşiliklərin, o cümlədən mart qırğınlarının dəqiq öyrənilməsi, günahkarların müəyyən edilməsi və onların məhkəməyə verilməsi daxil idi. Komisiyyanın təhqiqatları cəmləşdirilib, əsas Avropa dillərində çap olunmalı və yayılmalı idi.

Ölkənin iqtisadi həyatını qaydaya salmaq üçün dağıdılmış dəmiryolunun bərpa edilməsinin böyük əhəmiyyəti var idi. Dəmiryolunun bərpası ilə yanaşı bir neçə ay ərzində poçt – teleqraf işləri də qaydaya düşdü. Gürcüstan ilə birlikdə

müvəqqəti bon buraxıldı, bu ölkənin maliyyə vəziyyətini bir qədər sabitləşdirə bildi. Bajkı uğrunda mübarizə və Müvəqqəti hökümətin öz hakimiyyətini bütün Azərbaycanda təsbit etməsi sentyabrın 15-dək çəkdi. Bu ərəfədə Müəssisələr məslisinin çağırılması sahəsində işlərə başlamaq üçün Nazirlər Şurasının sədri, daxili işlər naziri və xalq maarifi nazirindən ibarət komissiya yarandı. Bu komissiyanın öz işini sürətləndirdiyi və ümumiyyətlə dövlət quruculuğu işinin genişləndiyi bir şərairdə Azərbaycanın beynəlxalq vəziyyəti kökündən dəyişmiş oldu. Dünya müharibəsinin bitməsi ilə Antanta adından Britaniya qoşunları Bakını tutmalı idi. Düşmənin Bakını işğal etmək planına müqavimət göstərmək iqtidarında olmadığından öz işini bərpa etmiş Azərbaycan Milli Şurası və Müvəqqəti hökümət ingilislərin şəhərdə yaratdığı işğal rejimi şəraitində Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizəni davam etdirdi.

Dekabrın 7-də Azərbaycan parlamentinin ilk təsis iclası oldu. Azərbaycan Milli Şurasının sədri M. Ə. Rəsulzadə böyük təbrik nitqi söylədi. Parlamentin rəhbərliyi seçildikdən sonra Müvəqqəti hökümətin başçısı Fətəli xan Xoyski çıxış etdi. Fətəli xan bu tarixi günə qiymət verərək nitqini aşağıdakı sözlərlə başladı: "Bu gün öylə böyük və mübarək gündür ki, bunu biz azərbaycanlılar yuxumuzda da görə bilməzdik". O, Müvəqqəti hökümətin fəaliyyəti dövründə görülmüş işlərdən bəhs edib, bütün hökümətin istefasını qəbul etməyi xahiş etdi. Fətəli xanın nitqi aşağıdakı sözlərlə bitirdi: "Hökümətin fəaliyyətində nə qədər qüsur və nöqsan olmuşsa da yol göstərən işıqlı yıldızı bu olmuşdur: millətin hüququ. Istiqlalı və xeyiri!".

Parlament Müvəqqəti hökümətin istefasını qəbul edib, yeni Nazirlər Şurasının tərkibini müəyyən etməyi və hökümətə başçılığı yenidən Fətəli xan Xoyskiyə tapşırdı. Fətəli xanın səhhətinin pisləşməsi ilə əlaqədar milli hökümətə başçılıq etmək iqtidarında olmadığını bildirməsinə baxmayaraq, parlament hökümətin təşkilini yenidən təkidlə Fətəli xana tapşırdı. Dekabrın 26 –da Nazirlər Şurasınınsədri hökümt proqramı və hökümətin tərkibi haqqında parlamentdə çıxış etdi. Hökümət proqramında Azərbaycanın müstəqilliyini möhkəmlətmək vəzifəsi ön plana çəkilmişdi. Nazirlər Şurasının sədri elə buradaca göstərirdi: "Fəqət Azərbaycan istiqlaliyyəti ondan ibarət deyil ki, özümüz ilə özgə dövlətlər arasında bir sədd çəkək. Aşkardır ki, müstəqil Azərbaycan hökümәti ümüm dövlətlər ilə rabitə husuluna çalışacaqdır. Bu rabitə əvvəlcə qonşu dövlətlər, ümumiyyətlə sabiq Rusiya ərazisində təşəkkül tapmış dövlətlər, xüsusən Rusiyanın özünə hasil olmalıdır". Müstəqilliyi möhkəmlətmək vəzifəsindən doğan qonşu dövlətlərlə normal münasibətlərin bərqərar olması, Azərbaycanın istiqlaliyyətinin tanınması və

müstəqilliyin ilk şərtlərindən biri – milli ordunun yaradılması məsələsi hökümət proqramında öz əksini tapdı. Daha sonra daxili siyasət ("Biz türk islamlar heç bir zaman özümüzü vətənə övlad gibi görməyib, həmişə ögey olduğumuzu hiss etmişik. Şimdi biz öylə şərait hasil etməliyik ki, vətənimizdə yaşayan millətlərin həpsi özünü bir dərəcə vətən övladı gibi görsünlər. Biz özümüzə rəva görmədiyimizi sairlərinə rəva görməməliyiz"), maarif, ərzaq, yollar, ədliyyə, maliyyə ("...verginin ən çoxu, ən ağırı dövlətlilərin öhdəsinə düşməlidir, nəinki kasibların"), fəhlə - kəndli ("...torpaq kəndliyə verilməzsə, fəhlənin həyatı təmin edilməzsə, heç vaxt iş yeriməz") məsələri sahəsində hökümətin qarşısında duran vəzifələr və onların həllinin əsas istiqamətləri göstərilirdi. Fətəli xan çıxışının sonunda Nazirlər Şurasının yeni tərkibini parlamentin müzakirəsinə verdi. Geniş müzakirədən sonra "İttihad" fraksiyası bitərəf qalmaqla bütün fraksiyalar hökümət proqramına və hökümətin tərkibinə etimad göstərdilər.

Azərbaycan hökuməti koalisiyalı kabinə idi. Burada 3 nəfər rus naziri də təmsil olunmuşdu (erməni nümayəndələrinə təklif olunmuş 2 nazir kürsüsündən onlar imtina etdilər). Koalisiyalı yeni kabinə yeni partiya prinsipi üzrə deyil. Parlament fraksiyalarının hökümət başçısına və və proqramına etimad prinsipi üzrə təşkil edilmişdi.

Sonrakı, 1919-cu ilin mart və dekabr kabinə dəyişikliklərində də eyni prinsip əsas tutuldu. Son iki kabinəyə "Müsavat" partiyasının görkəmli xadimi Nəsib bəy Yusifbəyli başçılıq etdi. N. Yusifbəylinin də hökümət proqramı Fətəli xan Xoyskinin hökümət proqramına uyğun idi. Mövcud olduğu 17 ay ərzində (1918-ci ilin dekabrı – 1920 –ci ilin apreli) müstəqil Azərbaycanın milli hökuməti hansı işləri görə bildi? Azərbaycan hökümətinin fəaliyyətinin əsas istiqamətlərini və gördüyü işləri qısaca sadalamazdan əvvəl hökümətin işə başladığı tarixi şəraiti və Azərbaycanın beynəlxalq vəziyyətini xatıqlamaq lazımdır.

Yuxarıda deyildiyi kimi, milli (mülki və hərbi) kadrlar, ümumiyyətlə mütəxəssis çatışmırdı. Azərbaycan iqtisadiyyatı müharibə və inqilabı hadisələr nəticəsində bərbad vəziyyətə düşmüşdü. Azərbaycanın beynəlxalq vəziyyəti son dərəcə gərgin idi. Bir tərəfdən Ermənistanla daimi hərbi – siyasi münaqişələr, digər tərəfdən isə şimal təhlükəsi dinc quruculuq işlərinə mane olurdu.

Bununla belə, Azərbaycan Demokratik Respublikası hökuməti az vaxtda tarixi əhəmiyyətə malik işlər görə bildi. Stalinin "bu bir il yarımlıq hakimiyyətiniz ərzində xalqa nə verə bildiniz?" sualının cavabında M.Ə. Rəsulzadə demişdi: "Çox şey verə bilmədik... Amma milli azadlığın nə olduğunu başa saldıq. Azca da milli

istiqlal dadızdırdıq".

Azərbaycanın istiqlaliyyəti Avropa ölkələri tərəfindən tanındı. Avropa dövlətləri və xalqları Azərbaycan adlı bir ölkənin mövcud olduğunu bildi, bu zəngin ölkənin azadlığa təşnə olan əhalisinin azad xalqlar sırasında yer tutmağa layiq olduğunu təsdiq etdi. Qonşu ölkələrlə (Ermənistan və Rusiya istisna olmaqla) mehriban münasibətlər yarandı. Dövlət orqanlarının ana dilinə keçməsi ilə yanaşı, ictimai həyatın milliləşdirilməsinə başlandı. Milli kadr çatışmazlığı problemini həll etmək üçqün məktəblər və kurslar açıldı. Azərbaycan Ordusu və Hərbi Donanmasının yaradılması ən vacib işlərdən oldu.

Azərbaycan torpaqlarının ərazi bütövlüyünü qoruyub saxlamaq sahəsində Azərbaycan hökuməti əzmlə mübarizə aparırdı. Azərbaycan Demokratik Respublikasının ərazisi 97,3 min kv. km. idi. Bundan başqa 15,6 min kv. km- lik Azərbaycan torpaqları (Borçalı, Qarayazı, Sığnax, Şərur – Dərələyəz, Yeni Bəyazid və s.) Gürcüstan və Ermənistanla mübahisəli ərazi sayılırdı və milli hökümət bu ərazilərin ana vətənə qovuşması uğrunda mübarizəni davam etdirirdi. Ölkənin inzibati - ərazi quruluşu yeni şəraitə uyğun olaraq dəyişdirildi. Qarabağda erməni iğtişaşlarını yatırtmaq və Ermənistanın əlini bu torpaqlardan kəskəm üçün burada xüsusi valilik yaradıldı, yerli ermənilərə mədəni sahədə muxtariyyət verildi.

Ölkənin maliyyəsini qaydaya salmaq və dağıdılmış iqtisadiyyatını bərpa etmək sahəsində xeyli işlər görüldü. 1918 – ci ilin martında dağıdılmış neft sənayesi və Bakı – Batum neft kəməri bərpa edildi. Bakı – Culfa dəmiryolunun çəkilişi sürətləndirildi. Azərbaycan Dövlət Bankı yaradıldı, kənd təsərrüfatı üçün xırda kredit bankları açıldı, şəhərlərdə əmanət kassaları şəbəkəsi bərpa edildi.

Xalq maarifinin milliləşdirilməsi və inkişafı üçün nəşriyyat – tərcümə komissiyası yaradıldı. İbtidai və orta məktəblər üçün dərsliklər çap edildi, mövcud məktəblərin xeyli hissəsi milliləşdirildi, yeni məktəblər açıldı, müəllim hazırlığı üzrə ölkənin müxtəlif yerlərində 7 kişi və 1 qadın seminariyası təşkil edildi. Qori müəlimmlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Türkiyədən 50 müəllim dəvət edildi, buradan dövlət kitabxanaları üçün xeyli kitab alındı, Bakı Dövlət Universiteti təsis edildi, yüzə yaxın gənc Avropanın böyük təhsil ocaqlarına göndərildi, ibtidai təhsilin yayılması və savadsızlıqla mübarizə məqsədilə kəndlərdə müvəqqəti pedaqoji kurslar yaradıldı və s. və i. a.

Milli hakimiyyətin Vətən və millətə xidməti təbii idi. Bir əsrlik müstəmləkə zülmündən hələ özünə gəlməmiş millətin aparıcı qüvvələrinin təmsil olduğu Azərbaycan hökümətinin səhvləri də eyni dərəcədə təbii idi. Dövlətçilik işindən yadırğadılmış və ekstremal əraitdə müstəqil dövlət yaratmaq işini boynuna

götürmüş milli qüvvələrin təcrübəsizliyi, hətta siyasi sadəlövlüyü sonrakı faciələr üçün əlverişli zəmin yaratdı. Milli dövləti daxilən möhkəmlətmək çağırışlarına (Fətəli xan Xoyski, Şəfi bəy Rüstəmbəyli və b.) baxmayaraq, gənc Azərbaycan demokratiyası demokratiya aludəçiliyi ilə destruktiv (pozucu) qüvvələrin əl – qol açmasına şərait yaratdı. Bu qüvvələrin tam olmayan siyahısına Ermənistan fitnəkarlığı və daxildəki erməni şeytanları, Türkiyə kommunistləri və hərbi əsirləri və əlbəttə ki, "sapı özümüzdən olan baltalar" daxil idi. Məhz onların birgə işi nəticəsində 1920- ci il aprelin 1-də N. Yusifbəyli hökuməti istefa verməyə məcbur oldu. Təxminən bir aylıq hökümət böhranı şəraitində XI ordunun yürüşü Azərbaycan Demokratik Respublikasının tarixə çevrilməsinə səbəb oldu.

Nəsib Nəsibzadə

tarix elmləri namizədi

# AZƏRBAYCAN PARLAMENTİ

"Ədəbiyyat və incəsənət", 12 yanvar 1990.

Fevral burjua- demokratik inqilabından sonra çağırılmış Qafqaz müsəlmanları qurultayının qərarına əsasən 1917 – ci ilin noyabrında Azərbaycan müəssisələr məclisinə seçkilər keçirilməli idi. Mürəkkəb siyasi vəziyyət bu qərarın həyata keçirilməsinə mane oldu. Ümumrusiya müəssisələr məclisinin qovulmasından sonra Zaqafqaziyadan seçilmiş nümayəndələr Tiflisə toplanıb, Zaqafqaziya seymini yaratdılar. Ümumrusiya müəsissələr məclisinə ümumi, bərabər, qapalı seçkilər yolu ilə seçilmiş 14 müsəlman deputatı bir milyondan çox səs toplamışdı. Odur ki, seymin tərkibinin genişlənməsi (kooptasiyası) nəticəsində müsəlman deputatlarının sayı səsvermənin nəticəılərinə müvafiq olaraq 44-də çatdı. Onlar seymin müsəlman fraksiyasını təşkil edirdilər. Fraksiyanın sədri M. Ə. Rəsulzadə idi. Zaqafqaziya seymi və Zaqafqaziya Federativ Demokratik Respublikası da uzunömürlü olmadı, gürcü nümayəndələrinin 1918 –ci ilin mayın 26 – da seymdən çıxıb, Gürcüstanın müstəqilliyini elan etməsindən sonra müsəlman fraksiyası millətin gələcək taleyinin müəyyən olunmasını öz əlinə almaq məcburiyyətində qaldı. Müsəlman fraksiyası elə həmin gün özünü Azərbaycan Milli Şurası elan etdi.

1918 – ci ilin may ayının 28 – də İstiqlal bəyannaməsi ilə Azərbaycan Milli Şurası müstəqil Azərbaycan Demokratik Respublikasının yarandığına dünyaya bildirdi. İstiqlal bəyannaməsinin sonuncu maddəsinə əsasən müəssisələr məclisi çağırılana qədər bütün Azərbaycanın idarəsi başında Milli Şuranın durduğu, müvəqqəti hökümətin onun qarşısında məsuliyyət daşıdığı göstərilirdi.

Azərbaycan Milli Şurasının və Fətəli xan Xoyskinin başçılıq etdiyi müvəqqəti hökümətin Gəncəyə keçməsi ilə Azərbaycandakı siyasi qüvvələr arasında mübarizə qızışdı. Millətin fiziki varlığını qorumaq və milli hökümətin bütün Azərbaycan ərazisində hakimiyyətini bərqərar etmək üçün çağırılmış Türkiyə hərbi hissələrindən müxtəlif cərəyanlar öz xeyirlərinə istifadə etməyə çalışdılar. Türkiyə ilə birləşməyi tələb edən ilhaqçılar Azərbaycan Milli Şurasının müstəqil Azərbaycan şüarına qarşı çıxır, digər tərəfdən bir sıra mürtəce qüvvələr

Milli Şuranın demokratik xarakterindən xoflanırdılar. Onlar Milli Şura üzvlərini xalqın gözündən salmağa çalışır, ziyalıları Osmanlı qoşun hissələrinin Azərbaycana çağırılmasına mane olmağda ittiham edir, hətta "ermənilərə satıldıqları" haqqında belə şaiyələr yaymaqdan çəkinmirdilər. Türkiyə hərbi hissələrinin komandiri Nuru paşa sonuncuların ondan öz məqsədləri üçün istifadə etməsinə etiraz edib, yalnız əsgər olduğunu və siyasətə qarışmayacağını bildirmişdi. Nuru paşanın siyasi müşaviri Əhməd bəy Ağaoğlunun (Ağayevin) fəal iştirakı ilə bütün hakimiyyətin Fətəli xan Xoyski hökümətinin əlində cəmləşməsi haqqında kompromis qərar qəbul edildi. 1918 –ci ilin 17 iyun tarixli qərarı ilə Azərbaycan Milli Şurası özünü buraxılmış elan etdi. Bununla belə qərara alındı ki, lazımi hazırlıq işləri aparılandan sonra Azərbaycan müəssisələr məclisinə altı ay müddətində seçkilər keçiriləcəkdir. Lakin milli hakimiyyətin bütün Azərbaycanda bərqərar olması prosesi, xüsusən Bakı Soveti və Sentrokaspi diktaturası ilə müharibənin sentyabrın 15 –dək uzanması, müəssisələr məclisinə seçkilərin hazırlanması və keçirilməsini təxirə saldı. Sentyabrın 14 –də hökümətin qərarı ilə müəsissələr məclisinə serçkilər üzrə Nazirlər Şurasının sədri, daxili işlər naziri və xalq maarif nazirlərinə komissiya yaratmaq tapşırıldı. Bu komissiyanın tərkibi və işinin əsas istiqamətinin müəyyən olunması sahəsində tezliklə iş başlandı.

Lakin noyabr ayında Azərbaycanın beynəlxalq vəziyyəti yenidən kəskin şəkildə dəyişdi. Mudros barışıq müqaviləsinə əsasən müharibədə məğlub olmuş Türkiyə öz qoşunlarını Azərbaycandan çıxarmalı, Bakını Antanta adından ingilislər işğal etməli idilər. Öz tabeliyində az- çox dərəcədə qüdrətli qoşun hissələri olmayan Azərbaycan hökuməti və yenidən toplanmış Azərbaycan Milli Şurası istiqlal prinsipindən geri çəkilməmək şərti ilə Bakıya gələcək ingilis generalı Tomsonla dil tapmaq siyasəti yeritmək məcburuyyətində qaldı. Denikin Rusiyasının mütəffiqi kimi ingilis generalı nəinki Azərbaycanın istiqlalı prinsipini qəbul etmir, hətta "Azırbaycan xalqının ümumi səsverməsinə əsaslanan respublikanın yoxluğunu və onun türk komandanlığının intriqası ilə yaranmış bir hökümətin olduğunu" iddia edirdi. Bununla belə Ənzəlidə ikən o, "madam ki, siz bunun əksini iddia edirsiniz, onda gəlib, yerindəcə təhqiq edər, ona əsasən qərar verərik" demişdi.

İngilis qoşunlarının noyabrın 17-də Bakıya gəlməsindən üç gün sonra Azərbaycan Milli Şurasının ikinci iclasında (yeni dövrdə Şuranın birinci iclası noyabrın 16-da olmuşdu) Azərbaycanda müvəqqəti ali qanunverici orqanın yaradılması haqqında qanun verildi. Təkpalatalı parlament (parlaman, məclisi – məbusan da deyirdilər) bu qanuna əsasən 120 nəfərdən ibarət olmalı idi. Milli

Şuranın 44 nəfər üzvündən əlavə ölkə əhalisinin əksəriyyətini təçkil edən yerli müsəlman əhalidən (2,75 milyonluq ümumi əhalinin 1,9 milyonu) daha 36 nümayəndənin seçilməsi nəzərdə tutulurdu. Bu nümayəndələrdən beşi Bakıdan, ikisi (biri çəhər, biri mahal əhalisindən) Göyçaydan, ikisi Cavaddan, üçü Qubadan, ikisi Lənkərandan, ikisi Şamaxıdan, üçü Gəncədən, ikisi Ərəşdən, biri Cavanşirdən, ikisi Zəngəzurdan, biri Qazaxdan, biri Cəbrayıldan, ikisi Nuxadan, ikisi Şuşadan, ikisi Zaqataladan, üçü keçmiş İrəvan quberniyasının Azərbaycan hissəsindən (Naxçıvan, Şərur, Ordubad), birisi isə keçmiş Tiflis quberniyasının Azərbaycan hissəsindən (Borçalı) seçilməli idi. Şəhərlərdən olan millət vəkilləri bələdiyyə idarələrinin müsəlman üzvləri tərəfindən, mahalların nümayəndələri isə müvafiq mahalın milli komitələri tərəfindən, seçilməli idi. Ölkə əhalisinin çoxmillətli tərkibi nəzərə alınaraq ermənilərə (sayları500 min idi) gələcək parlamentdə 21 yer ayrıldı. Gəncə , Şuşa və Bakıda olan erməni milli komitələri müvafiq olaraq 8; 8 və 5 nümayəndə göndərə bilərdi. Bakıda olan Rus Milli Şurasına 10 yer ayrılırdı (ruslar 230 min idilər). Milli azlıqlardan almanlara, yəhudilərə, gürcü və polyaklara hərəsi bir nümayəndə seçib, parlamentə göndərmək hüququ verilirdi. Bakı həmkarlar təşkilatı 3,Bakı neft sənayəçiləri şurası və Ticarət – sənaye ittifaqı 2 nümayəndə kürsüsünə malik idi. Nümayəndələr birbaşa və qapalı seçilə bilərdilər. Qadınlara da islam aləmində ilk dəfə olaraq seçib – seçilmək hüququ verilirdi.

Parlament haqqındakı bu qanunun elan edilməsindən sonra Bakıda siyasi mübarizə son dərəcə kəskinləşdi. Xüsusən Azərbaycanda məskun olan qeyri – yerli əhali bu qanunu düşməncəsinə qarşıladı. Həmin münasibət dekabrın əvvəllərində Bakıda bir sıra siyasi partiyaların nümayəndələrindən ibarət "Demokratik müşavirə" deyilən yığıncaqlarda da özünü göstərdi.

Müşavirədə iştirak edən eser (Saakyan), menşevik (Baqaturov), bund (Blumşteyn) partiyalarının və həmkarlar ittifaqları şurasının nümayəndələri (Kojannı, Roxlin) qəti surətdə Azərbaycan istiqlalı prinsipinə qarşı çıxıb, parlamentin yaranmasını "böyük, bölünməz Rusiyaya qarşı xəyanət hesab etdiklərini bildirdilər". Müsavat partiyasının nümayəndəsi Şəfi bəy Rüstəmbəyli öz çıxışında Musavat partiyasının istiqlaliyyət uğrunda qəti mübarizəyə hazır olduğunu demiş, Azərbaycanda olan demokratik qüvvələrin parlament vasitəsi ilə yeni Azərbaycanın qurulmasında iştirak etməyə çağırmışdır. Müsəlman sosialistlər ittifaqının nümayəndəsi Ə.C. Pepinov və Hümmət (menşevik) qrupunun nümayəndəsi Ə. Şeyxulislamzadə öz çıxışlarında təşkilatları adından yaranmış mövcud vəziyyətdə parlamentdə iştirakın zəruriliyindən bəhs etmişdilər.

Bolşeviklər parlamentə baykot elan etdilər. Bakıdakı Rus Milli Şurası ingilis komandanlığının köməyindən istifadə edərək, parlamentin açılması işini pozmağa cəhd etdi. Erməni Milli Şurası da ixtiyarlarında olan hərbi hissələrə güvənərək Bakıda qarışıqlıq salırdı. Rus və qismən Erməni Milli Şuraları parlamentə seçkiləri baykot edib, öz nümayəndələrinin parlamentdə təmsil etdikləri millət adından iştirakına mane oldular. İlk əvvəllər onların müttəfiqi olan general Tomson parlamentin açılmasına mane olsa da, bir qədər sonra onun təşkilinə mane olmamaq qərarına gəlir. Rus Milli Şurasının da bir qrup üzvü onun tərkibindən çıxıb, Rus – slavyan cəmiyyəti deyilən bir təşkilat yaratdılar. Sonuncular Azərbaycan istiqlalı prinsipini qəbul etməsələr də, öz nümayəndələrini parlamentə göndərmək qərarına gəldilər. Fəhlə konfransının parlamenti baykot etmək siyasətinə qarşı çıxaraq, Ramana, Binəqədi, Balaxanı və Sabunçunun müsəlman fəhlələri bir qədər sonra həmkarlar təşkilatına ayrılmış 3 nümayəndə yerindən ikisinin onlara verilməsini tələb etdilər. Azərbaycanın bir sıra mahal və şəhərlərindən də deputat seçkiləri başa çatmamışdı. Naxçıvan və Borçalının da gələcəyi məsələsi qaranlıq qaldığından oradan nümayəndə gəlməmişdi. Odur ki, parlament haqqında qanunda nəzərdə tutulmuş 120 deputatın əksəriyyətinin toplanması ilə parlamentin açılışı oldu.

Azərbaycan Demokratik Respublikası parlamentinin ilk təsis iclası 1918 – ci il dekabr ayının 7-də Bakıda (o vaxt Tağıyev qız məktəbinin, indi isə Əlyazmalar İnstitutunun binasında) oldu. Şəhərin mərkəzi bayramsayağı bəzədilmişdir. Maəazalar bağlanmış, dövlət idarələri və təhsil müəssisələri öz işini dayandırmışdır. Milli bayraqlar və xalılarla bəzədilmiş parlamentin iclas salonunda Türk Demokratik Federalistlər Partiyası – Musavatın üzvləri, eləcədə azlıqda qalan millətlərin nümayəndələri ortada, Hümmətçi menşeviklər və sosialistlər solda, bitərəflər və İttihad partiyasının üvzləri sağda əyləşmişdilər. Diplomatik nümayəndələr. Lojasında general Tomsonun nümayəndəsi Konkerel, İranın baş konsulu Sədulvuzarə və onun maliyyə müşaviri, Dağlılar hökümətinin sədri T. Çermoyev, bu hökümətin Azərbaycandakı nümayəndəsi Qandəmirov. Gürcüstan Respublikasının nümayəndəsi Karsevadze, eləcə də Araz Respublikası nümayəndəsi P. Əliyev oturmuşdular. Azərbaycan hökümətinin üzvləri də iclasda iştirak edirdi. Parlamentin ilk iclasını Azərbaycan Milli Şurasının sədri M. Ə. Rəsulzadə açmış, böyük təbrik nitqi söyləmişdir. Tez – tez alqışlarla kəsilən nitqində Məmməd Əmin "firqə ehtirasları, şəxsi –qərəzləri və bütün bu kimi vətən və millət qayəsi qarşısında sofla (a ş a ğ ı – N.N.) qalan qərəzləri atıb. Vətən qayğısı və millət duyğusunu hər şeydən yüksək tutmağa çağırmışdır."

Məmməd Əmin nitqini bitirib, parlament sədrini və sədr müavinini seçməyi təklif etdi. Şəfi bəy Rüstəmbəylinin təklifi ilə bitərəf hüquqşünas Əlimərdan bəy Topçubaşov Azərbaycan parlamentinin sədri, Müsavat partiyasının üzvü hüquqşünas Həsən bəy Ağayev isə onun birinci müavini seçildi. Topçubaşov bu iclasda iştirak etmədiyindən (bu zaman o, İstambulda Azərbaycan Respublikasının nümayəndəsi idi) iclasın sonrakı gedişi Həsən bəy Ağayevin sədrliyi ilə keçdi. Ona göstərilən böyük etimad müqabilində Həsən bəy parlamentə təşəkkürünü bildirib katib seçilməsini təklif etdi. Ənnənəyə uyğun olaraq parlamentin ən gənc üzvü Rəhim bəy Vəkilov katib seçilmişdi.

Daha sonra parlamentin xitabət kürsüsünü Nazirlər Şurasının sədri Fətəli xan Xoyski tutub, müvəqqəti hökümətin istefası ilə bütün hakimiyyətin parlamentə təhvil verilməsini elan etdi.

Parlamentin qərarı ilə hökümətin istefasını qəbul edilib, yeni kabinetintəşkilinə qədər onun öz işini davam etdirməsi tapşırıldı. İttihad partiyasının üzvü Q. Qarabəylinin parlamentin açılışı münasibəti ilə siyasi məhbuslara əfv – ümumi verilməsi təklifi qəbul edildi. Daha sonra mandat, təsərrüfat və reqlament komissiyaları üzvlərinin seçilməsi ilə təsis iclası bağlandı. Parlamentin sonrakı iclaslarında bir nüçə komissiya – **maliyyə - büdcə, fəhlə, qanunvericilik təklifləri, redaksiya, hərbi işlər, aqrar sorğu, ölkənin məhsuldar qüvvələrindən istifadə, müəssisələr məclisinin çağırılması** üzrə komissiyalar formalaşdı.

Parlamentin cari işlərini idarə etmək üçün sədr, müavin və katiblərdən başqa fraksiyaların sədrlərindən ibarətsenyorkonvent seçildi. Senyorkonventə Musavat fraksiyasından M.Ə. Rəsulzadə, İttihad fraksiyasından Q. Qarabəyli, demokratik bitərəflər fraksiyasından M. Vinoqradov, Əhrar fraksiyasından A. Qardaşov, sosialistlərdən C. Hacınski daxil idi.

Parlamentin sədr müavini fraksiyaların sədrləri ilə məşvərətdən sonra hökümətin təşkilini yenidən Fətəli xan Xoyskiyə tapşırdı. Lakin Fətəli xan səhhətinin pisləşdiyindən yeni hökümətə başçılıq etmək iqtidarında olmadığını bildirdi. Dekabrın 18 –də H. Ağayev parlament üzvlərinin arzusunu nəzərə alaraq Fətəli xana yenidən rəsmi müraciət edib, "Vətənin belə ağır günlərində hökümət təşkili kimi məsuliyyətli bir işdən boyun qaçırmayıb, müştərək kabinə təşkilini öhdəsinə almağı" israr etdi. Fətəli xan yeni koalisiyalı kabinəni bir qədər genişləndirib, tərkibinə 3 rus və 2 erməni naziri də daxil etməyi nəzərdə tutmuşdu. Lakin erməni nümayəndələri hökümətə daxil olmaqdan imtina etdikdən sonra Nazirlər Şurasının sədri on nəfərdən ibarət kabinənin tərkibini və iş proqramını

parlamentin müzakirəsinə verdi. Yeni kabinə partiya prinsipi üzrə deyil, partiyaların hökümət başçısına və proqrama etimad prinsipi üzrə təşkil olundu. İş adamlarından ibarət bu koalisiyalı kabinədə yalnız İttihad partiyası iştirak etməkdən imtina etdi. Parlament Fətəli xan Xoyski kabinəsinə dekabrın 26 –daöz etimadını bildirdi. General Tomson da parlamentin göstərdiyi kabinəni dekabrın 28 –də tanıdığını və Azərbaycanda yeganə qanuni hökümət hesab etdiyini bildirdi. Tomsonun bəyanatı onunla əlamətdar idi ki, noyabr – dekabr aylarında Tomson əgər Biçeraxov və daşnak qüvvələrini himayə edir və bununla onların özbaçınalığına şərait yaradırsa, bundan sonra o, artıq həmin qüvvələrin Bakıdan sıxışdırılıb çıxarılması sahəsində Azərbaycan hökümətinin səylərinə qarşı çıxmır, hətta Bakının ictimai – siyasi həyatında oynadığı rolu (general – qubernatorluq, polis, maliyyə, su təssərrüfatı və s. Üzərinə qoyulmuş nəzarət və i. a.) milli hökümət xeyrinə güzəştə gedirdi. Öz növbəsində Azərbaycan hökümməti yaranmış vəziyyətdən bacarıqla istifadə etmiş, ölkənin daxili işlərinə yad qüvvələrin müdaxiləsini heçə endirməyə müvəffəq olmuşdu.

Parlamentin ilk tədbirlərindən birini Paris sülh konfransına səlahiyyətli nümayəndə heyəti göndərməsi təşkil edir. Bu nümayəndə heyətri qarşısında Azərbaycan istiqlaliyyətinin Avropa ölkələri tərəfindən tanıdılması kimi tarixi vəzifə dururdu. Nümayəndə heyətinə parlamentin sədri və üzvləri Ə.M. Topçubaşov (b i t ə r ə f), M.H. Hacınski (m ü s a v a t), A. Ağaoğlu (b i t ə r ə f), Ə. Şeyxulislamzadə (h ü m m ə t), eləcədə müşavirlər M. Məhərrəmov (s o s i a l i s t), M. Y. Mirmehdiyev (İ t t i h a d), C. Hacıbəyli (m u s a v a t), əməkdaşlar Ə. Hüseynzadə (b i t ə r ə f), V. Marçevski (b i t ə r ə f) və başqaları daxil idi.

Çoxpartiyalı quruluşa malik parlamentdə fraksiyalar öz bəyannamələri ilə çıxış etdilər. 1919 –cü ilin əvvəli üçün 23 nəfər parlament üzvündən ibarət çoxsaylı Musavat fraksiyasının bəyannaməsini onun sədri M.Ə. Rəsulzadə oxudu. Partiya praqramına uyğun tərtib edilmiş fraksiya bəyannaməsinin ruhunu milli – demokratik prinsiplər təşkil edirdi. Azərbaycanın istiqlaliyyətinin qorunub möhkəmləndirilməsi, torpaqların pulsuz, haqqı ödənilmədən kəndlilər arasında bölüşdürülməsi, torpaq üzərində xüsusi mülkiyyət hüqunun tanınması, 8 saatlıq iş günü və başqa vəzifələr irəli sürülürdü.

Bitərəf demokratlar fraksiyasının tərkibində Ə. M. Topçubaşov, F.X.Xoyski, B. Cavanşir, C. Lənbəranski kimi 16 nəfər tanınmış siyasi xadim birləşmişdi. Bu fraksiya Musavat fraksiyası ilə ittifaqda işləyirdi. Fraksiya adından çıxış etmiş Y.Ə hmədzadə bitərəf demokratların mübarizə apardığı vəzifələr sırasında xüsusi yeri Azərbaycanın müstəqilliyi probleminə həsr etmişdi. Daha

sonra fraksiya qüdrətli ordu yaratmaq, demokratik və parlamentli respublika formasında xalq hakimiyyətini möhkəmlətmək, geniş sosial islahatlar həyata keçirmək (o cümlədən kəndlilərə torpaq sahəsi vermək), söz, vicdan, mətbuat, ittifaqlar və s. azadlıqları təmin etmək, vergi yükünün əsas ağırlığının varlıların daşıması, qonşu xalqlarla dinc yanaşı yaşamaq, azlıqda qalan millətlərin hüquqlarını qorumaq, müəssislər məclisi çağırmaq vəzifəsi irəli sürülürdü. İttihad partiyasının parlamentdə 11 nümayəndəsi var idi. Musavat fraksiyasının (partiyasının) əsas rəqibi hesab edilirdi. Fraksiyanın sədri Q. Qarabəyli idi.

Hərəsinin beş üzvü olan Müsəlman sosialistlər ittifaqı və Hümmətçi menşevikilər fraksiyasının bəyannamələrində qoyulan məsələlər bir – birinə bənzəyirdi. Əsas vəzifələr müəssisələr müəssisələr məclisinin tezliklə çağırılması, Qərbi Avropaya parlament heyətinin göndərilməsi, 8 saatlıq iş günü, qadın məsələsi, aqrar proqramı həyata keçirmək üçün aqrar komissiyanın yaradılması və sairlərdən ibarət idi.

Əhrar (9 nəfər), milli azlıqlar (4 nəfər), Rus- slavyan ittifaqı (3 nəfər0, erməni (4 nəfər0 və daşnak (4 nəfər) fraksiyalarının da bəyannamələri sosial məsələlər üzrə bu və ya digər dərəcəd böyük fraksiyaların bəyannamələrini təkrar edirdi.

Bəyannamələrdə irəli sürülmüş vəzifələrin oxşarlığı, hətta bir sıra hallarda üst – üstə düşməsi, eləcədə parlamentin işi gedişində ortaya çıxmış ixtilaflar nəticəsində 1919 –cü ilin sonunda Azərbaycan parlamentinin 11 fraksiyada birləşmiş 96 üzvü var idi. Ən böyük fraksiya müsavatçılar və bitərəf demokratların birləşməsi ilə yarandı – bu fraksiyanın 38 üzvü var idi. Bitərəf demokratlardab bir neçə nəfər Musavat fraksiyası ilə birləşmək istəmədiyindən bitərəflər (3 nəfər) və partiyasızlar (4 nəfər) fraksiyalarını yartdılar. Əhrar partiyasının keçmiş üzvü A. Abdulzadə isə heç bir fraksiyaya daxil olmadı. Müsəlman sosialistlər ittifaqı ilə hümmətin üzvləri 13 nəfərdən ibarət sosialistlər fraksiyasında birləşdilər. Fraksiyanın sədri S. Ağamalıoğlu idi. Qalan fraksiyalarda dəyişiklik ancaq kəmiyyət xarakteri daşıyırdı.

1920 –ci ilin əvvəllərinə doğru parlamentin rəyasət heyətində də dəyişiklik baş verdi. Daxili nizamnaməyə uyğun olaraq bir illik səlahiyyət müddəti başa çatdıqdan sonra H. Ağayev istefa verdi, parlament sədrinin birinci müavinliyinə M. Y. Cəfərov, sədr müavinliyinə isə S.M. Qənizadə seçildi. Parlamentin baş katibi B. Rzayev, katibləri M. Hacınski və Bayram Niyazi Kiçikxanlı oldu.

Parlamentin 1919 –cü il 3 yanvar tarixli iclasının qərarı ilə qaqnunverici

və icraedici hakimiyyətin bölünməsi prinsipinə uyğun olaraq parlament üzvünün dövlət orqanlarında işləməsi məqbul sayılmadı. Yalnız nazirlərin eyni zamanda parlament üzvü olmasına icazə verilirdi. Dövlət qulluğunda işləyən parlament üzvü bir neçə gün ərzində iki vəzifədən birini seçib, parlamentin rəyasət heyətinə bildirməli idi.

Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Qeyri – yerli əhali nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə parlamentin iclaslarından birində bu məsələ xüsusi müzakitə olunmuş və bu xüsusda qərar qəbul edilmişdi. Qərara əsasən parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində etmələri məqbul hesab edilmişdi. Bununla belə rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi. Dövlət dilində olmayan sənədlərin üstündə adətən parlamentin sədr müavini Həsən bəy belə bir məzmunda dərkənar qoyurmuş: "Ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır".

Azərbaycan parlamentinin müvcud olduğu dövrdə 140 qədər ümumi iclası olmuşdur. 1919 – cu ilin sonuna qədərki dövrdə olmuş 110 iclasın 13-ü kvorum olmadığından baş tutmamış, 2 iclas təntənəli yubiley iclası xarakterində olmuş (Azərbaycanın müstəqilliyinin birilliyi münasibətilə 1919 –cu ilin 28 may tarixli və Bakının fəthinin ildönümü münasibətilə 1919 cu ilin 15 sentyabr tarixli iclasları). 1 fövqaladə iclas Gürcüstanla Ermənistan arasında müharibənin başlanmasına həsr olunmuşdu. Daha üç iclas da təntənəli şəraitdə keçmiş, onlar Fevral inqilabının ikinci ildönümünə. Azərbaycanla Gürcüstan arasında hərbi ittifaqın bağlanması və parlamentin təşkilinin ildönümünə həsr edilmişdi. Qalan 91 iclas adi iclas idi. Həmin dövrdə cəmi 315 qanun lahiyəsi təqdim edilmiş, bunlardan 10-12-si rədd edilmiş, ya da onların komissiyalarda müzakirəsi davam edirdi. Qanun lahiyələrindən 82–si maliyyə nazirliyi, 32–si ədliyyə, 24 -ü daxili işlər, 19-u xalq maarifi, 12-si torpaq, 10-u sosial təminat, 9-u hərbi nazirlik və b. tərəfindən təqdim edilmişdir. Qanuna uyğun olaraq dövlət büdcəsinin təsdiqi və xərclənməsi parlamentin səlahiyyətlərinə aid olduğundan, qanun və qərarların böyük hissəsi maliyyə məsələləri ilə əlaqədar idi. Yeni qanun məcəlləsinin hazırlanmasına qədər köhnə qanunların hələlik qüvvədə qalmasına baxmayaraq bu və ya digər qanunlar məcmuəsinin müvafiq maddələrinin dəyişməsi haqqında qanun və qərarlar verilirdi. Yeni yaranmış yarımmüstəqil müəssisə və təşkilatlarının da nizamnamələri parlament tərəfindən təsdiq olunmalı idi. Parlamentin geniş müzakirədən sonra təsdiq etdiyi nizamnamələr sırasında Bakı Universiteti. Azərbaycan Dövlət Bankı, Azərbaycan Dövlət Əmanət kassalarının nizamnamələri

və mətbuat haqqında nizamnamə də var idi. Başqa dövlətlərlə bağlanmış hər hansı bir rəsmi sənəd parlamentin təsdiqindən sonra qüvvəyə minirdi. Denikin təhlükəsinin kəskinləşdiyi 1919 –cü ilin iyununda yaradılmış Dövlət Müdafiə Konmitəsinin qərarları da qanun qüvvəsinə malik idi.

Azərbaycan parlamentinin qanunvericilik və mərkəzi dövlət orqanlarını formalaşdırmaq, onların səlahiyyətini müəyyən etmək funksiyasından bqşqa bu və ya digər orqanın hesabatını dinləyib, onlar haqqında müvafiq qərar qəbul etmək, eləcə də ali dövlət nəzarətini həyata keçirmək funksiyaları var idi. Parlament iclaslarının gündəliyindən xeyli hissəsi bu məsələlərə həsr edilmiş və bu barəd xüsusi qərarlar qəbul olunmuşdu.

Azaərbaycan Parlamenti ölkədə müvəqqəti ali qanunvericilik orqanı hesab edlidiyindən bir sıra köklü məsələlər müəssisələr məclisində həll edilməli idi. Azərbaycan Demokratik Respublikasının konstitusiyası da burada təsdiq edilməli idi. Müəssisələr məclisinə seçkilərin əsaslarını hazırlamaq üçün parlamentdə böyük bir komissiya yaradılmışdı. Bu komissiyaya bütün fraksiyaların nümayəndələri cəlb edilmiş və o, ən çoxsaylı komissiya idi. Uzun müzakirələrdən sonra 1919 –cu ilin iyulun 2-də Azərbaycan Respublikasının müəssisələr məclisinə seçkilər haqqında əsasnamə qəbul edildi. Əsasnamə 4 fəsildən, 116 bənddən ibarət idi. Əsasnaməyə görə müəssislər məclisinə seçkilərdə cinsindən, dilindən, milliyyətindən asılı olmayaraq 20 yaşına çatmış bütün Respublika vətəndaşları iştirak edə bilərdilər.

Seçkilər aprelin 20 –nə təyin edildi. Lakin ölkənin xarici siyasi vəziyyətinin kəskin surətdə dəyişməsi Azərbaycan müəssisələr məclisinə seçkilərin keçirilməsinə mane oldu. Parlament aprelin 27-dəki sonuncu iclasında fakt qarşısında qalaraq Azərbaycan K (b) P, Rusiya K (b) P Qafqaz Diyar Komitəsinin Bakı bürosu və Mərkəzi fəhlə konfransı adından verilmiş ultimatuma cavab olaraq, hakimiyyətin bolşeviklərə verilməsi haqqında qərar qəbul etdi.

Nəsib Nəsibzadə

# Ceyhun Hacıbəylinin arxivindən

Odlar yurdu, № 14 iyul 1989.

1917-ci il fevral inqilabından sonra Zaqafqaziyanı idarə etmək üçün mart ayının 9-da V.A.Xarlamovun (kadet) sədrliyi altında xüsusi komitə yaradılmışdır. Komitəyə A.İ. Çxenkeli (menşevik), knyaz Abaşidze (sosial - federalist), M.Y.Cəfərov (bitərəf) və M.İ. Panacanov (kadet) daxil idilər. Bundan sonra 1917 –ci ilin noyabrın 18 –də diyarı idarə etmək üçün Y.P. Gegeçkorinin (menşevik) sədrliyi ilə 11 nəfərdən ibarət Zaqafqaziya komissarlığı (Zaqafkom) adı altında müvəqqəti hökumət yaradıldı. Azərbaycandan Ələkbər Xasməmmədov (müsavat), Məmməd Yusif Cəfərov və Xudadat bət Məlikaslanov (hər ikisi bitərəf) Zaqafkomun üzvləri oldular. 1918 –ci ilin fevralın 10 –daZaqafqaziya seymi yaradıldı və bu seym 19180-ci il aprelin 22 –də (yeni stillə) müstəqil, demokratik, federativ respublikanın yaradılmasını elan etdi. Mayın 26-da Zaqafqaziya seyminin sonuncu iclası zamanı menşevik Sereteli seymin buraxıldığını bildirdi.

Mayın 26-da Gürcüstan, mayın 28-də Azərbaycan və Ermənistan öz müstəqilliyinin elan etdi. Bir gün əvvəl isə keçmiş seymin müsəlman fraksiyasının iclası tərkibində Məmməd Əmin Rəsulzadə və Fətəli xan Xoyski olmaqla Milli Şuranın Rəyasət heyətini seçdi. Milli şura Azərbaycanın müstəqil dövlət elan olunması haqqında qərar qəbul etdi. (qərarın lehinə 24 nəfər səs verdi, 2 nəfər bitərəf qaldı). 1918-ci il mayın 28-də Tiflis şəhərində Azərbaycan Milli Şurası sədrinin müavini Həsənbəy Ağayev, katib Mustafa Mahmudov, Fətəli xan Xoyski, Xəlilbəy Xasməmmədov, Nəsibbəy Yusifbəyli, Mir Hidayət Seyidov, Nəriman bəy Nərimanbəyov, Heybətqulu Məmmədbəyov, Mehdibəy Hacınski, Əli Əsgər bəy Mahmudbəyov, Aslan bəy Qardaşov, Sultan Məcid Qənizadə, Əkbərağa Şeyxulislamov, Mehdi bəy Hacıbababəyov, Məmməd Yusif Cəfərov, Xudadatbət Məlikaslanov, Rəhimbəy Vəkilov, Həmid bəy Şahtaxtinski. Firudin bəy Köçərli, Cəmobəy Hacinski, Şəfi bəy Rüstəmbəyov, Xosrovpaşa bəy Sultanov, Cəfər Axundov, Məhəmməd Məhərrəmov, Cavad Məlik – Yeqanov və Hacı Molla Axundzadənin iştirakı ilə Azərbaycanın müstəqilliyi haqqında aşağıdakı aktı elan etdi:

Böyük Rusiya inqilabının gedişində Rusiyada rus qoşunlarının Zaqafqaziyanı tərk etməsinə gətirib çıxaran və dövlət orqanizminin ayrı –ayrı

hissələrini dağıdan siyasi quruluş meydana gəldi. Öz gücləri hesabına Zaqafqaziya xalqları Zaqafqaziya demokratik respublikasını yaratdılar. Fəqət, siyasi hadisələrin sonrakı gedişatında gürcü xalqı Zaqafqaziya Federasiyasının tərkibindən çıxıb müstəqil Gürcüstan Demokratik Respublikası yaratmaq qərarına gəldi.

Rusiya və Osmanlı imperiyası arasında yaranan müharibənin dayandırılması ilə əlaqədar olaraq Azərbaycanın indiki siyasi vəziyyəti, həmçinin ölkədə yaranmış hədsiz anarxiya Zaqafqaziyanın cənub və şərq qismini təşkil edən Azərbaycana və Azərbaycan xalqlarını düşdükləri daxili və xarici vəziyyətdən çıxarmaq naminə öz dövlətini yaratmağı hökm edir. Yuxarıda sadalananların əsasında xalq səsverməsi yolu ilə seçilən Azərbaycan Müsəlman Milli Şurası bu gündən bütün xalqa bəyan edir:

**1.** Azərbaycan tam hüquqlu və müstəqil dövlətdir. O, Zaqafqaziyanın cənub və şərq hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.

**2.** Müstəqil Azərbaycanın siyasi quruluş forması demokratik cümhuriyyətdir.

**3.** Azərbaycan Demokratik Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvlərilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.

**4.** ADC öz sərhədləri daxilində millətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq, bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.

**5.** ADC onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.

**6.** Məclisi – müəssisanın çağırılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan Müvəqqəti hökümət sayılır. Həmin gün mayın 28-də aşağıdakı tərkibdə Müvəqqəti hökumət təşkil olunmuşdur. F. Xoyski – Nazirlər Şurasının sədri və daxili işlər naziri, Xosrovpaşa bəy Sultanov – hərbi nazir, Məmməd Həsən Hacınski – xarici işlər naziri, Nəsibbəy Yusifbəyli – maliyyə və sənaye naziri, Xəlilbəy Xasməmmədov - ədliyyə naziri, Məmməd Yusif Cəfərov – ticarət və sənaye naziri, Əkbər ağa Şeyxülislamov – nəqliyyat, poçr və teleqraf naziri, Cəmobəy Hacınski – dövlət nəzarəti.

Müvəqqəti hökumətin başçısı F.Xoyski radioteleqrafla tarixdə ilk dəfə olaraq müstəqil Azərbaycan Cümhuriyyətinin yaranmasının xarici dövlətlərin başçılarına bildirdi.

1918 –ci ilin dekabrın 7-də birinci Azərbaycan parlamenti öz işinə başladı. Beynəlxalq Versal sülh konfransında iştirak etmək üçün 1919-cü il yanvarın 8-də Azərbaycan diplomatik missiyasının tərkibi elan olundu. Heyətin sədri Əlimərdanbəy Topçubaşov, üzvləri isə M.H.Hacınski, Ə.Şeyxuislamov, Ə. Ağayev, M.Məhərrəmov, M.Mehdiyev və C. Hacıbəyli təsdiq edildi.

Nümayəndə heyəti Parisə ingilislər tərəfindən əsassız olaraq tutulmuş Əhməd bəy Ağayevsiz gəldilər.

Timuçin Hacıbəyli (Nitsa - Fransa)
4 aprel 1989 –cü il.

# MƏMMƏD ƏMİN RƏSULZADƏ

Odlar yurdu, № 17, sentyabr 1988.

Görkəmli ədib, siyasi və ictimai xadim, mütəfəkkir Məmməd Əmin Ağa oğlu Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olmuşdur. Əvvəlcə "rus – müsəlman", sonra isə Bakı texniki məktəbində oxumuşdur. Onun ilk ədəbi əsəri – "Müxəmməs" şeri "Şərqi - rus" qəzetində çıxmışdır. (1903, № 20).

M.Ə.Rəsulzadə,1904-cü ildə əsası qoyulan müsəlman sosial – demokrat təşkilatı "Hümmət" in banilərindən biri idi. "Hümmət" təşkilatı 1904-1905-ci illərdə "Hümmət" qəzeti, sonra isə "Təkamül" (1906-1907) və "Yoldaş" qəzetlərini nəşr etdirmişdir (1907). M.Ə.Rəsulzadə bu qəzetlərin əsas rəhbərlərindən və redaktorlarından biri olmuşdur.

M.Ə.Rəsulzadə həmin dövrdə bolşevik mətbuatı ilə yanaşı, "Həyat" və "İrşad" qəzetlərində, "Füyuzat" jurnalında çıxış edirdi.

M.Ə.Rəsulzadə 1908-ci il dekabrın 5-də ilk tamaşası göstərilən "Qaranlıqda işıqlar" adlı dram əsəri ilə Azərbaycanda inqilabı dramaturgiyanın əsasını qoymuşdur.

1909-cü ildə M.Ə.Rəsulzadə xalqımızın milli qəhrəmanı Səttərxanın (1867-1914) rəhbərliyi altında gedən milli–azadlıq mübarizəsinə kömək etmək üçün Cənubi Azərbaycana yola düşmüşdür. O, Təbrizdə Səttarxanla və onun silahdaşları ilə görüşmüşdür.

M.Ə.Rəsulzadə Tehranda Avropa təhsili görmüş bir qrup iranlı ilə birlikdə 1910-cdü ildə İran Demokrat Partiyasının əsasını qoymuş və onun orqanı "İranenoy" (Yeni İran) qəzetinin redaktoru olmuşdur. Burada onun çoxlu yazısı çıxmışdır. O, İranda marksizm ideologiyasını yayan görkəmli şəxsiyyətlərdən biri idi.

İranda həmin il mürtəce "Etidaliyyun" ("Mötədillər") partiyası təşkil edildi. Bununla əlaqədar M.Ə. Rəsulzadə Tehranda 1910-cu ildə fars dilində "Tənqidi –firqeyi-e tidaliyyun" adlı kitabını çap etdirmişdir. 1911-ci ildə isə Ərdəbildə müəllifin farsca "Səadəti – bəşər" kitabı nəşr olunmuşdur.

1911-ci ildə çar qoşunlarının İrana daxil olması ilə əlaqədar M.Ə.Rəsulzadə İstambula mühacirət etmişdir. Burada 1911-ci ilin noyabrından nəşrə başlayan "Türk yurdu" jurnalının əsasını qoyanlardan biri olmuşdur. Bu jurnalda onun bir neçə məqaləsi çap olunmuşdur. Bunlardan ən maraqlısı "İran türkləri" **(1911-ci il, № 4)** adlı məqalədir. Həmin məqalədə geniş oxuc kütləsinə Cənubi Azərbaycanın ümumi coğrafiyası və əhalisi haqqında ətraflı məlumat, Şimali Azərbaycandan da bəhs olunur.

1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar verilən əhv – umumidən sonra Rəsulzadə vətənə qayıtmışdır. O, əsası hələ 1911-ci ilin oktyabrında gizli şəkildə üç nəfər keçmiş hümmətçi tərəfindən qoyulan müsəlman demokratik müsavat partiyasına daxil olmuş və tezliklə onun rəhbərinə çevrilmişdir.

M.Ə.Rəsulzadə markizim ideologiyasına hələ sadiq idi. Onun 1914-cü ildə M.Qorkinin "Ana" romanından bir hissəsini Azərbaycan dilinə çevirməsi buna gözəl misaldır.

1914-cü ildən çıxmağa başlayan ictimai – siyasi "Dirilik" jurnalında Rəsulzadə "Milli dirilik" adlı silsilə məqalələrlə çıxış etmişdir. Bu məqalələrdə o, Azərbaycan ideyasını qoruyurdu.

M.Ə.Rəsulzadə hələ 1914 –cü ildən öz yazılarında "müsəlman", türk, tatar, anlayışlarını yerinə Azərbaycan və azərbaycanlı termini işlədirdi. Halbuki bunu 1935-ci ildən tarixi ədəbiyyatda İ.V. Stalinin adına çıxırlar. Rəsulzadənin yazıları bu cür saxta fikirləri birdəfəlik rədd edir. Yuxarıda göstərdiyimiz kimi, M.Ə.Rəsulzadə hələ 1911-ci ildə İstambulda "Türk yurdu" jurnalında çap etdirdiyi "İran türkləri" məqaləsində Qafqazın tərkibində Azərbaycanın mövcud olduğunu qeyd etmişdir. Doğrudur, Azərbaycan ideyası M.Ə.Rəsulzadədən də əvvəl Azərbaycan ziyalılarında VAR İDİ. Hələ 1891-ci il mayın 1-də "Kaspi" qəzetində Məmmədağa Şahtaxtlı "Zaqafqaziya müsəlmanlarının necə adlandırmalı" məqaləsində bu türkdilli xalqın azərbaycanlı olduğunu bildirmişdir. 1892-ci ildə Kamal Ünsizadə xalqımızda milli şüuru oyatmaq məqsədi ilə "Azərbaycan" adlı qəzet çıxarmağa təşəbbüs göstərmiş, ancaq çar hökuməti buna icazə verməmişdir. 1903-cü ildə görkəmli ədəbiyyatşünas Firudinbəy Köçərlinin (1863- 1920) rus dilində Tiflisdə "Azərbaycan ədəbiyyatı" kitabı çap olunmuşdur. Bütün bunlar göstərir ki, hələ M.Ə.Rəsulzadədən qabaq maarifçi ziyalılarımızda Azərbaycan ideyası rişə halında var idi. Ancaq bunu siyasi doktrina halında həyat və siyasət səhnəsinə atan M.Ə.Rəsulzadə olmuşdur.

M.Ə.Rəsulzadə 1915-ci il avqustun 2-dən "Açıq söz" qəzetini nəşr

etdirməyə başlamışdır. “Açıq söz” gizlində fəaliyyət göstərən müsavatın əsas orqanı idi.

1917 –ci ildə Rusiyada fevral – burjua inqilabı baş verdi və martdan müsavat açıq fəaliyyətə keçdi.

1917-ci ilin aprelində Bakıda Qafqaz müsəlmanlarının, mayda isə Moskvada Rusiya müsəlmanlarının qurultayı çağırıldı. Qurultaylar M.Ə.Rəsulzadənin təklifi ilə Rusiyanı federativ şəkildə qurmaq haqqında qərar qəbul etdi. Həmin dövrdə Rəsulzadə “Cəmaət idarəsi” və “Bizə hansı hökumət faydalıdır?” kitablarını nəşr etdirdi.

1917-ci ilin iyununda müsəlman demokratik müsavat partiyası ilə martda Nəsibbəy Yusifbəylinin (1881- 1920) yaratdığı türk ədəmi – mərkəziyyət partiyası birləşdi. Partiyanın Bakıda keçirilən Iqurultayında M.Ə.Rəsulzadə Mərkəzi Komitənin sədri seçilmişdi. Bu qurultaydan sonra Bakıda və Azərbaycanın bütün qəzalarında xalqımızın milli hərəkatı başlanmışdır. Həmin dövr tariximizə milli Azərbaycan hərəkatı kimi daxil olmuşdur.

M.Ə.Rəsulzadənin “Azərbaycan ideyası” və “Azərbaycana muxtariyyət” şüarı İranda böyük hay-küyə səbəb olmuşdur. Başda Məlikimuara Bahar olmaqla (1886- 1951) Tehran pariranistləri “İran” qəzetində ona şiddətli etiraz etmişdilər. M.Ə.Rəsulzadə onlara cavab vermək məqsədilə “Açıq söz” qəzetində bir neçə məqalə ilə çıxış etməli olmuşdur **(№ 635, 657, 671- 673, 1918-ci il).** “Rəbi – iştəbə” **(Səhvin düzəlməsi)** adlı məqaləsində o yazırdı: “*Bu ləkə ilə bərabər təkrar edirəm ki, Azərbaycan yüz on il bundan qabaq həvadisi- rüzgardan təqsim olundu və Araz çayının şimal tərəfində olan qitələri ruslar aldıqdan sonra Azərbaycan adını götürüb Zaqafqaziya adlandırdılar ki, Mavəreyi – Qafqaz olsun* ”.

Tarixdən bildiyimiz kimi, 1804-cü ildə Gəncənin və 1806-ci ildə Bakının rus qoşunları tərəfindən tutulması ilə Azərbaycanın Araz çayından şimalda olan hissəsinin işğalı başa çatdırılmışdı. Bu hissəsinin, yəni Qafqaz Azərbaycanının adı 1809-cü ildən çar hökuməti tərəfindən xəritələrdən və rəsmi sənədlərdən silinmişdir. Halbuki məşhur rus qafqazşünası A. Berjenin redaktə etdiyi “Акты собрание Кафказской археологической комиссии” toplusunda, U. Butkovun, N.Dubrovinin, N. Belyavskinin və başqalarının əsərlərində Qafqaz Azərbaycanının adı çəkilir. Rusiya və İran arasında bağlanmış **Gülüstan (12 oktyabr 1813-cü il)** və **Türkmənçay (10 fevral 1828-ci il)** sülh müqavilərində Rusiyada qadağan olunmuş Qafqaz Azərbaycanın adı yoxdur. Həmin müqavilələrdən istifadə edən tədqiqatçılar kobud səhvlərə yol vermişdir. Bütün bu araşdırmalar göstərir ki, şəxsən M.Ə.Rəsulzadənin böyük səyi nəticəsində və onun rəhbərliyi altında

müsavat partiyası ölkənin tarixi adını geri qaytardı və bərpa etdi.

1918-ci il mayın 26-da Zaqafqaziya seymi fraksiyaların daxili çəkişmələri nəticəsində ləğv olundu. Ertəsi gün seymin müsəlman fraksiyasına daxil olan partiyaların üzvlərindən ibarət Azərbaycan milli şurası yarandı.Səs çoxluğu ilə M.Ə.Rəsulzadə milli şuranın sədri seçildi. 1918-ci il mayın 28-də bütün ölkələrin radiostansiyaları və qəzetləri Azərbaycanın istiqlaliyyətinin elan olunması haqqında Azərbaycan milli şurasının müraciətinin bəşəriyyətə xəbər verdilər. Bu o demək idi ki, xalqımız etnoqrafik sərhədləri daxilində azad və müstəqil yaşamaq hüququ əldə etmişdir. Bitərəf Fətəli xan İskəndər oğlu Xoyskinin (1875- 1920) başçılığı ilə Azərbaycan Demokratik Respublikası hökuməti təşkil olundu. Beləliklə, Azərbaycan xalqı nəinki türkdilli xalqlar arasında. Həmçinin bütün islam aləmində ilk dəfə olaraq respublika üsul- idarəsinə qədəm qoydu. İyunun 17-də Azərbaycan milli şurasının iclasında M.Ə.Rəsulzadə öz alovlu nitqində deyirdi: "Dünya müharibəsi və Rusiya inqilabının təsirləri ilə yeni doğmuş və həyat siyasətinə qədəm basmış olan Azərbaycan qayəsi əhatə olunmaz mühüm dəqiqələr keçirir. Bu yeni türk nuzad siyasəti rişə və buluğ bulub da millətlər zümrəsinə vəsail – həyat olaraq girə biləcək, yoxsa sısqa cocuq kimi südəmər halında tərki – həyat edəcəkdir? İştə bütün zehnləri işğal edən bir məsələ!" ("Azərbaycan" qəzeti, № 41, 1918-ci il).

Respublikanın birinci ildönümü münasibəti ilə M.Ə.Rəsulzadə yazırdı: "Türk mənşəli bütün başqa dövlətlər meydana gələrkən xüsusən dini əsasa söykənmişdirsə, Azərbaycan Respublikası türk milli – demokratik dövlətçiliyi zəminində milli- mədəni təyini müqəddaratın müasir özülünə əsaslanmışdır. Bu nöqteyi-nəzərdən respublikamız birinci türk dövlətidir". ("Azərbaycan" qəzeti, 28 may, 1919-cü il, № 110).

Azərbaycan Dövlət Universitetinin yaranmasında M.Ə.Rəsulzadənin böyük xidmətləri vardır. "1920-ci il üçün Azərbaycan respublikasının təqvim-ünvanı" nın dördüncü hissəsindən məlum olur ki, o tarix- filologiya fakultəsində "Osmanlı ədəbiyyatı tarixi"ndən dərs demişdir. Onun 1920-ci ilin əvvəllərində "Azərbaycanın təşkilində müsavat" adlı kitabı çapdan çıxmışdır.

1920-ci il avqustun 17-də M.Ə.Rəsulzadə Lahıcda həbsə alınmışdır. İ.V.Stalin 1905 –ci ildə onu ölümdən qurtaran Rəsulzadəni həbsdən buraxdırmaqla, onun qarşısında vicdan borcunu yerinə yetirmişdir. O, M.Ə.Rəsulzadəni özü ilə birlikdə Moskvaya aparıb, RSFSR millətlər komissarlığında mətbuat müvəkkili vəzifəsinə təyin etmişdir. 1922-ci ilin payızında Skandinaviya ölkələrinə ezamiyyətə göndərilən M.Ə.Rəsulzadə daha geri qayıtmamışdır. Beləliklə,

M.Ə.Rəsulzadənin fəaliyyətinin mühacirət dövrü başlanmışdır. 1923-cü ildə İstambulda M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" və "Azərbaycan Respublikasının keçmişi, təşəkkülü və indiki vəziyyəti" adlı kitabları nəşr edilmişdir. Həmin ildən onun redaktorluğu ilə İstambulda "Yeni Qafqasya" jurnalı nəşr olunmağa başlanmışdır. 1925-ci ildə onun "İstiqlal məfkurəsi və gənclik", 1926-cı ildə isə "Rusiyada siyasi vəziyyət" adlı kitabları çapdan çıxmışdır. Hələ 1927-ci ildə M.Ə.Rəsulzadə "Yeni Qafqasya" jurnalının səhifələrində Mir Cəfər Bağırovun Zaqafqaziya su təsərrüfatı idarəsinə başçı təyin olunması ilə əlaqədar yazırdı: "Azərbaycan xalqının cəlladı Bağırovu su təsərrüfatına başçı qoymuşlar, zənn edirəm ki, Zaqafqaziya çaylarının suları ona Azərbaycan oğullarının qanına bulaşmış əllərini yuyub təmizləməkdə kömək edəcəkdir...". M.Ə.Rəsulzadənin rektorluğu ilə "Azəri türkü" (1928-1931), "Odlu yurd" (1929-1930) və həftəlik "Bildiriş" qəzeti nəşr edilir. 1930-cü ildə onun Parisdə fransızca "Azərbaycan və istiqlaliyyəti", rusca "Qafqaz problemi ilə əlaqədar pantürkizim" kitabları çap edilmişdir. M.Ə.Rəsulzadənin redaktorluğu ilə Berlində "İstiqlal" (1932-1934) qəzeti və "Qurtuluş" (1934-1938) jurnalı çıxırdı. 1933-cü ildə Berlində onun "Azərbaycan Respublikası haqqında bəzi qeydlər" adlı kitabı nəşr olunmuşdur. O, 1938-ci ildən Polşa hökumətində məsləhətçi işləmiş və 1940-cı ildən Rumıniyada yaşamışdır. 1947-ci ildə Ankaraya köçən M.Ə.Rəsulzadənin "Azərbaycanın kultur kələnəkləri" (1949), "Çağdaş Azərabycan ədəbiyyatı" (1950), "Çağdaş Azərbaycan tarixi" (1951) və "Azərbycan şairi Nizami" (1951) adlı kitabları nəşr olunmuşdur. Onun 1952-ci ildən Ankarada nəçr olunan "Azərbaycan" jurnalında xalqımızın tarixi və ədəbiyyatı haqqında xeyli məqaləsi çap edilmişdir. 1954-cü ildə İstambulda çaxan "Dünya" qəzeti M.Ə.Rəsulzadənin İ.V.Stalin haqqında silsilə xatirə məqalələrini vermişdir. O yazırdı: "Baxmayaraq biz vaxtı ilə dost olmuşuq, İ.Stalin türk –tatar xalqlarının qəddar və quduz düşməni idi". Artıq zaman və həyat bunu tamamilə təsdiq etmişdir.

M.Ə.Rəsulzadə 1955-ci il martın 6-da Ankarada vəfat etmişdir.

Mövsüm Əliyev.

# FƏTƏLİ XAN XOYSKİ

Odlar yurdu, №1, yanvar 1989.

Öz dövrünün görkəmli siyasi və ictimai xadimi Fətəlixan İskəndər oğlu Xoyski 1875-ci il dekabrın 7-də Şəki şəhərində anadan olmuşdur. Onun atası rus ordusunun general-leytenantı idi.

Fətəli xangilin əsli-nəsli Cənubi Azərbaycanın Xoy şəhərindəndir. Xoy xanı olan ulu babası Cəfərqulu İran şahı Fətəli xan ilə müharibədə məğlub olduqdan sonra, 20.000 nəfərlik qoşunu ilə Üç kilsəyə (Eçmiadzinə) sığınmışdı. 1803-1806-cı illər Rus – İran müharibələri dövründə rus qoşunlarına qoşulan Cəfərqulu xan imperator I Aleksandr tərəfindən bahalı brilyantla bəzədilmiş qızıl medal və lələklə təltif edilmişdir. O,1807-ci ildə Şəki xanı təyin edilmiş və general –leytenant rütbəsinə layiq görülmüşdür. Cəfərqulu 1810-cü ildə vəfat etdikdən sonra Şəki xanlığını onun oğlu İsmayıl idarə etmişdir. 1819-cu ildə İsmayılın vəfatı ilə Şəki xanlığı ləğv olunmuş və Rusiyanın tərkibinə qatılmışdır. Bu nəsildən görkəmli sərkərdələr, dövlət xadimləri və çoxlu ali təhsilli ziyalı çıxmışdır. Bunlardan biri də Fətəli xan Xoyskidir. O, Gəncə klassik gimnaziyasını, 1901-ci ildə isə Moskva Universitetinin hüquq fakultəsini bitirmişdir. Fətəli xan əvvəlcə Gəncədə, sonra isə Suxum, Batum və Kutais dairə məhkəmələrində müxtəlif vəzifələrdə işləmişdir. Yekaterinodar dairə məhkəməsində prokuror müavini təyin edilməsi (1907) Xoyskinin ictimai fəaliyyətində yeni mərhələ olmuşdur. O, Yelizavetpol quberniyasından (Gəncə) II Dövlət Dumasına nümayəndə seçilmişdi. Fevralın 2-də Peterburqun məşhur Tavriya sarayında toplanan Rusiya parlamentinin iclaslarında çıxış edən Fətəli xan çar hökumətinin Zaqafqaziyada və Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini tənqid atəşinə tuturdu. O, kadet partiyasının üzvü olmasına baxmayaraq, Dumanın müsəlman deputatları fraksiyasına daxil idi. F.Xoyski Rusiyanın müstəmləkə xalqlarına məhəlli muxtariyyət verilməsini hökumətdən tələb edirdi. O. Sonralar müxtəlif illərdə Bakı və Gəncə dairə məhkəmələrində iş kəsmək üzrə andçı – müvəkkil vəzifəsini icra etmişdir.

1917-ci ildə Rusiyada fevral – burjua inqilabı baş verdi. F.Xoyski martın 27-də Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdir. O, həmin ilin aprelində Bakıda çağırılan Qafqaz müsəlmanlarının

qurultayında iştirak etmişdir.

F.Xoyski burjua inqilabından sonra heç bir partiyaya mənsub olmasa da, 1917-ci il oktyabrın 26-dan 31-dək Bakıda keçirilən "Türk ədəmi – mərkəziyyət partiyası" "Müsavat"ın birinci qurultayında çıxış vı iştirak etmiş və həmin qurultayda irəli sürülən "Azərbaycana muxtariyyət" şüarını qızğın müdafiə etmişdir. O, 1917-ci ilin dekabrında yaranan Zaqafqaziya seyminin üzvü və müstəqil Zaqafqaziya Federativ Respublikasının ədliyyə naziri olmuşdur.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Təkcə türkdilli xalqlar arasında deyil, bütün müsəlman dünyasında ilk dəfə olaraq respublika üsul – idarəsinə qədəm qoyan Azərbaycan xalqının ilk müstəqil hökumətini təşkil etmək bitərəf F.Xoyskiyə tapşırıldı. O, hökumətdə həm nazirlər çurasının sədri, həm də daxili işlər naziri vəzifəsini tuturdu. 1918-ci il iyunun 17-də Azərbaycan Milli Şurasının göstərişinə əsasən Fətəli xan Xoyskinin başçılığı ilə ikinci hökumət kabinəsi təşkil olundu.

1918-ci il sentyabrın 15-də Bakının oyuncaq Sentrokaspi qüvvələrindən təmizlənməsi münasibəti ilə F.Xoyski çıxış edərək demişdir: "Bizim də həyatda yaşamağa, bizim də azad yaşamağa hüququmuz vardır. Heç bir zirehli maşın. Hidroplan, aeroplan, kanonerka, məftilli çəpər mina və sairə texniki qurğu, heç bir ingilis, heç bir qüvvə və onların havadarları tarixin təbii axarına mane ola bilmədilər. Bakının 50 minlik qoşun və texnika ilə birlikdə kiçik bir qüvvənin həmləsi qarşısında süqutu başqasının fəklakəti üzərində öz xoşbəxtliyi qurmaq istəyənlərə ibrət dərsi olmalıdır." ("Azərbaycan" qəzeti, 19. IX. 1918, № 2.)

Professor V.İ.Razumovskinin 1922-ci ildə çap etdirdiyi "Bakı şəhərində universitetin əsasının qoyulması" adlı məqaləsindən məlum olur ki, Azərbaycan Dövlət Universitetinin yaranması təşəbbüsü F. Xoyskiyə

F. Xoyski 1918-ci il dekabrın 26-da təçkil etdiyi hökumət kabinəsində sə nazirlər şurasının sədri və xarici işlər naziri vəzifəsini tuturdu. Məhz onu dövründə Azərbaycanda Dövlət orqanizminin özülü qoyulmuşdu. Müstəmləkə siyasətinin rəmzi olan Yelizavetpol şəhəri və quberniyasının yenidən Gəncə və Gəncə quberniyası adlandırılması, Qaryagin qəzasının Cəbrayıl qəzası adı ilə əvəz edilməsi, çoxpartiyalı parlament sisteminin yaradılması, Azərbaycan Respublikasının pul və poçt markalarının buraxılması, ana dilində məktəb və seminariyaların açılması və digər mütərəqqi tədbirlər Xoyskinin rəhbərlik etdiyi hökumət kabinələri dövründə həyata keçirilməyə başlanmışdır. Həmin illərdə sinfi ziddiyyətlərin qalmasına baxmayaraq, yuxarıda qeyd edilən bütün tədbirlər öz dövrü üçün müsbət xarakter daşıyırdı.

1919-cu il martın əvvəllərində F.Xoyskinin başçılıq etdiyi etdiyi hökumət kabinəsi istefaya çıxdı.

F. Xoyski nazirlər şurasının sədri Nəsib bəy Yusifbəylinin 1919-cu il dekabrın 23-də təşkil etdiyi ikinci hökumət kabinəsində xarici işlər naziri vəzifəsini icra etmişdir. Azərbaycan Demokratik Respublikasının beynəlxalq aləmdə və xarici dövlətlər tərəfindən tanınmasında Fətəlixan Xoyskinin müəyyən xidmətləri vardır.

1920-ci il yanvarın 2-də RSFSR-ni xarici işlər üzrə xalq jkomissarı G.V.Çiçerin ağqvardiyaçı general Denikinə qarşı vahid cəbhə yaratmaq üçün Xoyskiyə nota ilə müraciət etdi. Həmin ayın 189-da F.Xoyskininj verdiyi cavabda göstərilirdi ki, "Azərbaycan Respublikası Sovet Rusiyasının daxili işlərinə qarışmır və bu məsələdə bitərəfdir".

G.V. Çiçerin 23 yanvar tarixli ikinci natasında yenə həmin məsələyə qayıdaraq, Azərbaycanı RSFSR –lə əməkdaşlığa dəvət edir və yazırdı ki, biz həmişə bir səma altında, bir yerdə yaşamışıq və yenə də bir yerdə yaşamalıyıq. Xoyski fevralın 1-də Çiçerinə öz hökumətinin rəsmi fikrini bildirmiş, onun təklifini rədd etmişdir.

1920-ci il fevralın 20-də Çiçerinin üçüncü notası və martın 7-də Xoyskinin cavabı eyni məsələyə həsr olunmuşdur. Martın axırında Çiçerin sonuncu notanı göndərmiş, aprelin 27-də Xoyski Azərbaycan parlamentində cavab notasını oxuyarkən XI Qızıl Ordunun Bakıya yaxınlaşdığı xəbəri alınmışdır. Bu hadisələrdən sonra Fətəlixan öz ailəsi ilə Tiflisə getmişdir. F.Xoyski muzdlu erməni bir qatil tərəfindən 1920-ci il iyunun 19-da Tiflisdə arxadan güllə atəşi ilə öldürülmüş və Azərbaycan dramaturgiyasının banisi M.F.Axundovun qəbri yanında dəfn olunmuşdur.

Mövsüm Əliyev.

# NƏSİB BƏY YUSİFBƏYLİ

Odlar yurdu. № 22, noyabr 1989.

Nəsib bəy Yusif oğlu Yusifbəyli 1881-ci ildə Gəncədə anadan olmuşdur. Onun atası şəhərin maarifpərvər ziyalılarından idi. Orta təhsilini Gəncə klassik gimnaziyasında başa çatdırdıqdan sonra Nəsib bəy Yusifbəyli 1902-ci ildə Odessa universitetinin hüquq fakultəsinə daxil olmuş, birinci rus inqilabı ərəfəsində siyasi fəaliyyətə başlamışdır. O, universitetdə azərbaycanlı tələbələr tərəfindən yaradılan Azərbaycan həmyerlilər təşkilatının başçılarından biri idi. Bu təşkilatın rəhbərlərinin 1904-cü ildə çəkilmiş fotoşəklində biz Nəriman Nərimanov, Xosrovbəy Sultanov, Şahmalıyev qardaşları və başqa şəxslərlə yanaşı, Nəsib bəy Yusifbəylini də görürük.

Tələbələrin inqilabı mübarizəsindən qorxuya düşən çar hökuməti 1907-ci ildə Odessa universitetini müvəqqəti bağladıqdan sonra Nəsibbəy Yusifbəyli Krımın Bağçasaray şəhərinə köçmüş və orada görkəmli siyasi və ictimai xadim İsmayıl bəy Qaspirinskinin (1852-1914) redaktor olduğu "Tərcuman" qəzetində məqalələrlə çıxış etməyə etməyə başlamışdır. O, İsmayıl bəyin qızı Şəfiqə Sultan xanım Qaspirəli (1886 -1975) ilə ailə həyatı qurmuş və bir müddət bu şəhərdə yaşamışdır. Nəsib bəy Yusifbəyli həmin illərdə Azərbaycan dramaturqlarının əsərlərini Bağçasarayda tamaşaya qoymuş, özü də əsas rollarda çıxış etmişdir. "Tərcuman" qəzetinin 13 yanvar 1907-ci il tarixli nömrəsində Bağçasaray şəhər teatr həvəskarları tərəfindən Əbdürrəhim bəy Haqverdiyevin (1970-1933) "Dağılan tifaq" faciəsinin tamaşaya qoyulduğu Nəcəf bəy rolunu Nəsibbəyin oynadığı xəbər verilir. Həmin qəzetdə verilən məlumatlardan aydın olur ki, Nəsib bəy Yusifbəyli o illərdə görkəmli Azərbaycan ədəbiyyatşunası F. Köçərlinin (1863-1920) "Azərbaycan ədəbiyyatı" və Hüseyn Əfəndi Qayıbovun (1830-1917) "Azərbaycanda məşhur olan şuaranın əşarına məcmuədir" adlı əsərlərin Bağçasaray şəhərində şəhərində çap olunması üçün çox çalışmışdır. Lakin naməlum səbəblər üzündən bu məsələ baş tutmamışdır. Ümumiyyətlə, Nəsib bəy XX əsr Azərbaycan – Krım ədəbi – mədəni əlaqələrinin əsasını qoyanlardan biridir.

Yoxsulluq üzündən N. Yusifbəyli ali məktəbi dördüncü kursdan atmışdır. Çar hökumət orqanlarının təqiblərindən yaxa qurtarmaq üçün 1908-ci ildə bir

müddət İstambulda yaşayan Nəsib bəy "Türk dərnəyi" adlı cəmiyyətin banilərindən biri olmuşdur. Lakin sultan istibdadının rus çarizmi qədər qəddar olduğunu görən N.Yusifbəyli 1909-cu ildə Türkiyədən Gəncəyə qayıtmışdır.

1911-ci ildə Azərbaycan ziyalıları M.F.Axundovun (1812-1878) anadan olmasının 100 illliyini geniş qeyd etmək üçün təşəbbüs göstərdilər. Nəsib bəy Yusifbəyli də onların arasında idi. Onun 1911-ci il mayın 20-də "Tərcuman" qəzetində çap etdirdiyi məqalə bu yubileyə həsr olunmuşdur. "Molla Nəsrəddin" satirik jurnalını o illərdə müdafiə edən ziyalılardan biri də Nəsib bəy Yusifbəyli idi. Onun 1909-cu il sentyabrın 4-də "Tərcuman" (№ 36) qəzetində dərc edilmiş "Mətbuat" adlı məqaləsində Rusiyada çıxan müsəlman satirik jurnallarından bəhs olunur və "Molla Nəsrəddin"ə xüsusi qiymət verilirdi. Həmin qəzetin 40-cı nömrəsində (9.X. 1909) çıxmış məqaləsində isə tatar jurnalı "Yulduz"un redaktoru ilə polemika aparan müəllif "Molla Nəsrəddin" ə hücumların haqsız olduğunu bildirirdi. O illərdə Gəncədə mövcud olan "Müsəlman xeyriyyə cəmiyyətinin", "Müsəlmanlar içində maarifi yayan cəmiyyət"in və "Aktyorlar cəmiyyəti" nin fəaliyyətində Nəsib bəy Yusifbəyli yaxından iştirak etmişdir. O, "Azərbaycan ədəbiyyatı tarixi" əsərini də həmin dövrdə yazıb başa çatdırmışdır. Əlyazmanın sonrakı taleyi bilinmir. Bu əlyazmanın araşdırılıb üzə çıxarılması ədəbiyyatşünasların borcudur.

1917-ci ildə Rusiyada fevral – burjua inqilabı baş verdi. Həmin ilin mart ayında Nəsib bəy Yusifbəylinin rəhbərliyi altında yaradılmış "Türk ədəmi – mərkəziyyət partiyası" Gəncədə fəaliyyətə başladı. Bu partiya Rusiyanı federativ şəkildə qurmaq və onun tərkibində Azərbaycana muxtariyyət vermək uğrunda mübarizə aparırdı. Yeni partiya xalqı öz proqramı ilə tanış etmək üçün şəhərin Şah Abbas məscidinin həyətində böyük mitinq təşkil etmişdir. Bu mitinq "Yaşasın demokratik respublika!", "Yaşasın Azərbaycan muxtariyyəti!", "Yaşasın türk ədəmi – türk mərkəziyyət partiyası!" şüarları altında keçirilmişdi. ("Baky", qəzeti, 12 aprel 1917, № 80). Həmin ilin aprelində Bakıda çağırılan Qafqaz müsəlmanlarının qurultayındakı çıxışında Nəsib bəy Yusifbəyli Rusiyanın tərkibində Azərbaycana muxtariyyət verilməsini qəti şəkildə tələb etmişdir. May ayında isə o, Moskvada keçirilən Rusiya müsəlmanlarının qurultayının iştirakçısı olmuşdu. Bu qurultaydan sonra (iyunda) M.Ə.Rəsulzadənin (1884 -1955) rəhbərlik etdiyi "Müsəlman demokratik musavat partiyası ilə N. Yusifbəylinin başçılıq etdiyi "Türk ədəmi – mərkəziy6yət partiyası" birləşərək "Musavat" adını aldı. Partiyanın Gəncə şöbəsinə Nəsib bəy Yusifbəyli rəhbərlik edirdi. Həmin il oktyabrın 26-dan 31-dək Bakıda davam edən birinci partiya qurultayında N. Yusifbəyli yaxından

iştirak etmişdir. Bu qurultaydan sonra "Azərbaycana muxtariyyət" şuarı altında hərəkat başlanmışdır.

Nəsib bəy Yusifbəyli Zaqafqaziya seyminin üzvü, 1918-ci il aprelin 26-da yaranmış müstəqil Zaqafqaziya Respublikası hökumətinin maarif naziri idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. N. Yusifbəyli bitərəf Fətəlixan İskəndər oğlu Xoyskinin (1875-1920) baş nazir olduğu birinci kabinetdə xalq maarifi naziri vəzifəsini icra etmişdir. O, Xoyskinin başçılıq etdiyi ikinci və üçüncü kabinələrdə də həmin vəzifədə işləmişdir.

1919-cü il aprelin 14-də Azərbaycan Respublikası Nazirlər Şurasının sədri təyin olunan Nəsib bəy Yusifbəyli bu vəzifəni 1920-ci il aprelin 1-nə kimi icra etmişdir. Həmin illərdə sinfi ziddiyyətlərin qalmasına baxmayaraq N.Yusifbəylinin baş nazir olduğu vaxt həyata keçirilmiş bir sıra tədbirlər müsbət xarakter daşıyırdı.

Öz dövrünün görkəmli siyasi – ictimai xadimi olmuş, mürəkkəb və ziddiyyətli bir həyat yolu keçmiş Nəsib bəy Yusifbəyli 1920-ci il mayın əvvəllərində Azərbaycanın Kürdəmir qəzasında Yevlaxın Qorxunlu kəndindən olan quldur Əşrəfin yaxın adamları tərəfindən qətlə yetirilmişdir.

Mövsüm Əliyev

# MƏMMƏD YUSİF CƏFƏROV

Odlar yurdu, № 13, iyul 1989.

Məmməd Yusif Hacıbaba oğlu Cəfərov 1885-ci ildə Bakı şəhərində anadan olmuşdur O, görkəmli pedaqoq, jurnalist Əli İskəndər Cəfərzadənin kiçik qardaşıdır. M.Y.Cəfərov orta təhsilini Bakıda almış. Sonra Moskva Universitetinin hüquq fakultəsini bitirmişdir. O, Moskvada oxuyan azərbaycanlı tələbələrin təşkil etdiyi "Azərbaycan etnoqrafik konsert gecələrinin" və "Azərbaycan həmyerlilər təçkilatının" əsa rəhbərlərindən biri olmuşdur. 1912-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirən M.Y.Cəfərov "Nigahın şəriət üzrə pozulması haqqında rəy" mövzusunda hüquq elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir.

O. Həmin il Peterburqda açılan 4-cü dövlət Dumasına Bakı, Gəncə və İrəvan quberniyalarının müsəlman əhalisi tərəfindən deputat seçilmişdir. M.Y.Cəfərov Dumada kadet partiyasına qoşulmuşdur. O, Dumadakı çıxışlarında çar hökumətinin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətini tənqid atəşinə tuturdu.

1917-ci ildə Rusiyada fevral – burjua inqilabı baş verdi. Həmin il martın 9-da Müvəqqəti hökumətinin göstərişi ilə M.Y.Cəfərov daxil olmaqla Dövlət dumasının beş nəfər üzvündən ibarət xüsusi Zaqafqaziya Komitəsi yaradıldı. Komitədə sənaye və ticarət işlərinə rəhbərlik etmək M.Y.Cəfərova tapşırıldı. O, 1917-ci il noyabrın 15-dən Zaqafqaziya komissarlığında sənaye və ticarət komissarı idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. M.Y.Cəfərov bitərəf F.Xoyskinin (1875- 1920) təşkil etdiyi birinci kabinədə sənaye və ticarət naziri olmuşdur. Həmin il iyunun 17-də F.Xoyskinin başçılıq etdiyi hökumət kabinəsi istefaya çıxdığı üçün M.Y.Cəfərov tutduğu vəzifəni tərk etmişdir. O, bundan sonra Azərbaycan Respublikasının Gürcüstan hökuməti yanında diplomatik nümayəndəsi vəzifəsini icra etməyə başlamışdır.

M.Y.Cəfərov nazirlər şurasının sədri Nəsib bəy Yusifbəylinin təşkil etdiyi kabinədə xarici işlər naziri təyin olunmuşdur. Azərbaycan Demokratik Respublikasının beynəlxalq aləmdə tanınmasında M.Y.Cəfərovun xidmətləri çoxdur. Onun rəhbərliyi altında həmin dövrdə məşhur Azərbaycan sənətşünasları və ictimai xadimləri Məmməd Ağa oğlunun və Hüseyn Mirzəcamalovun

arxivlərdən toplayaraq çap etdirdikləri "Zaqafqaziyada rus siyasətinə aid sənədlər" kitabını xüsusi qeyd etmək lazımdır. Azərbaycan ziyalılarının çar hökuməti tərəfindən təqib olunamasını ifşa edən sənədlər toplusu 1920 ci ilin əvvəllərində Bakıda rusca çapdan çıxmışdır. Azərbaycan parlamentinin üzvü bitərəf M.Y.Cəfərov 1919-cu il oktyabrında "Türk ədəmi – mərkəziyyət partiyası Musavatın" sıralarına daxil olmuşdur. Həmin il dekabrın ortalarında Yusifbəylinin kabinəsi istefaya çıxdığı üçün M.Y.Cəfərov tutduğu vəzifəni tərk etmişdir. O, 1920 –ci il fevralın 2-də Azərbaycan parlamentinin sədrinin müavini vəzifəsindən azad olunan Həsən bəy Ağayevin yerinə seçilmişdir. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov Bakıda olmadığı üçün M.Y.Cəfərov onun vəzifəsini 1920 – ci il aprelin 27-dək icra etmişdir.

1920-ci ilin martında Dağlıq Qarabağda daşnaklar Azərbaycan Respublikası əleyhinə böyük üsyan qaldırdılar. Avanturada məqsəd nizami Azərbaycan ordusunu Bakıdan çıxarmaqda idi. O dövrdə Azərbaycan ordusu Zaqafqaziyada ən mükəmməl silaha və təcrübəli sərkərdələrə malik ordu sayılırdı. Əskəran yaxınlığında döyüşdə daşnak qoşunları və yerli erməni könüllülərindən ibarət dəstələr darmadağın edildi.

1920-ci il martın 30-da Yusifbəylinin kabinəsi istefaya çıxdı. Aprelin 1-də yeni kabinə təşkil etmək Məmməd Həsən Hacınskiyə tapşırıldı. O, bu məqsədlə parlamentə daxil olan bütün partiya və fraksiyaların rəhbərləri ilə, həmçinin bolşeviklərlə danışıqlar apardı. M.H.Hacinski bolşevikləri yeni hökumətə daxil etməklə Samur körpüsünün şimal tərəfində dayanmış 11-ci Qızıl Ordunun Bakı üzərinə yürüşünü ləngitmək və nizamiAzərbaycan ordusunu təcili Dağlıq Qarabağdan Bakıya qaytarmaq istəyirdi. Bu vaxt Bakıda cəmisi iki minə yaxın əsgər var idi. Onlar dövlət idarələrini qoruyurdu. Bolşeviklərdən rədd cavabı alan M.H.Hacinski aprelin 22-də Azərbaycan parlamentinin sədrini əvəz edə bilməyəcəyini rəsmən bildirdi.

1920 –ci il aprelin 26-dan 27-nə keçən gecə 11-ci Qızıl Ordu Samur körpüsünü , yəni Azərbaycan sərhədini keçərək Bakı üzərinə yürüşə başladı. Aprelin 27-də parlamentin iclası zamanı Quba valisi Əmirxan Xoyski tərəfindən vurulmuş teleqramda 11-ci Qızıl Ordunun Azərbaycan sərhədini keçdiyi və Xaçmazı tutduğu xəbər verilirdi. Bu məlumatla əlaqədar Azərbaycan parlamenti yaranmış vəziyyətin təhqiqi üçün M.H. Hacinski başda olmaqla xüsusi nümayəndə heyəti yaratdı. Bu vaxt Ağa Hüseyn Kazımovun və Həmid Sultanovun başçılıq etdiyi bolşevik nümayəndə heyəti parlamentə hakimiyyəti müqavimət göstərmədən təslim etmək haqqında ultimatum verdi. Həmin gün saat 13-də 11-ci Qırmızı Ordu

Bakıya daxil oldu.

M.H.Hacınski başda olmaqla xüsusi nümayəndə heyəti ilə bolşevik nümayəndələri əvvəlcə A.H.Kazımovun evində, sonra isə B.Cavanşirin mənzilində ultimatumu müzakirə etdilər. Bir yandan hökumət böhranı, digər tərəfdən yaranmış mürəkkəb siyasi şərait nəticəsində həmin gün saat 23-də M.Y.Cəfərovun imzası ilə Azərbaycan parlamenti hakimiyyəti müqavimət göstərmədən bolşeviklərə vermək haqqında qərar çıxardı.

Sovet dövründə pambıqçılıq trestində və "Azərbaycan şərabşılıq tresti"ndə hüquq məsləhətçisi vəzifəsində işləmişdir. O, 1938-ci il mayın 15-də Bakıda vəfat etmiş və Şağan kəndində dəfn olunmuşdur.

Mövsüm Əliyev.

# ƏLİAĞA ŞIXLİNSKİ

Odlar yurdu. № 23, dekabr 1988.

Görkəmli sərkərdə Əliağa İsmayıl oğlu Şıxlinski 1865-ci il aprelin 23-də Qazax qəzasının Qazaxlı kəndində anadan olmuşdur. O, 1875-ci il noyabrın 17-də Tiflisdə xüsusi ikiillik gimnaziyaya daxil olmuş və həmin məktəbi fərqlənmə vərəqi ilə yeddi aya bitirmişdir. Ə.Şıxlinski 1876-1883-cü illərdə Tiflis hərbi gimnaziyasında oxumuş. Sonra Peterburqdakı Mixaylov artilleriya məktəbində hərbi təhsilini başa çatdırmışdır. O, hərbi xidmətə 1886-cı ildə Aleksandropol şəhərində yerləşən 39-cu artilleriya briqadasında başlamışdır.

Öz üzərində daim çalışan və artilleriyanın sirlərinə dərindən yiyələnən Ə.Şıxlinskiyə 1888-ci il noyabrın 23-də poruçik rütbəsi,1894-cü il iyulun 15-də ştabs – kapitan, 4 il sonra isə kapitan rütbəsi verilmişdir. 1900-cü il mayın 17-də Zabaykalye artilleriya divizionunda qulluq edən Ə.Şıxlinski birinci batareyanın baş zabiti, 1902-ci il mayın 14-də isə ikinci batareyanın komandiri təyin olunmuşdur. Həmin illərdə Şıxlinski "Müqəddəs Stanislav" (III dərəcə 1894, II dərəcə 1896) və "Müqəddəs Anna" (I dərəcə 1906) ordenlərinə layiq görülmüşdür.

1904-cü ilin martında rus – yapon müharibəsi başlanmışdır. Həmin ilin mayın 1-də kapitan Ə.Şıxlinski 4-cü Şərqi Sibir atıcı artilleriya briqadasına göndərilmişdir. Port – Arturun müdafiəsində iştirak edən Ə.Şıxlinski öz batareyası ilə bir neçə dəfə yaponların hücumunun qarşısını almışdır. Döyüş meydanlarında göstərdiyi qəhrəmanlıqlara görə o, ikinci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunmuş və noyabrın 13-də podpolkovnik rütbəsi almışdır. Ona həmçinin üstündə "Qəhrəmancasına fərqlənməyə görə" sözləri yazılmış qızıl qılınc, dördüncü dərəcəli, bantlı və qılınclı "Müqəddəs Anna" (qızıldan) və dördüncü dərəcəli, bantlı və qılınclı "Müqəddəs Vladimir" ordenləri verilmişdir. Bunlarla yanaşı, həmin dövrdə Ə.Şıxlinski hər bir zabitin arzuladığı dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif edilmişdir.

Rus – yapon müharibəsindən sonra Ə.Şıxlinski təhsilini təkmilləşdirmək üçün 1906-cı ildə Sarskoye Selodakı artrilleriya məktəbində oxumuş, 1907-ci il yanvarın 22-də isə həmin məktəbə müəllim dəvət olunmuşdur. Əliağa Şıxlinski burada səhra artilleriyası şöbəsində işləmişdir. Onun rəhbərliyi altında artilleriya

üzrə aparılan məşqlər həm nəzəri və həm də təcrübi cəhətdən həmişə fəqlənirdi. 1908-ci il noyabrın 26-da Ə.Şıxlinskiyə polkovnik rütbəsi verilmişdir.

1910-cu il avqustun 4-də Ə.Şıxlinski Vladiqafqaz şəhərində yerləşən 21-ci artilleriya briqadasının 1-ci divizionunun komandiri təyin olunmuşdur. Müstəsna istedadı nəzərə alınaraq o,1912-ci il yanvarın 30-da yenidən artilleriya məktəbinə çağırılmış, əvvəlcə baş rəhbər, bir il sonra isə məktəb rəisinin köməkçisi təyin olunmuşdur. 1914-cü il aprelin 14-də Ə.Şıxlinskiyə artilleriya üzrə general – mayor rütbəsi verilmiş və üçüncü dərəcəli "Müqəddəs Vladimir" ordeni ilə təltif edilmişdir. Bundan əlavə, sərkərdə Fransanın "Fəxri legion" ordeninə layiq görülmüşdür.

1914-cü il avqustun 1-də birinci dünya müharibəsinin başlanması ilə əlaqədar olaraq, artilleriya məktəbi öz fəaliyyətini dayandırmışdır. Həmin il sentyabrın 1-də Ə.Şıxlinski Rusiya imperiyası paytaxtının artilleriya rəisi təyin olunmuş, 1915-ci il yanvarın 31-də isə Şimal – Qərb cəbhəsi komandanlığının sərəncamına göndərilmiş və ağır artilleriya üzrə taktiki döyüş əməliyyatlarına rəhbərlik etmişdir.

1915-ci il sentyabrın 14-dən Ə.Şıxlinski Ali Baş komandanlığın qərargahında çalışmışdır. 1916-cı il aprelin 10-da Qərb cəbhəsinə daxil olan ordunun artilleriya üzrə inspektoru təyin edilən Ə.Şıxlinski bu vəzifədə də özünü görkəmli mütəxəssis kimi göstərmişdir. Xüsusən 4-cü və 10-cu orduların alman qoşunları üzərindəki qələbələri onun rəhbərliyi ilə həyata keçirilmiş artilleriya əməliyyatları sayəsində qazanılmışdır. Buna görə də sərkərdəyə 1917-ci il aprelin 2-də general – leytenant rütbəsi verilmişdir. Həmin il sentyabrın 10-da Ə.Şıxlinski Qərb cəbhəsindəki 10-cu ordunun komandanı təyin olunmuşdur.

Birinci dünya müharibəsi dövründə Ə.Şıxlinskinin sərkərdəlik məharəti birinci dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə (18.11.1915), qılıncı olan birinci dərəcəli "Müqəddəs Anna" (26.5.1915) və qılıncı olan ikinci dərəcəli "Müqəddəs Vladimir" (6.12.1915) ordenləri ilə qiymətləndirilmişdir.

Ə.Şıxlinski səhhətinin pisləşməsi ilə əlaqədar olaraq, 10-cu ordunun komandanlığından 1917-ci il noyabrın 14-də istefaya çıxmış, Vətənə dönmüşdür. Bu dövrdə Azərbaycanda milli hərəkat başlanmışdır. 1917-ci ilin dekabrında Ə.Şıxlinskinin qarşısında Azərbaycan korpusunu təşkil etmək vəzifəsi qoyulmuşdur. Görkəmli sərkərdə bu çətin vəzifənin öhdəsindən gələ bilmişdir. Həmin korpusun hissələri qədim Gəncə ətrafını düşmən ünsürlərdən qorumaqda idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu.

Həmin il sentyabrın 15-də Azərbaycanın paytaxtı tərkibi menşevik, eser və daşnaklardan ibarət olan və "Sentrokaspi diktaturası" adlanan oyuncaq "hökümətdən" təmizləndikdən sonra, Əliağa Şıxlinski Bakıya gəlmişdir. Bir müddət sonra o. Azərbaycan Respublikası hərbi naziri Səməd bəy Mehmandarovun (1855-1931) müavini təyin olunmuşdur. Tarixdə ilk dəfə xalqımızın hərbi təlim keçməsi və müasir silahların sirlərinə yaxından yiyələnməsi həmin dövrdə həyata keçirilmişdir. Onun sayəsində Azərbaycanda – Naxçıvan, Qarabağ və Zəngəzurda dinc azərbaycanlıları qıran daşnak Andronik Ozanyanın (1865- 1927) quldur dəstələrinin kökünü kəsmək mümkun olmuşdur.

Azərbaycan respublikasının baş naziri Nəsib bəy Yusifbəylinin (1881-1920) 1919 –cu il 28 iyun tarixli 29 nömrəli əmrilə nizami Azərbaycan ordusunun təşkilində göstərdiyi xidmətlərə görə Əliağa Şıxlinskiyə artilleriyadan olan tam general rütbəsi verilmişdir. Beləliklə, Ə.Şıxlinski, S. Mehmandarov və H. Naxçıvanskidən sonra tam general rütbəsinə layiq görülmüş üçüncü azərbaycanlı hərbi döyüş sərkərdəsidir.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra görkəmli partiya və dövlət xadimi N.Nərimanovun 1920-ci il avqustun 10-da V.İ. Leninə yazdığı məktubunda S.Mehmandarovun və Ə.Şıxlinskinin hərbi qərargahda işləməsi üçün Moskvaya göndərildiyi qeyd olunmuşdur. 1921-ci ilin payızında Bakıya qayıdan Ə.Şixlinski Azərbaycan SSR hərbi – dəniz komissarlığında çalışmış, Azərbaycan hərbi məktəbində artilleriyadan dərs demiş, 1925-ci ildə isə həmin məktəbin rəisinin köməkçisi təyin olunmuşdur. Ə.Şıxlinskinin tərtib etdiyi "Rusca – azərbaycanca qısa hərbi lüğət" 1926-cı ildə Bakıda nəşr olunmuş və o dövrdə xalqımızın öz doğma dilində hərbi təlim keçməsi üçün əsas vəsaitlərdən biri olmuşdur.

SSSR Elmlər Akademiyasının Azərbaycan filialının xahişi ilə Ə.Şıxlinski öz xatirələrini yazmışdır. Bu əsər 1944-cü ildə Bakıda çap olunmuşdur.

Görkəmli sərkərdə Əliağa Şıxlinski 1943-cü il avqustun 18-də Bakıda 79 yaşında vəfat etmişdir.

Mövsüm Əliyev.

# SƏMƏDBƏY MEHMANDAROV

Odlar yurdu. № 13, iyul,1988.

Görkəmli sərkərdə Səmədbəy Mehmandarov 1885-ci il oktyabrın 16-da Lənkəranda anadan olmuşdur. Quberniya katibi işləyən atası Sadıqbəy Qarabağdan köçüb gəlmiş zadəgan idi. İlk təhsilini Bakı realnı məktəbində alan Səmədbəy on altı yaşında Peterburqda yerləşən ikinci Konstantinovka artilleriya məktəbinə daxil olmuş və 1875-ci ildə təhsilini başa vurmuşdur. O, 1875-ci ilin dekabrında podporuçik rütbəsi almış və üçüncü dərəcəli "Müqəddəs Stanislav" ordeni ilə təltif edilmişdir. Öz üzərində daim çalışan və artilleriyanın sirlərinə dərindən yiyələnən S.Mehmandarov 1890-cı ildə kapitan rütbəsinə, 1891-ci ildə isə ikinci dərəcəli "Müqəddəs Stanislav" ordeninə layiq görülmüşdür. 1894-cü ildə hərbi komandanlığının əmri ilə Səmədbəy Varşava hərbi Dairəsinin sərəncamına göndərilomiş və həmin şəhərdə hərbi məhkəmənin üzvü seçilmişdir. 1896-cı ildə o, ikinci dərəcəli "Müqəddəs Anna" ordeni ilə təltif olunmuşdur. 1898-ci ildə podpolkovnik rütbəsi alan Səmədbəy Zabaykalye artilleriya divizionun komandiri təyin edilmişdir. O illərdə divizion Mancuriyada yerləşirdi. 1900-1901-ci illərdə Çində antiimperialist hərəkatının yatırılmasında S.Mehmandarovun komandir olduğu divizion da iştirak etmişdir. Lakin S. Mehmandarov silahsız Çin əsgərlərinə atəş açmağa razı olmamışdır. 1901-ci ildə Səmədbəyə polkovnik rütbəsi ilə birlikdə üçüncü dərəcəli "Müqəddəs Vladimir" ordeni, habelə üstündə "Qəhrəmancasına fərqlənməyə görə" sözləri yazılmış qızıl qılınc da verilmişdir.

Rus- yapon müharibəsi zamanı S.Mehmandarovun komandir olduğu divizion Port – Artur qalasını yaponlardan müdafiə etmişdir. Bu müharibədə Səmədbəyin sərkərdəlik məharəti yüksək qiymətləndirilmiş və 1904-cü ilin oktyabrın 22-də o, general – mayor rütbəsi almış, dördüncü dərəcəli "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdur. 1907- 1910-cu illərdə S.Mehmandarov 3-cü Sibir ordusunda artilleriya rəisi işləmişdir.

1908-ci il iyulun 13-də hərbi xidmətlərinə görə Səmədbəyə general – leytenant rütbəsi verilmişdir.

Birinci dünya müharibəsi başlananda S.Mehmandarov Varşava əməliyyatı istiqamətində idi. Qərb cəbhəsinin Varşava qrupu alman qoşunlarının əsas zərbə qüvvələrinə qarşı yönəldilmişdi. Payızda burada baş verən qanlı vuruşmalar rus

ordusunun tam qələbəsi ilə bitmişdir. Cəbhələrdə göstərdiyi sərkərdəlik məharətinə görə 1915-ci ilin martın 22-də Səmədbəy Mehmandarova artilleriya üzrə tam general rütbəsi verilmişdir.

1917-ci il fevral – burjua inqilabı baş verərkən S.Mehmandarov Qafqazda idi. Həmin ilin aprel ayında o, tutduğu vəzifəsini həmişəlik tərk etmişdir. Beləliklə S.Mehmandarovun birinci dünya müharibəsində iştirakı və rus ordusunda hərbi xidməti başa çatmışdır. Artıq bu zaman o, Rusiyanın "Stanislav", "Vladimir", "Anna", "Georgi" ordenlərinin bütün dərəcələrinə layiq görülmüşdür. Ona həmçinin İngiltərə. Fransa, Rumıniya və İranın ordenləri verilmişdir.

İstefaya çıxdıqdan sonra Mehmandarov Vladiqafqaz şəhərində öz sakit malikanəsində yaşamışdır. Uzun ayrılıqdan sonra qohum və dostları ilə görüşmək üçün 1918-ci ilin sentyabrında Bakıya gəlmişdir. Oktyabrın 1-dən S.Mehmandarov hərbi nazirlikdə işləməyə başlamış, dekabrın 15-də isə nazir vəzifəsini tutmuşdur. Onun müavini görkəmli topçu və sərkərdə Əliağa Şıxlinski idi. Nazirliyin quruca adı var idi. Onu təşkil etmək və qurmaq kimi çətin vəzifə S. Mehmandarovun üzərinə düşmüşdür. Bütün çətinliklərə baxmayaraq S.Mehmandarovun böyük əməyi nəticəsində qırx minlik nizami Azərbaycan ordusu yaradılmışdır. Bunun otuz mini piyada on mini isə süvari qoşun hissələrindən ibarət idi. Azərbaycan ordusunun döyüş taktikasına rəhbərlik etmək üçün hərbi qərargah təşkil olunmuşdur. Litva tatarlarından olan general - leytenant K. Sulkeviç (1865 - 1920) hərbi qərargahın rəisi təyin edilmişdir. Birinci dünya müharibəsinin qurtarması ilə əlaqədar olaraq rus ordusundan Vətənə dönmüş on beş minə yaxın azərbaycanlı general S.Mehmandarovun ətrafına toplaşmlş, beləliklə döyüşkən Azərbaycan generaliteti yaranmışdır. Ordu üçün zabit kadrları hazırlamaq üçün 1918-ci ilin iyul ayında Gəncədə açılmış praporşik məktəbi 1919-cu ilin əvvəllərində Bakıya köçürülmüş, onun əsasında Azərbaycan hərbi məktəbi təşkil olunmuşdur. Bakıda istehkamçı və hərbi feldşer məktəbləri də açılmışdır. Gəncədə hərbiləşdirilmiş dəmiryolu məktəbi fəaliyyətə başlamışdır. 1920-ci ilin yanvarında bu məktəblərə müdavim hazırlayan xüsusi hərbi təmayüllü kadet korpusu təşkil olunmuşdur. Böyük bəstəkarımız Üzeyir Hacıbəyov (1885- 1948) ordu üçün milli Azərbaycan marşını bəstələmiş, orden və medallar üçün müsabiqə elan olunmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra görkəmli dövlət xadimi N.Nərimanovun V.İ.Leninə yazdığı məktubunda S.Mehmandarovun və Ə.Şıxlinskinin hərbi qərargahda işləmək üçün Moskvaya göndərildiyi qetd olunmuşdur. 1921-ci ilin payızında Bakıya qayıdan Səmədbəy Azərbaycan SSR hərbi – dəniz komissarlığında məsləhətçi vəzifəsində işləmişdir. 1924-cü ildən

1927-ci ilin axırına qədər o, Azərbaycan hərbi məktəbində və Zaqafqaziya hərbi – piyada məktəbində dərs demişdir. Onun yetirməsi olan bir çox azərbaycanlı hərbçi sonralar Sovet Ordusu sıralarında general rütbəsinə qədər yüksəlmişlər. General S. Mehmandarov həmçinin Bakı zabitlər evi nəzdində 1924-cü ildən fəaliyyət göstərən "hərbi – elmi cəmiyyətin" sədri olmuşdur.

Yaşının ötməsi və səhhətinin pisləşməsi ilə əlaqədar S.Mehmandarov 1928-ci ildə Sovet Ordusu sıralarından istefaya buraxılmışdır. Görkəmli sərkərdə 1931-ci ilin fevralında Bakıda vəfat etmişdir.

Mövsüm Əliyev.

# CEYHUN HACIBƏYLİ

Odlar yurdu. № 20, oktyabr, 1988.

Çoxşaxəli fəaliyyəti ilə təkcə Azərbaycanda deyil, Qərbi Avropada da yaxşı tanınan görkəmli ədib, siyasi və ictimai xadim Ceyhunbəy Əbulhüseyn oğlu Hacıbəyli 1891-ci il fevralın 2-də Şuşa şəhərində anadan olmuşdur. O, ibtidai təhsilini məşhur jurnalist və incəsənət xadimi Haşımbəy Vəzirovun (1866 - 1926) müdir olduğu məktəbdə, orta təhsilini isə Bakıda almışdır.

1907-ci ilin axırları... Bakının "İslamiyyə" mehmanxanasının 31-ci otağına girən hər kəs burada islam şərqinin birinci operası olan "Leyli və Məcnun"un ilk tamaşasının necə hazırlandığını görə bilərdi. Əsərin müəllifləri, gələcəyin böyük bəstəkarı Üzeyir Hacıbəyov və onun kiçik qardaşı Ceyhun son məşqlərə rəhbərlik edirlər. 1908-ci il yanvarın 12-də H.Z.Tağıyev teatrında operanın ilk tamaşası oldu. Beləliklə, bu əsərlə Azərbaycan opera sənətinin əsası qoyuldu. Tamaşada Ceyhunbəy özü də iştirak edir. İbn – Səlam rolunu oynayırdı. İlk tamaşa haqqında o dövrün mətbuatında çoxlu müsbət rəy dərc olunmuşdur. Bu rəylərdə Ceyhunbəyin öz rolunun öhdəsindən məharətlə gəldiyi qeyd edilirdi.

Gənc Ceyhunbəy musiqinin incəliklərinə dərindən bələd olsa da sonralar bəstəkarlıqla məşğul olmamış, bu sənətin dalınca getməmişdir. 1908-ci ildə o, Üzeyirbəylə birlikdə Əlibəy Hüseynzadənin (1864-1914) müdir olduğu "Səadət" məktəbində müəllim işləmişdir. Sonra Ceyhunbəy milyonçu Murtuza Muxtarovun vəsaiti ilə (1855- 1920) Peterburq Universüitetinin hüquq fakultəsinə daxil olmuşdur. Bir il orada oxuduqdan sonra 1909-cu ilin yayında Fransanın paytaxtı Parisə gedərək, təhsilini Sorbonna Universitetində və siyasi biliklər məktəbində davam etdirir. Ceyhunbəy Hacıbəylinin həmin illərdə Parisdən göndərdiyi bir çox məqaləsi Bakıda rus dilində çıxan qəzetlərdə çap olunmuşdur. Bunlardan 1909-cu ildə "Baky" qəzetində dərc olunmuş "Müsəlmanlar və incəsənət" (2.X.1909) məqaləsi o dövr üçün aktual məsələlərə toxunurdu.

Ceyhunbəy Hacıbəyli "Leyli və Məcnun" operasının yaranması və ilk tamaşası haqqında Fransa mətbuatında çıxış etmiş, Qərbi Avropa xalqlarına həmin opera barədə geniş məlumat vermişdir. ("Revyu de Monde muzulman" jurnalı, aprel 1910). Onun müsəlmanların həyat tərzinə aid "Kaspi" qəzetində çap olunmuş məqalələri oxucularda böyük maraq doğururdu. Müəllif "Azərbaycanın gülləri"

adlı adlı məqaləsində (№ 146, 1911) Qarabağ şairlərindən Ağabəyim ağa, Aşıq Pəri, Gövhər ağa, Fatma xanım Kəminə və Xurçudbanu Natavan haqqında söhbət açır, onların yaradıcılığını yüksək qiymətləndirirdi. Bu məqalə 1914-cü ildə Fransa mətbuatında da eynilə çap olunmuşdur. ("Revyu de Monde muzulman" sentyabr). Onu da qeyd etmək lazımdır ki, C.Hacıbəyli jurnalın həmin nömrəsində "Şeyx Sənan" əfsanəsindən də ətraflı bəhs etmişdir. "İslam dininin "biliciləri" adlı məqaləsində sxolastik din xadimlərini ifşa edən C. Hacıbəyli ruhanilərin öz zərərfikir və müddəaları ilə avam camaatı necə aldatdıqlarını göstərirdi. ("Kaspi", № 49, 1914). Başqa bir yazısında o, aşuranın necə yarandığından söhbət açırdı.

1916-cı ildə C.Hacıbəyli Parisdə təhsilini başa vuraraq (ali) Bakıya qayıtdı və mətbuat səhifələrində doğma xalqının acınacaqlı vəziyyəti haqqında çoxlu məqalə çap etdirdi. ("Kaspi", № 18,22, 24,28, 34, 1917).

1917-ci ildə fevral – burjua inqilabı baş verdi. Bu zaman Ceyhun Hacıbəyli "İttihad" və "Müsəlmanlıq" qəzetlərinin redaktoru vəzifəsində çalışırdı.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Resdpublikası elan olundu. Ceyhun bəy öz böyük qardaşı Üzeyirlə birlikdə sentyabrın axırlarına qədər "Azərbaycan" qəzetinin.ı Şəfibəy Rüstəmbəyovla birlikdə rus dilində çıxan "Азербайджан" qəzetinin redaktoru vəzifəsində işləmişdir. Həmin ilin dekabrında o, görkəmli siyasi və ictimai xadim Əlimərdanbəy Topçubaşovun (1862 - 1934) rəhbərliyi altında Azərbaycan Respublikası nümayəndəliyinin tərkibində məsləhətçi kimi 1919-cu ildə açılacaq Versal sülh konfransında iştirak etmək üçün Parisə yola düşdü. Parisdə Ceyhunbəy Hacıbəylinin fransız dilində "İlk müsəlman respublikası Azərbaycan" (1919) adlı kitabı çapdan çıxmışdır. Həmin ildə C.Hacıbəylinin Parisdə "Revyu de Monde muzulman" jurnalında 1918-ci ildə Bakıda daşnaqsutun qoşun hissələri tərəfindən, eləcə də Şamaxı, Kürdəmir və Xaçmazda xeyli azərbaycanlı əhalisinin qırılmasını kəskin ifşa edən məqaləsi çap olunmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Vətənəqayıtmayan C. Hacıbəyli Parisdə "Arşın mal alan"ı fransız dilinə tərcümə etmiş və bu əsər həmin il tamaşaya qoyulmuşdur. 1926-cı ildə çap etdirdiyi "Azərbaycan teatrı" adlı məqaləsində o, fransız oxucularına Hüseyn Cavid və Cəfər Cabbarlı kimi məşhur dramaturqların yaradıcılığı haqqında məlumat vermişdir. ("Revyu de Monde muzulman", № 3).

1928-ci ildə nəşr etdirdiyi "A. Bakıxanov" məqaləsində isə Azərbaycan tarixşünaslığı və arxeologiyasının banisi, ensiklopedik biliyə malik Abbasquluağa Bakıxanovu fransız oxucularına tanıtmağa çalışmışdır. ("Jurnal Aziatik", iyul –

sentyabr, 1928). Onun 1905- 1910-cu illər Azərbaycan mətbuatı tarixinə dair çap olunmuş məqaləsi isə xalqımızın mədəniyyətini öyrənən Qərbi Avropa alimləri üçün istiqamətverici rol oynamışdır. (“Aziatik Revyu” jurnalı, 27-ci cild, № 90, 1931). 1933-cü ildə C. Hacıbəylinin “Qafqaz Azərbaycanının Qarabağ dialekti” adlı elmi məqaləsi Azərbaycan və Qərbi Avropa dilçiləri üçün indi də öz əhəmiyyətini itirməmişdir. (“Jurnal Aziatik” yanvar – may, 1933).

Məşhur fransız şərqşünasları A. Beniqsen və Ş. Lemersə Kelkejenin 1964-cü ildə Parisdə fransız dilində nəşr etdirdikləri “Rusiyada 1920-ci ilə qədər çıxan müsəlman mətbuatının tarixi” adlı əsərin müqəddiməsindən məlum olur ki, Azərbaycan mətbuatına dair fəslin hazırlanmasında C.Hacıbəyli də iştirak etmişdir.

Ceyhunbəy Hacıbəyli 1962-ci ildə oktyabrın 22-də 71 yaşında Parisdə vəfat etmişdir və orada dəfn olunmuşdur.

Mövsüm Əliyev.

# ƏLİMƏRDAN BƏY TOPÇUBAŞOV

Odlar yurdu. № 16, avqust 1988.

Öz dövrünün istedadlı alimi, siyasi və ictimai xadimi Əlimərdan bəy Ələkbər oğlu Topşubaşov 1862-ci il mayın 4-də Gürcüstanın Tiflis şəhərində anadan olmuşdur. Əlimərdan bəy hələ uşaq ikən atası vəfat etmişdir. O, birinci Tiflis gimnaziyasında orta təhsilini başa vurduqdan sonra Peterburq Universitetinin hüquq fakultəsinə daxil olmuş və oranı 1888-ci ildə fərqlənmə diplomu ilə bitirmişdir. Xristian dinin qəbul etmək şərti ilə onu professor vəzifəsinə hazırlamaq üçün universitetdə saxlamaq istəmişlər. Ancaq Əlimərdan bəy bu təklifi rədd etmişdir. Həmin ildə o, artıq "neft və milyonlar səltənəti" nə çevrilmiş Bakıya gəlmiş və burada Azərbaycan mətbuatının banisi, görkəmli ictimai xadim Həsən bəy Zərdabinin (1842 - 1907) qızı Pəri xanımla ailə həyatı qurmuşdur.

1898-ci ildə maarifpərvər Hacı Zeylabdin Tağıyev (1823 - 1924) öz vəsaiti ilə "Kaspi" mətbəəsinin və eyni adlı qəzeti satın alaraq Ə.Topçubaşov və Əhmədbəy Ağayevə (1869 - 1939) həvalə etmişdir. Əlimərdan bəy bu qəzeti redaktə etməyə başlamışdır. Rus dilində yazıb – yaradan bir çox azərbaycanlı ziyalı o dövrdə məhz bu qəzetdə çıxış edirdi. Topçubaşovun "Kaspi" qəzetində müxtəlif mövzularda çoxlu məqaləsi çap olunmuşdur. Bunların arasında Azərbaycan ədəbiyyatına və dramaturgiyasına aid məqalələr xüsusilə maraqlıdır. Məsələn, 1903-cü il il oktyabrın 26-da çap olunmuş "İlk Azərbaycan dramaturqu" məqaləsi M.F.Axundova həsr olunmuşdur. Bu məqalə böyük dramaturqun irsinin rus dilində təbliğində xüsusi rol oynamışdır. Müəllifin başqa bir məqaləsi görkəmli Azərbaycan ədəbiyyatşünası Firudinbəy Köçərlinin (1863 - 1920) 1903-cü ildə rus dilində nəşr olunmuş "Azərbaycan ədəbiyyatı" kitabı haqqında rəydir. Həmin il oktyabrın 31-də nəşr olunmuş bu yazıda Ə.Topçubaşov əsərin müəllifinə son dövrün ədəbi hadisələri haqqında məlumatı daha da genişləndirməyi təklif edirdi. O, həmin dövrdə təkcə Bakıda H.Zərdabi, Ə.Haqverdiyev (1870- 1933) S.M.Qənizadə (1866- 1924) və Ə.Ağayev kimi görkəmli ədəbiqüvvələrin yetişdiyini bildirir və onların yaradıcılığını tədqiqata cəlb etməyi məsləhət görürdü.

Ə.Topçubaşov bir müddət rus dilində nəşr olunan "Басински торговы-промышленные листок " qəzetinin də redaktoru olmuşdur. O, həmin illərdə Bakı şəhər dumasının üzvü olmuş və bir müddət ona sədrlik etmişdir. Ə.Topçubaşov

həmçinin qız gimnaziyasının, ticarət məktəbinin, rus – müsəlman qadın məktəbinin və şəhər məktəblərinin himayədarları şurasının üzvü idi.

Ə.Topçubaşovun təşəbbüsü, mciddi hazırlığı və rəhbərliyi altında 1905-ci il avqustun 15-də Nijni – Novqoradda yarmarka zamanı, Oka çayında "Qustav Struve" gəmisində Ümumrusiya müsəlmanlarının birinci qurultayı açılmışdır. Qurultayda Qafqaz, Krım. Qazan, Yral, Türküstan və Sibirdən 150 nəfərə qədər nümayəndə iştirak edirdi. Topçubaşovun yazdığı və qurultayın cüzi dəyişikliklə bəyəndiyi qətnamədə göstərilirdi ki, Rusiya müsəlmanlarının bütün məsələlərdə: siyasi, mədəni, həmçinin Rusiyanın hazırki vəziyyətindən irəli gələ biləcək məsələlərdə həmrəy olması zəruridir. Birinci qurultayın göstərişinə əsasən "Ümumrusiya müsəlman ittifaqı" – "İttifaqul - müslimin" partiyası təşkil etməki qərara alındı. "İttifaq" Rusiya müsəlmanlarını birləşdirməyi və beynəlxalq imperializmə qarşı vahid cəbhədə çıxış etməyi məqsədə uyğun sayırdı. "İttifaqın" mərkəzi Bakı şəhərində yerləşirdi.

1906-cı il yanvarın 13-dən 23-dək Peterburqda gizli olaraq çağırılmış ikinci Ümumrusiya müsəlman qurultayı "İttifaqın" Əlimərdan bəy tərəfindən hazırlanmış 23 maddəlik yeni Nizamnaməsini qəbul etdi.

Həmin il Ə.Topçubaşov aprelin 27-də Peterburqda açılan birinci Dövlət Dumasına Bakı quberniyasından üzv seçilmişdir. Əlimərdan bəy Topçubaşov "Xalq azadlığı" partiyasının sol cinahına mənsub idi. Bu partiya Dövlət Dumasında Rusiyanın müstəmləkə xalqlarına məhəlli muxtariyyət verilməsini çar hökumətindən tələb edirdi.

Üçüncü Ümumrusiya müsəlman qurultayı çar hökumətinin rəsmi icazəsi ilə Topçubaşovun sədrliyi ilə 1906-cı ilin 16- 21 avqustunda Nijni – Novqorodda keçirilmişdir. O, qurultayda yenidən Mərkəzi Komitənin sədri seçilmişdir.

Çar hökuməti Ə.Topçubaşovu həmişə təqib etmişdir. "Qara kitab" kimi tarixə daxil olmuş və 1920-ci ilin əvvəllərində Bakıda rus dilində çapdan çıxmış "Zaqafqaziyada rus siyasətinə dair sənədlər" adlı kitabın 60- 62-ci səhifələrində bu haqda məlumat vardır.

Əlimərdan bəy Topçubaçovun Azərbaycan teatr sənətinin inkişafında da müəyyən xidmətləri vardır. O, hələ 1904-cü ilin dekabrında gəncləri öz yanına dəvət edərək, yeni teatr qrupları yaratmağı məsləhət görmüşdür. 1910-cü ilin noyabrın 30-da Azərbaycanın məşhur komik aktyoru Cahangir Zeynalovun (1865 - 1918) səhnə fəaliyyətinin 25 illiyi münasibətilə təşkil olunmuş təntənəli yubiley Əlimərdan bəy Topçubaşovun sədrliyi altında keçmişdir. 1911-ci ildə M.F.Axundovun anadan olmasının 100 illiyi ilə əlaqədar olaraq yubiley şənlikləri

də Ə.Topçubaşovun rəhbərliyi altında qeyd edilmişdir. (o, vaxt M.F.Axundovun anadan olması tarixi 1811-ci il hesab olunurdu.)

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Əlimərdan bəy Topçubaşov həmin ilin avqust ayında heç bir partiyaya mənsub olmayan, bitərəf F.X.Xoyskinin baş nazir olduğu ikinci kabinədə xarici işlər naziri vəzifəsinə təyin olunmuş və həmin ayda Gəncədən Türkiyəyə göndərilmişdir. Həmin ilin noyabr ayında Ə.Topçubaşovun İstambulda "Azərbaycanın təşəkkülü" adlı kitabı çapdan çıxmışdır. Bu, Azərbaycan torpağı haqqında XX əsrdə azərbaycanlı müəllif tərəfindən yazılmış ilk əsərdir. O, Türkiyədə olan zaman 1918-ci il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə sədr seçilmişdir. Lakin Topçubaşov Bakıda olmadığı üçün bu vəzifəni onun müavini doktor Həsənbəy Ağayev (1875 - 1920) icra etmişdir. Onu da qeyd etmək lazımdır ki, 1920-ci ilin mart ayında Bakıda rus dilində çapdan çıxmış "1920-ci il üçün Azərbaycan Respublikasının təqvim – ünvanı" nın dördüncü hissəsinin 2-ci səhifəsindən məlum olur ki, Əlimərdan bəy Topçubaşov 1917-ci il fevral – burjua inqilabından sonra heç bir partiyaya mənsub olmamış, bitərəf olmuşdur.

Ə.Topçubaşov İstambulda ikən, 1919-cü ildə açılacaq Versal sülh konfransında iştirak etmək üçün Parisə yola düşən Azərbaycan Respublikası nümayəndəliyinin rəhbəri təyin edildiyi barədə Bakıdan göstəriş alır. Nümayəndəlik ancaq üç aydan sonra 1919-cü ilin martında çox çətinliklə Parisə gəlib çata bilmişdir.

Azərbaycan nümayəndəliyinin 1919-cu ildə açılmış Paris sülh konfransı ərəfəsində Fransanın paytaxtında çap etdirdiyi kitablar o dövrdə böyük əhəmiyyət kəsb edirdi.

Ə.Topçubaşovun Parisdə böyük elmi əhəmiyyətə malik arxivi qalmışdır. Həmin arxivi Azərbaycana gətirmək olduqca vacib məsələdir.

Öz dövrünün görkəmli siyasi və ictimai xadimi, alimi və vəkili olan Əlimərdan bəy Topçubaşov 1934-cü il noyabrın 8-də Parisin Sen – Deni rayonunda vəfat etmişdir. O, XX əsr Fransa – Azərbaycan ədəbi və siyasi əlaqələrinin əsasını qoyan ilk şəxsiyyətlərdən biri idi. Məhz bu baxımdan Əlimərdan bəy Topçubaşovun yaradıcılığı böyük tədqiqata layidir.

Mövsüm Əliyev

# MUSTAFABƏY VƏKİLOV

Odlar yurdu, № 4. fevral 1989.

Mustafabəy Nadir oğlu Vəkilov 1896-cı ildə sentyabr ayında Azərbaycanın Qazax mahalında anadan olmuşdur. O, Bakı gimnaziyasını bitirərək, 1912-ci ildə Moskva Universitetinin hüquq fakultəsinə daxil olmuş və həmin dövrdən öz doğma xalqının milli – azadlıq mübarizəsində yaxından iştirak etməyə başlamışdır. Mustafabəyin siyasi dünyagörüşünün formalaşmasında onun əmisi Məmməd Rza Vəkilovun və yaxın qohumu Ə.Topçubaşovun böyük təsiri olmuşdur.

Mustafabəy universitetdə azərbaycanlı tələbələrin həmyerlilər təşkilatının başçılarından biri idi.

1917-ci ildə məktəbi bitirən M.Vəkilov həmin ilin mart ayından coşğun siyasi fəaliyyətə başlamışdır. O, apreldə Bakıda çağırılmış Qafqaz müsəlmanlarının qurultayında, Kiyevdə ukraynalı professor Qruşevskinin rəhbərliyi altında keçirilmiş qeyri – rus millətlərin qurultayında, mayda isə Rusiya müsəlmanlarının Moskva qurultayında fəal iştirak etmişdir. Onun Bakı mətbuatında aktual siyasi və ictimai hadisələrlə əlaqədar xeyli məqaləsi çap olunmuşdur. M.Vəkilov həmin ildə açılması nəzərdə tutulan Rusiya parlamentinə Azərbaycandan millət vəkli seçilmişdir.

M.Vəkilov "Türk ədəmi – mərkəziyyət partiyası "Müsavat"-ın birinci qurultayında (21- 31oktyabr 1917. Bakı) MK üzvü seçilmişdir. Bu qurultaydan sonra M.Ə.Rəsulzadənin rəhbərliyi ilə "Azərbaycana muxtariyyət!" şüuarı altında Bakıda və qəzalarımızda geniş xalq hərəkatı başlamışdır. Çarizmin müstəmləkə zülmünə qarşı yönələn və milli – azadlıq qayəsi daşıyan bu mübarizə tarixə milli Azərbaycan hərəkatı kimi daxil olmuşdur. M.Ə.Rəsulzadənin yaxın silahdaşlarından olan M.Vəkilov həmin hərəkatın rəhbərlərindən biri idi.

M.Vəkilov 1917-ci il noyabrın 15-də yaranmış Zaqafqaziya komissarlığında daxili işlər komissarı A.İ.Çxengelinin məsləhətçisi vəzifəsini icra etmişdir. O. Bundan başqa Zaqafqaziya seymində müsəlman fraksiyasının fəal üzvlərindən biri idi.

1918-ci ilin sentyabrında daxili işlər nazirliyində işləyən M.Vəkilov dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. O, 1919-cü ilin dekabrında "Türk ədəmi – mərkəziyyət partiyası "Müsavat"ın ikinci qurultayında yenidən MK üzvü seçilmişdir. M.Vəkilov nazirlər şurasının sədri Nəsib bəy Yusifbəylinin 23 dekabr 1919-cu ildə təşkil etdiyi ikinci hökümət kabinəsində daxili işlər nazirinin müavini vəzifəsini icra etməyə başlamışdır.

1920-ci il fevralın 18-də iyirmi üç yaşlı M.Vəkilov Azərbaycan

Respublikasının daxili işlər naziri təyin olunmuşdur. O, hökümətin ən gənc naziri idi.

1920-ci il aprelin əvvəllərində inqilabçı Əli Bayramovu öldürmüş cinəyatkarların həbs edilməsi və onlar haqqında cinayət işi qaldırılması üçün M.Vəkilov özü şəxsən göstəriş vermişdir.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra M.Vəkilov Tiflisə, sentyabrda isə oradan İstambula yola düşmüşdür. O,burada nəşr olunan "Yeni Qafqasya" (1923 – 1927), "Azəri türkü" (1928 - 1931), "Odlu yurd" (1920 - 1930), "Azərbaycan yurd bilgisi" (1932- ci ildən nəşr olunur) jurnallarında Azərbaycan tarix və ədəbiyyatı haqqında məqalələr yazmışdır.

M.Vəkilov Parisdə nəşr olunan fransızca "Prometey" (1929 - 1938), rusca "KABKAЗ" (1932 - 1938) və Berlində çıxan "Qurtuluş" (1934 - 1938) jurnallarında siyasi mövzularda bir çox yazılar çap etdirmişdir. O, Polşanın paytaxtı Varşavada yaşadığı dövrdə müharibəyə qədər mövcud olan və "Prometey" adlanan siyasi klubun ikinci rəisi idi. Klubun birinci rəisi isə ukraynalı professor Roman Snal – Stotski idi.

İkinci dünya müharibəsindən sonra Anqarada yaşayan M.Vəkilovun "Azərbaycan", "Mücahid" və s. jurnallarda Azərbaycanın tarixi ilə əlaqədar siyasi memuarları çap olunmuşdur.

M.Vəkilov güclü ədəbiyyat həvəskarı idi. M.Ə.Sabir və Vəkilovlar ailəsindən olan Səməd Vurğun onun ən çox sevdiyi şairlər idi. O, Azərbaycan musiqisinə də bütün qəlbi ilə bağlı idi.

M.Vəkilov 1965-ci il noyabrın 1-də 69 yaşında Anqarada vəfat etmişdir.

Mövsüm Əliyev.

# HƏSƏNBƏY AĞAYEV

Odlar yurdu, № 3, fevral 1989.

Həsənbəy Məşədi Hüseyn oğlu Ağayev 1875-ci ildə Azərbaycanın qədim elm və mədəniyyət mərkəzlərindən biri olan Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra Hacı Zeynalabdin Tağıyevin vəsaiti ilə Moskva Universitetinin tibb fakultəsinə daxil olmuş və 1901-ci ildə həmin ali məktəbi bitirmişdir. Vətənə qayıdan Həsənbəy Ağayev həm həkim kimi fəaliyyət göstərmiş, həm də "Molla Nəsrəddin" jurnalında açıq və gizli imzalarla məqalələr yazmışdır.

H.Ağayevin həmin dövrdə Bakıda və Gəncədə çıxan dövrü mətbuatda çoxlu məqaləsi dərc olunmuşdur. İlk müsəlman – demokrat təşkilatı "Hümmət"in üzvü H.Ağayev bu təşkilatın göstərişi ilə müəllifi məlum olmayan "Mülk- sinif – firqə" adlı kitabı rus dilindən tərcümə edib, 1906-cı ildə Tiflisdəki "Qeyrət" mətbəəsində çap etdirmişdir. Bu kitab Azərbaycan dilində inqilabi hərəkatla bağlı ilk əsərlərdən biridir. Elə buna görə də çar hökuməti tərəfindən təqibə məruz qalan tərcüməçi 1906 – 1907-ci illərdə İrana mühacirət etmiş və bir müddət orada yaşamalı olmuşdur. H.Ağayev 1907-ci ildə keçirilən Qafqaz müsəlman müəllimləri qurultayı mərkəzi komitəsinin sədri idi.

H.Ağayev bacarıqlı həkim kimi dəyərli tövsiyələr, məqalələr yazmış, "Tənbəkiyə adət" kitabını rus dilindən tərcümə edib, azərbaycanlı oxucuların sərəncamına vermişdir. O, 1911 – 1912-ci illərdə Gəncədə rus dilində çıxan "Yujnı Qafqaz" adlı qəzetin redaktoru, Gəncədə müsəlmanlar arasında maarifi yayan cəmiyyətin sədri idi. H.Ağayevin Gəncədə qadın xeyriyyə cəmiyyəti təşkil etmək təşəbbüsü ruhanilərin, Gəncə və Bakı mürtəcelərinin kəskin etirazına səbəb olmuşdur.

Gəncə şəhərində ilk tibb cəmiyyəti 1914-cü ilin axırlarında yaranmışdır. Şəhərin adı hələ 1804-cü ildən çar hökuməti tərəfindən dəyişdirilib Yelizavetpol adlandırıldığından, cəmiyyət "Yelizavetpol tibb cəmiyyəti" kimi məşhur idi. Çox təəssük ki, Azərbaycan tibb tarixinə aid kitablarda bu cəmiyyət haqqında indiyədək heç bir məlumat verilməmişdir. Tiflisdə çap olunmuş illik "Qafqaz kalendarı" nda (1916-cı il üçün, səh.831) həmin cəmiyyət barədə məlumatlar vardır. Bu cəmiyyətin baniləri görkəmli ictimai xadim Xudadatbəy Rəfibəyov və Həsənbəy

Ağayev idi.

1917-ci ildə Rusiyada fevral burjua inqilabı baş verdi. Həmin ilin mart ayında Nəsibbəy Yusifbəylinin rəhbərliyi altında yaradılmış "Türk ədəmi – mərkəziyyət partiyası" Gəncədə fəaliyyətə başladı. Partiyanın banilərindən biri də Həsənbəy Ağayev idi. Bu partiya Rusiyanı federativ şəkildə qurmaq və onun tərkibində Azərbaycana muxtariyyət vermək uğrunda mübarizə aparırdı.

1917-ci ilin aprel ayında Bakıda çağırılan Qafqaz müsəlmanlarının qurultatında Azərbaycana muxtariyyət verilməsini qəti tələb edənlərdən biri də Həsənbəy Ağayev idi. O, həmin ilin mayında Moskvada keçirilən Rusiya müsəlmanları qurultayının iştirakçısı olmuşdur. Bu qurultaydan sonra iyun ayında Ə.M.Rəsulzadənin rəhbərlik etdiyi "Müsəlman demokratik "Müsavat" partiyası ilə Nəsibbəy Yusifbəylinin başçılıq etdiyi "Türk ədəmi – mərkəziyyət partiyası" birləşdi. Həmin il sentyabrın 26-dan 31-dək Bakıda davam edən birləşmiş partiyanın qurultayında Həsənbəy Ağayev Mərkəzi Komitənin üzvü seçilmişdir. Bu qurultaydan sonra "Azərbaycana muxtariyyət" şüarı altında geniş xalq hərəkatı başlanmışdır.

Həsənbəy Ağayev 1917-ci ilin dekabrında təşkil edilmiş Zaqafqaziya seyminin üzvü idi. O, 1918-ci ilin mayın 26-da yaranmış Azərbaycan milli şurası sədrinin müavini seçilmişdir.

Azərbaycan Demokratik Respublikası elan olunandan sonra, 1918-ci ilin sentyabr ayında H.Ağayev Azərbaycan Dəmir Yolu idarəsinin baş həkimi vəzifəsində işləmişdir. O, 1918-ci il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamenti sədrinin müavini seçilmişdir. Parlamentin sədri Əlimərdan bəy Topçubaşov Bakıda olmadığı üçün Həsənbəy Ağayev onun vəzifəsini 1920-ci il fevralın 2-dək icra etmişdir. Bu vəzifədən azad olunan H.Ağayevə bütün parlament üzvlərinin imzası ilə təşəkkürnamə də verilmişdir.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra Həsənbəy Ağayev Tiflisə getmişdir. O, həmin il iyulun 19-da düz bir ay əvvəl Fətəlixan Xoyskiyə qəsd edən muzdlu qatilin gülləsi ilə öldürülmüşdür. O da Xoyski kimi M.F.Axundovun məzarı yanında dəfn edilmişdir.

Mövsüm Əliyev.

# MİRZƏ ƏSƏDULLAYEV

Odlar yurdu, № 2, yanvar 1989.

XIX əsrin sonu – XX əsrin əvvəllərində geniş ictimai - siyasi fəaliyyəti ilə diqqəti cəlb edən Mirzə Şəmsi oğlu Əsədullayev 1875-ci ildə Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini Bakı gimnaziyasında başa vurduqdan sonra o, atası Şəmsi Əsədullayevin (1840 - 1913) neft şirkətində əmək fəaliyyətinə başlamışdır. Milyonçu Şəmsi Əsədullayev dövrün maarif məsələlərinə fikir verən şəxslərindən biri olmuşdur. O, Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutunun əsas himəyadarı idi. Ş.Əsədullayev 1903-cü ildə Moskvaya köçmüş və ömrünün axırına qədər orada yaşamışdır. Onun Moskvada sarayı xatırladan bir neçə mülkü var idi. O, bu mülklərdən Moskvadakl müsəlman xeyriyyə cəmiyyətinə bağışlamışdı. Atası Moskvada yaşadığı üçün Bakıda neft şirkəti ilə bağlı bütün məsələləri Mirzə Əsədullayev həll edirdi. O, məşhur milyonçu Musa Nağıyevin qızı Ümmül – banu ilə ailə həyatı qurmuşdur. 1905-ci ildə axırıncı – dördüncü uşaq doğularkən Ümmül – banu vəfat etmişdir. Onun xatirəsinə yeni doğulmuş uşağa anasının adını qoymuşlar. Ümül – Banu 1924-cü ildə vətəni tərk edərək Fransanın paytaxtı Parisdə yaşamışdır və məşhur yazıçı kimi tanınmışdır.

Mirzə Əsədullayev neft satışı ilə əlaqədar müəyyən vaxtlarda Rusiyanın Peterburq, Moskva kimi şəhərlərində yaşamış və rus mədəniyyəti ilə yaxından tanış olmuşdur. Bundan başqa, M.Əsədullayev Avropa ölkələrini də gəzmişdir. Bu onun həm də Avropa mədəniyyətini qavramasına, bir ziyalı kimi formalaşmasına güclü təsir göstərmişdir. Rus təhsili gördüyü üçün Azərbaycan dilini mükəmməl bilməyən M.Əsədullayev 1912-ci ildə Moskva konservatoriyasında oxuyan Üzeyir Hacıbəyovdan (1885 - 1948) ana dilindən dərs almışdır. Ü. Hacıbəyov Parisin Sarbonna Universitetində dərs alan kiçik qardaşı Ceyhun Hacıbəyliyə (1891 - 1962) 1912-ci ildə yazdığı məktubda bu məsələyə toxunur. ("Ədəbiyyat və incəsənət" qəzeti, 4 noyabr, 1988-ci il).

Mirzə Əsədullayevin bir ictimai xadim kimi fəaliyyəti çoxşaxəlidir. Onun sədrlik etdiyi "Bakı müsəlman xeyriyyə cəmiyyəti" müxtəlif mütərəqqi tədbirlər həyata keçirir və "cəhalət səltənəti" ni dağıtmaq işində fəal mübarizə aparırdı.

Ana dilində dövri nəşrlərin azlığı Mirzə Əsədullayevi bir ziyalı kimi ciddi

narahat etmişdir. O, 1915-ci il martın 11-də "Qardaş köməyi" adlı qəzet buraxmağa başlamışdır. Cəmi bir nömrəsi çıxan qəzetdə deyilir ki, əldə olunacaq gəlir hərbzadə müsəlmanlar nəfinə, o cümlədən birinci dünya müharibəsi zamanı çar ordusundakı azərbaycanlılardan ibarət (rus mətbuatında "Dikaya diviziya" adı ilə tanınan) süvari qoşun hissələrindəki döyüşçülərə sərf ediləcəkdir.

Rusiya fevral – burjua inqilabından sonra Mirzə Əsədullayev 1917-ci il martın 27-də Bakıda yaranmış Milli Müsəlman Şurasının Müvəqqəti İcraiyyə Komitəsinin üzvü seçilmişdir.

1918-ci mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Bitərəf Mirzə Əsədullayev həmin il dekabrın 27-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. O, Azərbaycan Respublikası Nazirlər şurasının sədri Fətəlixan Xoyskinin (1875 - 1920) 1918-ci il dekabrın 26-da təşkil etdiyi üçüncü hökümət kabinəsində ticarət və sənaye naziri vəzifəsini icra etmişdir. Mirzə Əsədullayev Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin yaradılmasına və yerli sənayenin inkişaf etdirilməsinə ciddi səy göstərirdi.

1919-cu il martın əvvəllərində Fətəlixan Xoyskinin başçılıq etdiyi hökümət kabinəsi istefaya çıxdığı üçün Mirzə Əsədullayev tutduğu vəzifəni tərk etmişdir.

1920-ci ilin mayında Mirzə Əsədullayev həbs olunmuş və qısa müddətdən sonra azad edilmişdir. Həmin il Azərbaycan SSR hökümətindən rəsmi icazə alaraq xaricə gedən Mirzə Əsədullayev ömrünün sonuna kimi (1936) Fransanın paytaxtı Parisdə yaşamışdır. Qəbri şəhərin müsəlman qəbiristanlığındadır. Bu xatirələri atası haqqında Ümül – Banu yazmışdır. Bunu müəllifə YUNESKO –nun əməkdaşı olan Ramiz Abutalıbov göndərmişdir, buna görə müəllif ona öz təşəkkürü və minnətdarlığını bildirir.

Mövsüm Əliyev.

# XUDADATBƏY RƏFİBƏYOV

Odlar yurdu, 8 aprel. 1989.

Xudadatbəy Ələkbər oğlu Rəfibəyov 1878-c i ildə Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini Gəncə klassik gimnaziyasında başa çatdırdıqdan sonra, Xudadatbəy Xarkov Universitetinin tibb fakültəsinə daxil olmuşdur. O, universitetdə azərbaycanlı tələbələrin yaratdığı həmyerlilələr təşkilatının başçılarından biri idi. X.Rəfibəyov 1903-cü ildə ali təhsil diplomu alıb doğma Gəncəyə qayıdaraq coşğun ictimai fəaliyyətə başlamışdır. Qeyd etmək lazımdır ki, o, ilk azərbaycanlı cərrahlardan biri idi. X.Rəfibəyovun fəal iştirakı ilə 1906-cı ildə Gəncədə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin məqbərəsini bərpa etmək üçün xüsusi bir cəmiyyət yaranmışdır. Həmin illərdə Gəncədə fəaliyyət göstərmiş "Aktyorlar cəmiyyəti"nin rəhbərlərindən biri olan X.Rəfibəyovun dövri mətbuatda şəhərin mədəni, ictimai həyatına dair çoxlu məqaləsi çıxmışdır. Gəncədə ilk tibb cəmiyyəti 1914-cü ildə meydana gəlmişdir. Şəhərin rəsmi adı üzrə "Yelizavetpol tibb cəmiyyəti" adlanan bu cəmiyyət haqqında Azərbaycan tibb tarixinə aid kitablarda heç bir məlumata təsadüf edilmir. Halbuki, Tiflisdə çap olunan illik "Qafqaz kalendarında" bu barədə geniş məlumat vardır. Həmin cəmiyyətin banisi X.Rəfibəyov, katibi isə dövrün tanınmış siyasi və ictimai xadimi H.Ağayev idi. Tibb cəmiyyətinin yarandığı ildə çəkilmiş fotoşəkil bizim bizim dövrə qədər gəlib çatmışdır. Fotoşəkildən məlum olur ki, həmin cəmiyyətin tərkibindəki üçüncü azərbaycanlı həkim Peterburq universitetinin məzunu gəncəli Musabəy Rəfiyev idi. Bu cəmiyyətin yaradılmasında əsas məqsəd tibb xidmətini xalqa daha da yaxınlaşdırmaq idi. Xüsusən Gəncədə tez –tez baş verən müxtəlif epidemiyalar nəticəsində çoxlu ölüm hadisələri baş verirdi. Gəncədəki qeyri azərbaycanlı həkimlərin müalicəxanaları xüsusi xarakter daşıyırdı və olduqca baha idi. Bu, əhalinin, xüsusi ilə kasıb təbəqənin tibbi yardımdan və müalicədən istifadə etməsinə imkan vermirdi. Buna görə də Xudadatbəyin rəhbərliyi altında yaranmış yeni tibb cəmiyyəti geniş xalq kütlələrinə əsasən pulsuz xidmət edirdi. Hələ indi də yaşlı nəslə mənsub olan gəncəlilər X.Rəfibəyovun bu xeyirxahlığını xatırlayırlar.

1917-ci ildə Rusiyada burjua inqilabı baş verdi. X.Rəfibəyov həmin ilin

martında Gəncədə yaranmış Milli Müsəlman Şurasının İcraiyyə Komitəsinin üzvü seçilmişdir. Göstərmək lazımdır ki, o, heç bir partiyaya mənsub olmamış və ömrünün axırına qədər bitərəf qalmışdır.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. X.Rəfibəyov nazirlər şurasının sədri Fətəlixan Xoyskinin 1918-ci il iyunun 17-də Gəncədə Təçkil etdiyi ikinci hökümət kabinəsində səhiyyə naziri vəzifəsini tutmuşdur.

1918-ci il sentyabrın 15-də Bakının oyuncaq Sentrokaspi qüvvələrindən təmizlənməsindən sonra hökumət Bakıya köçmüş və X.Rəfibəyov vəzifəsini burada icra etməyə başlamışdır. Nazirliyin tərkibində 5 şöbə, o cümlədən şəhər və məhkəmə tibbi şöbəsi, kənd tibb şöbəsi, tibb statistikası şöbəsi, əzaçılıq şöbəsi, baytarlıq və sanitariya şöbəsi var idi. Hər şöbəyə tanınmış həkimlər başçılıq edirdi. Nazirliyin göstərişi ilə dövlət hesabına pulsuz xəstəxanalar açılmış, yeni tibb ocaqlarının tikintisinə başlanmışdı. Kənd yerlərində əhaliyə tibbi xidmət üçün müalicəxana və məntəqələr təşkil edilmiş və yenilərinin açılmasına hazırlıq görülmüşdü. Dərman və tibb alətlərinin saxlanması üçün xüsusi anbar, ekspertiza aparmaq üçün xüsusi laboratoriya təşkil olunmuşdu. Gəncə yaxınlığındakı Zurnabad kəndində taun əleyhinə məntəqə açılmışdı.

1918-ci il dekabrın ortalarında F.Xoyskinin başçılıq etdiyi hökümət kabinəsi istefaya çıxdığı üçün X.Rəfibəyov tutduğu vəzifəni tərk etmişdir.

1919-cu ilin mayında X.Rəfibəyov Gəncə quberniyasının general – qubernatoru təyin olunmuşdur. O, həmin quberniyada qanunların pozulmamasına və ictimai asayişin qorunmasına çalışmışdır. Demokratik əqidəli X.Rəfibəyov Gəncədə geniş xalq kütlələrinin dərin hörmətini qazanmışdır. O, 1920-ci il aprelin 30-da Gəncə quberniyasında müqavimət göstərmədən hakimiyyəti yeni yaranmış inqilab komitəsinə təhvil vermişdir.

1920-ci il mayın axırında Gəncə şəhərində keçmiş nizami Azərbaycan ordusunun 3-cü Gəncə piyada alayının komandiri, podpolkovnik Cahangirbəy Kazımbəyovun başçılığı altında üsyan baş vermişdi. Xudadatbəy Rəfibəyovun bu üsyanla heç bir əlaqəsi olmadığı halda o, həmin dövrdə qarışıqlıq zamanı həlak olmuşdur.

Mövsüm Əliyev.

# MƏMMƏD HƏSƏN HACINSKİ

Odlar yurdu, № 10 may 1989.

Öz dövrünün tanınmış siyasi və ictimai xadimi, məşhur mühəndis Məmməd Həsən Cəfərqulu oğlu Hacinski 1875-ci il martın 3-də Bakıda anadan olmuşdur. O, Bakı realni məktəbini, 1902-ci ildə isə Peterburq Texnoloji institutunu bitirmişdir. Gənc mühəndis bir neçə ay Moskvada maarifpərvər Azərbaycan varlılarından Şəmsi Əsədullayevin (1840 - 1913) neftayırma zavodlarının tikintisində çalışmış, həmin ilin axırlarında doğma Bakıya qayıdaraq, şəhər upravasının (bələdiyyə) tikinti şöbəsinin rəisi təyin olunmuşdur. 1904-cü ilin axırlarında RSDFP Bakı komitəsi nəzdində ilk müsəlman sosial – demokrat təşkilatı "Hümmət" yarandı. Onun əsas məqsədi Azərbaycanda, eləcə də Rusiyanın müxtəlif yerlərində yaşayan müsəlmanları inqilabı hərəkata cəlb etmək, onlar arasında ana dilində təbliğat və təşviqat işi aparmaq idi. "Hümmət" təşkilatının baniləri Mir Həsən Mövsümov (1882 - 1907), Məmməd Əmin Rəsulzadə (1884 - 1955) və Məmməd Həsən Hacinski olmuşlar. ("Bakinçki raboçi" qəzeti, 108.3.1923) M.Əzizbəyov, N.Nərimanov, S.M.Əfəndiyev və başqa görkəmli inqilabçılar 1905-ci ildən bu təşkilatın üzvü idilər. Təşkilatın "Hümmət" adlı qəzeti də nəşr edilmiş (1904 – 1905-ci illərdə hektoqrafiya üsulu ilə cəmi 6 nömrə), lakin hələlik onun heç bir nömrəsi tapılmamışdır.

M.H.Hacinski Bakının abadlaşmasına böyük diqqət yetirirdi. Onun rəhbərliyi altında 1911-ci ildə Dənizkənarı bulvarın tikintisi başa çatdırılmışdır. 1912-ci ildə Hacinskinin redaktəsi ilə Bakı küçələrinin abadlaşması haqqında şəhər upravası bir kitab buraxmışdır. O, 1913-cü ildə qısa müddət Bakı şəhər upravasının rəisi olmuşdur. M.H.Hacinski Bakıdakı Şirvanşahlar sarayının qorunub saxlanması və bərpa edilməsi haqqında təşəbbüs irəli sürmüşdür. Bu barədə tanınmış Azərbaycan jurnalisti Xəlil İbrahimin 1917-ci ildə çap edilmiş xatirələrində məlumat verilir. M.H.Hacinski elə həmin dövrdə, 1911-ci ildə yaradılmış gizli "Müsəlman demokratik "Müsavat" partiyasına" daxil olmuşdur.

1917-ci ildə Rusiya fevral – burjua inqilabı baş verdi. Həmin ilin martında "Müsəlman demokratik "Müsavat" partiyası" açıq fəaliyyətə keçdi. Martın 22-də milli müsəlman şurasının müvəqqəti icraiyyə komitəsi yaradıldı. M.H.Hacinski sədr, M.Ə.Rəsulzadə isə sədr müavini təyin olundu. Hacinski apreldə Qafqaz

müsəlmanlarının Bakı qurultayında, mayda isə Rusiya müsəlmanlarının Moskva qurultayında fəal iştirak etmişdir. O, həmin il açılması nəzərdə tutulan Rusiya parlamentinə Azərbaycandan millət vəkili seçilmişdir.

M.H.Hacinski "Türk ədəmi – mərkəziyyət partiyası "Musavat" ın birinci qurultayında (26 – 31. 10.1917, Bakı) Mərkəzi Komitənin üzvü seçilmişdir. O, 1917-ci il noyabrın 15-də yaranmış Zaqafqaziya komissarlığında ticarət və sənaye komissarının müavini, seymin üzvü, 1918-ci il aprelin 22-də yaranmış Zaqafqaziya Federativ Respublikası hökümətində ticarət və sənaye naziri vəzifələrini icra etmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Hacinski bitərəf Xoyskinin təşkil etdiyi birinci kabinədə xarici işlər naziri, ikinci kabinədə (17 iyun) maliyyə naziri vəzifəsini tutmuşdur. O, həmin il dekabrın 7-də Bakıda açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. Hacinski nazirlər şurasının sədri Nəsibbəy Yusifbəylinin təşkil etdiyi ikinci kabinədə (23.12.19190 daxili işlər naziri təyin olunmuşdur. M.H.Hacinski 1919-cu ilin dekabrında "Türk - ədəmi mərkəziyyət partiyası "Müsavat" ın 2-ci qurultayında yenidən MK üzvü seçilmişdir.

M.H.Hacinski 1920-ci il fevralın 18-də Mustafabəy Vəkilovun daxili işlər naziri təyin edilməsi ilə əlaqədar öz vəzifəsindən azad olunmuş, həmin gündən ticarət, sənaye və ərzaq naziri vəzifəsini tutmuşdur. Nəsibbəy Yusifbəylinin başçılıq etdiyi hökümət kabinəsi istefaya çıxdığı üçün (30.3.1920) M.H.Hacinski nazir vəzifəsini tərk etmişdir.

1920-ci il aprelin 1-də Azərbaycan Respublikasının yeni hökumət kabinəsini təşkil etmək Məmməd Həsən Hacinskiyə tapşırıldı. Bu məqsədlə o, Azərbaycan parlamentinə daxil olan bütün partiya və fraksiyaların rəhbərləri ilə, həmçinin bolşeviklərlə də danışıqlar aparmışdır. Hacinski bolşevikləri yeni hökumət kabinəsinin tərkibinə daxil etməklə, Samur körpüsünün şimal tərəfində dayanmış XI Qızıl Ordunun Bakı üzərinə yürüşünü ləngitmək və nizami Azərbaycan ordusunu təcili Bakıya çağırmaq istəyirdi. Bolşeviklərdən rədd cavabı alan M.H.Hacinski aprelin 22-də Azərbaycan parlamentinin sədrini əvəz edən M.Y.Cəfərova yeni hökumət kabinəsi yaratmağın mümkün olmadığını bildirmişdir. O, həmçinin ədəmi – mərkəziyyət partiyası "Müsavat"dan çıxdığını və həmin andan bolşeviklər partiyasının üzvü olduğunu rəsmi şəkildə elan etmişdir. Həmin gün baş vermiş tarixi hadisələrdən sonra o, Azərbaycan ali xalq təsərrüfatı şurasında işləmişdir. 1923-cü ildə Zaqafqaziya Dövlət plan Komitəsi sədrinin birinci müavini olan Hacinski Azərbaycanda şəhərlərin abadlaşması haqqında bir

çox təşəbbüslərin müəllifi idi. Hələ o vaxt Gəncənin və yeni salınacaq Daşkəsən şəhərinin Azərbaycan sənayesi üçün gələcəkdə böyük əhəmiyyət daşıyacağını öz məqalələrində dönə - dönə göstərirdi. M.H.Hacinskinin 20-ci illər mətbuatında Azərbaycanın tikinti – quruculuq həyatına aid çoxlu məqaləsi dərc edilmişdir.

Ziddiyyətli həyat yolu keçmiş Məmməd Həsən Hacinski Zaqafqaziya diyar Partiya Komitəsinin birinci katibi olan avanturist Lavrenti Beriyanın (1899 - 1953) göstərişi ilə həbs edilmiş və 1931-ci il martın 8-də Tiflis həbsxanasında həlak olmuşdur.

Mövsüm Əliyev.

# NƏRİMANBƏY NƏRİMANBƏYLİ

Odlar yurdu, № 23, dekabr 1989.

Öz dövrünün tanınmış siyasi və ictimai xadimi Nərimanbəy Haşım oğlu Nərimanbəyli 1889-cü ildə Qarabağın dilbər güşələrindən biri Şuşa şəhərində anadan olmuşdur. Ailəsi İrəvana köçdüyü üçün onun gənclik illəri bütünlüklə bu şəhərdə keçmişdir. Onun ayası Haşımbəy İrəvanda azərbaycanlılar üçün ana dilində məktəblərin yaranmasında və xeyriyyə cəmiyyətlərinin təşkilində fəal iştirak etmişdir. Haşımbəyin Azərbaycan məktəbləri üçün başqa müəllimlərlə birlikdə tərtib etdiyi "Ana dili" kitabı hələ 1907-ci ildə İrəvanda, sonralar isə üç dəfə Tiflisdə çapdan çıxmışdır. Onun mətbuatda xeyli məqaləsi, teatr tamaşaları haqqında resenziyaları çap olunmuşdur.

Nərimanbəy Nərimanbəyli belə bir ziyalı ailədə böyümüş və milli ruhda tərbiyə almışdır. O, orta təhsilini İrəvan gimnaziyasında başa vuraraq əvvəlcə Moskva universitetinin fizika – riyaziyyat şöbəsində, sonra isə Xarkov universitetinin hüquq fakultəsində oxumuşdur. N.Nərimanbəyli burada "Azərbaycan tələbə həmyerlilər təşkilatı"nın rəhbərliyinə seçilmiş və inqilabı fəaliyyətini davam etdirmişdir. Bu təşkilatda N.Nərimanbəylinin iştirakı ilə azərbaycanlı tələbələr tərəfindən verilən tamaşaların gəliri I dünya müharibəsində zərər çəkmiş müəllimlərin ailələrinə paylanırdı. Həmin tamaşalardan "Qazana səyahət" əsəri daha məşhur olmuşdur.

Ali təhsilini 1915-ci ildə başa vurub İrəvana qayıdan Nərimanbəy Nərimanbəyli bir ictimai xadim kimi coşğun fəaliyyətə başlamışdır. O, vəkil işləməklə yanaşı, "Müsəlman xeyriyyə cəmiyyətinin" rəhbərlərindən biri olmuşdur.

1917-ci ildə Rusiya fevral – burjua inqilabı baş verdi. Həmin ilin mart ayında "Müsəlman demokratik "Müsavat" partiyası" açıq fəaliyyətə başladı. Bu dövrdə Bakıya köçən N.Nərimanbəyli həmin partiyanın sıralarına daxil olmuşdur. O, həmin ilin aprelində Bakıda çağırılan Qafqaz müsəlmanlarının qurultayında, oktyabrda isə "Türk ədəmi – mərkəziyyət partiyası "Müsavat" ın birinci qurultayında fəal iştirak etmişdir.

1918-ci ilin fevralında Nərimanbəy Nərimanbəyli Zaqafqaziya Seyminin üzvü seçilmişdir. O, həmin il fevralın 28 – də Seym tərəfindən təsdiq olunmuş müsəlman fraksiyasının tərkibindəki "Müsavat və bitərəflər qrupu"nun üzvü idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. N.Nərimanbəyli həmin ilin dekabrında 7-də Bakıda təntənəli surətdə

açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. O, parlamentdə "Müsavat" fraksiyasının tərkibinə daxil idi.

Nərimanbəy Nərimanbəyli Azərbaycan Respublikası nazirlər şurasının sədri Nəsibbəy Yusifbəylinin (1881- 1920) təşkil etdiyi kabinədə (14. IV. 1919) dövlət nəzarətçisi vəzifəsini icra etmişdir. Həmin ilin dekabrın ortalarında N.Nərimanbəyli tutduğu vəzifəni tərk etmişdir.

N.Nərianbəyli bir ictimai xadim kimi həmin dövrdə Bakıda həyata keçirilən bir bir çox mədəni tədbirlərin fəal iştirakçısı olmuşdur.

1920-i il aprelin 27-də baş verən hadisələrdən sonra Nərimanbəy Nərimanbəyli müxtəlif idarələrdə hüquq məsləhətçisi olmuş, lakin təqiblərə məruz qalaraq işdən çıxarılmış və öz sahəsində vəkil işləmişdir.

Öz dövrünün tanınmış siyasi və ictimai xadimi Nərimanbəy Nərimanbəyli 1937-ci ildə Stalin repressiyası nəticəsində həlak olmuşdur.

Mövsüm Əliyev

# BEHBUDAĞA CAVANŞİR

Odlar yurdu, № 12 iyun 1989.

Behbudağa Azad oğlu Cavanşir 1886-ci ildə Tərtər nahiyəsinin Azad Qaraqoyunlu kəndində anadan olmuşdur. O, orta təhsilini Tiflis real məktəbində almış, sonra dünyada ilk ali – texniki məktəb olan Frayberq Dağ – mədən Akademiyasını (Almaniya) bitirmişdir. O, bu akademiyanın ilk azərbaycanlı məzunudur. Behbudağa Cavanşir Almaniyadan İngiltərəyə gedərək təkmilləşdirmə kurslarında oxumuşdur. Qərbi Avropadakı həyatı onun bir siyasi və bir ictimai xadim kimi formalaşmasına təsir etmişdir. B.Cavanşir alman, ingilis, fransız, rus və gürcü dillərini mükəmməl bilmişdir. Erməni dilini isə Bakı kommunasının rəhbəri S.Şaumyandan öyrənmişdir. O, dəfələrlə S.Şaumyanı işə düzəltmiş, sürgünlərdən və qazamatlardan qurtarmışdır. Bu haqda çoxlu tarixi sənəd var. (Bax: Dubinskiy – Muxadze, "Şaumyan", Moskva. 1986, səh. 13. 108.)

1916 –cı ildə Azərbaycana qayıdan B.Cavanşir Bakı neft müəssisələrində baş mühəndis vəzifələrində çalışmışdır. Doğma xalqının maariflənməsi uğrunda mübarizə aparan B. Cavanşir tezliklə "Müsəlman xeyriyyə cəmiyyətinin" rəhbərliyinə seçilmişdir. Onun coşğun fəaliyyəti çar xəfiyyələri tərəfindən ciddi izlənilirdi. 1920-ci ildə Bakıda rusca çapdan çıxmış "Zaqafqaziyada rus siyasətinə dair sənədlər" kitabında (onun digər adı "Qara kitabdır") bu barədə məlumat vardır. (səh. 25 və 28). Oradan aydın olur ki, B.Cavanşir Ə.Ağayevin 1905-ci ildə gizli şəkildə yaratdığı"Difai" partiyasının Mərkəzi Komitəsinə daxil idi. O, "Nicat" cəmiyyətinin və "Rus texniki cəmiyyətinin" Bakı şöbəsinin üzvü seçilmişdir. Texniki cəmiyyətin elmi əsərlərində B.Cavanşirin xeyli məqaləsi çap olunmuşdur.

B.Cavanşir fevral – burjua inqilabından sonra yaranmış Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin tərkibinə seçildi.

1918 - ci il martın 18-dən 22-dək S.Şaumyanın başçılığı altında bolşeviklər tərəfindən milli məsələnin düzgün qoyulmaması nəticəsində meydana çıxan qırğında otuz minə yaxın azərbaycanlı həlak olmuşdu. Bu qırğının qabağını almağa çalışanlardan biri də B.Cavanşir idi. O, barışıq komitəsinin üzvü idi.

B.Cavanşir 1918 –ci ildə iyunun 17 –də Gəncədə F.X.Xoyskinin təşkil etdiyi ikinci hökümət kabinəsində daxili işlər naziri vəzifəsini tutmuşdur. Onun müavini general – mayor Sadıxbəy Ağabəyov idi. Onlar Bakıda, İçərişəhərdə podpolkovnik Şükürbəy Yüzbaşinskinin rəisliyi altında polis məmurları (qorodovoy) məktəbinin açılmasına ciddi diqqət yetirirdilər.

Həmin il oktyabrın 6-da hökümət kabinəsində bəzi dəyişikliklərlə əlaqədar B.Cavanşir eyni zamanda ticarət və sənaye nazirliyini də idarə etmişdir. O, yerli sənayenin inkişaf etdirilməsinə və Azərbaycanın xarici ölkələrlə ticarət əlaqələrinin yaradılmasına ciddi səy göstərmişdir.

Bitərəf B.Cavanşir Azərbaycan parlamentinə üzv seçilmişdir. Həmin ilin dekabrında F.Xoyskinin kabinəsi istefaya çıxdığı üçün B.Cavanşir tutduğu vəzifələri tərk etmişdir.

1919-cu ildə xarici ölkələrlə ticarət əlaqələri yaratmaq üçün B.Cavanşirin yaxından iştirakı ilə Bakıda "Dəyanət" şirkəti yaradılmışdır. 1918 – 1920 –ci illərdə Bakıda təntənəli "Azərbaycan gecələri" konsertinin və bir çox cəmiyyətlərin təşkili onun adı ilə bağlıdır.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra B.Cavanşir neft sənayesi sahəsində işləmişdir. Həmin ilin ilin axırında N.Nərimanov müasir neft – mədən avadanlığı almaq üçün onu Almaniyaya ezam etmişdir. B.Cavanşir yolüstü İstanbulda dayanaraq, o vaxt Malta adasında sürgündə olan həmyerlisi Əhmədbəy Ağayevin evində yaşamışdır. Bir gecə evdən bayıra çıxıb küçə ilə gedərkən arxadan daşnaksütun partiyasının üzvü Toplaqyan tərəfindən güllə ilə öldürülmüşdür... Ə.Ağayevin oğlu Səməd Ağaoğlunun (1909 - 1982) "Babamın arkadaşları" (İstanbul, 1957 səh. 133.) kitabında göstərildiyinə görə, bu hadisə 1921-ci il yanvarın axırında və ya fevralın əvvəlində baş vermişdir. Xalqımız öz görkəmli oğullarından birini də belə itirmişdir...

Mövsüm Əliyev

# ƏLİAĞA HƏSƏNOV.

Odlar yurdu, № 17 sentyabr 1989.

Əliağa Hacı Süleyman oğlu Həsənov 1871-ci ildə Bakıda anadan olmuşdur. O, şəhər gimnaziyasını və Bakı kommersiya məktəbini bitirmişdir. Ə. Həsənov türk. ərəb, fars və rus dillərini mükəmməl öyrənmişdir.

Bakının ictimai həyatında fəal iştirak edən Ə.Həsənov şəhər dumasının üzvü seçilmişdir. Bakıya şollar su kəmərinin çəkilməsində, kanalizasiya şəbəkəsinin yaradılmasında, Dənizkarı parkın salınmasında onun xidmətləri böyükdür.

Əliağa Həsənovun dövri mətbuat səhifələrində xeyli məqaləsi dərc edilmişdir. Görkəmli Azərbaycan mütəfəkkiri Əlibəy Hüseynzadənin (1864 - 1941) buraxdığı "Füyuzat" jurnalında çıxmış məqalələri xüsusilə maraqlıdır. Ə.Həsənovun böyük rus yazıçısı L.Tolstoyla dostluq münasibətləri vardı.

Fevral – burjua inqilabından sonra Ə.Həsənov siyasi hadisələrdə yaxından iştirak etməyə başladı. 1918-ci il martın 18-dən 22-dək Bakıda və Azərbaycanın digər yerlərində cəbhədən qayıdan nizami erməni qoşun birlikləri 30 minə yaxın azərbaycanlını qırdı. Onlar S.Şaumyanın göstərişi ilə Bakı Sovetinin qoşun hissələri tərkibinə daxil edilmişdilər. Şəhərdə bu qırğının qarşısını almağa çalışanlardan biri də Ə.Həsənov olmuşdu. O, qırğının son günü yaranmış Milli Müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü idi. Bitərəf Ə.Həsənov 1918-ci il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. O, Xoyskinin təşkil etdiyi üçüncü hökümət kabinəsində maliyyə nazirinin müavini, Nəsibbəy Yusifbəylinin I kabinəsində isə maliyyə naziri təyin olundu. Ə.Həsənovun rəhbərliyi altında 1919-cu il sentyabrın 30-da Bakıda Azərbaycan Dövlət Bankı fəaliyyətə başladı. Bankın Gəncədə, Şamaxıda, Lənkəranda və başqa şəhərlərdə şəbələri təşkil olundu. 1919- 1920-ci illərdə ADR-nın 25, 50, 100, 250 və 500 manatlıq dəyərində kağız pulları dövriyyəyə buraxıldı. Yüksək bədii zövqlə tərtib olunmuş bu əskinasların üzərində nazirlər şurasının sədri N.Yusifbəylinin və maliyyə naziri Ə.Həsənovun imzaları var idi. Bunlar ADR –in siyasi müstəqilliyini möhkəmləndirən iqtisadi müstəqilliyin ilk addımları idi və milli hakimiyyətin əsas atributlarından biri sayılırdı. 1919-cu ilin sonunda ADR hökumətinin rəsmi icazəsi ilə Bakıda şəhər upravası tərəfindən 500 manat dəyərində istiqraz vərəqələri də dövriyyəyə daxil edildi. Buraxılan pulların

qiymətdən düşməməsi, emissiya həmçinin artmaması və devalvasiyaya uğramaması üçün Ə.Həsənov böyük səy göstərirdi.

1919-cu il dekabrın ortalarında N.Yusifbəylinin kabinəsi istefaya çıxdığı üçün Ə.Həsənov tutduğu vəzifəni tərk etmişdir. O, sonra Azərbaycan Dövlət Bankının müdiri vəzifəsində (həm milli hökumət, həm də sovet dövründə) çalışmışdır.

1920-cı il aprelin 27 –də baş verən hadisələrdən sonra da Əliağa Həsənov Azərbaycanın mədəni – ictimai həyatında fəal iştirak etmişdir.

Öz dövrünün tanınmış ziyalısı olan Ə.Həsənov 18 mart 1933-cü ildə 65 yaşında Bakıda vəfat etmişdir.

Mövsüm Əliyev.

# CƏMOBƏY HACİNSKİ

Odlar yurdu № 18, sentyabr 1989.

Cəmobəy Süleyman oğlu Hacinski 1888-ci il iyunun 14-də Azərbaycanın qədim şəhərlərindən biri olan Qubada anadan olmuşdur. O, görkəmli siyasi və ictimai xadim Mehdibəy Hacinskinin (1879 - 1941) kiçik qardaşıdır. Hələ gənc yaşlarından Bakıya köçən C.Hacinski burada gimnaziya bitirmiş, 1907-ci ildə Bakıda rus dilində çap olunan "Kaspi" qəzetində müxbir kimi fəaliyyətə başlamışdır. O, həmin dövrdə Peterburq Universitetinin hüquq fakultəsinə daxil olaraq 1914-cü ildə ali təhsilini başa vurmuşdur. C.Hacinski 1915-ci ilin dekabrından 1917-ci ilin aprelinə qədər Batum vilayətində və Dənizkənarı rayonda dünya müharibəsi dövründə zərər çəkənlərə kömək göstərmək üzrə müsəlman qaçqın komitəsinin müvəkkili vəzifəsində işləmişdir.

1917-ci ilin aprelində C.Hacinski Müvəqqəti hökumətin Zaqafqaziya komitəsinin müvəkkili təyin olunmuş, iyuladək bu vəzifədə çalışmışdır. İyul ayında isə Zaqafqaziya kəndli depupatları icraiyyə komitəsinin sədr müavini seçilmiş və oradan nümayəndə kimi Rusiya məclisi – müəssisanına yeni seçkilər üzrə Zaqafqaziya mərkəzi komissiyasının sədri vəzifəsinə göndərilmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. C.Hacinski bitərəf F.Xoyskinin (1875 - 1920) təşkil etdiyi birinci kabinədə dövlət nəzarətçisi vəzifəsini icra etmişdir. Həmin il iyunun 17-də F.Xoyskinin başçılıq etdiyi hökumət kabinəsi istefaya çıxdığı üçün C.Hacinski tutduğu vəzifəni tərk etmişdir.

C.Hacinski 1918-ci il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir.

Cəmobəy Hacinski Nazirlər Şurasının sədri Nəsibbəy Yusifbəylinin (1881 - 1920) təşkil etdiyi birinci kabinədə (14.IV.1919) və ikinci (22.XII.1919) kabinədə poçt və teleqraf naziri təyin olunmuşdur. Onun Şimali Azərbaycanda rabitə sahəsinin inkişafında fəaliyyəti diqqətəlayiqdir. Görkəmli Azərbaycan iqtisadçısı Məmmədhəsən Baharlı (1896 - 1943) bu barədə 1921 –ci ildə geniş məqalə yazmışdır. 1920-ci il martın 30-da C.Hacinski bütün kabinə ilə birlikdə istefaya çıxmışdır.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra Hacinski ədliyyə komissarlığında inzibati – maliyyə şöbəsinin rəisi təyin olunmuşdur. 1922-ci il aprelin 21-də əsassız ittiham olunaraq həbsə alınmış, 3 il məhbəsdə yatdıqdan

sonra bünövrəsi hələ 1919-cu ildə Arxangelsk vilayətində qoyulan və dünyada ilk konslager hesab olunan məşhur Solovkiyə göndərilmişdir. Üç il də burada saxlandıqdan sonra 1928-ci ilin iyulunda azad edilmiş, Bakıya qayıtmışdır. C.Hacinski həmin ilin iyulundan respublika kənd təsərrüfatı kooperasiyası ittifaqında ("Göybirliyi") plan şöbəsinin katibi və sonra müdiri olmuşdur. 1933-cü il noyabrın 1-dən Azərittifaq sistemində işləyən C.Hacinski 1934-cü il noyabrın 6-da sənaye kooperasiyasında baş məsləhətçi vəzifəsinə keçmişdir. Həmin vəzifənin 1937-ci il yanvarın 7-də ləğv olunması ilə əlaqədar olaraq C.Hacinski işdən çıxarılmış, 1938-ci il noyabrın 24-də yenidən həbs olunmuş və 1942-ci ildə Kirov vilayətinin Vyatka konslagerində həlak olmuşdur.

Mövsüm Əliyev.

# XUDADATBƏY MƏLİK – ASLANOV

Odlar yurdu, № 5 – 6, mart 1989.

Məşhur alim, ixtiraçı – mühəndis Xudadatbəy Ağa oğlu Məlik – Aslanov 1879-cu ilin aprelində Şuşa şəhərində anadan olmuşdur. O, 1899-cu ildə Şuşa realni məktəbini bitirərək, Peterburq Yol Mühəndisliyi institutuna daxil olmuş və 1904-cü ildə ali təhsilini birinci dərəcəli diplomla başa vurmuşdur. Xudadatbəy 1901- 1904 –cü illərdə RSDFP – nın üzvü olmuş və Peterburq komitəsində çalışmışdır. Sonra, o, heç bir partiyaya mənsub olmamış və ömrünün axırına qədər bitərəf qalmışdır. İnstitutu bitirdikdən sonra Voloqda Petrozavodsk dəmiryolu çəkilişi ilə əlaqədar olaraq, altı ay Peterburqda işləmişdir. O, 1905-ci ilin əvvəlində Tiflisə köçmüş və Zaqafqaziya dəmir yolu idarəsində işləməyə başlamışdır. Əvvəlcə stansiya rəisinin köməkçisi, sonra Zaqafqaziya dəmir yolunun ən ağır və dağlıq hissəsi hesab edilən Suram aşırımı keçidində yol xidməti rəisinin köməkçisi, daha sonra isə rəisi təyin olunmuşdur. Onun rəhbərliyi altında olan sahədə xeyli mülki tikinti aparılmış, ikinci yolun çəkilişi davam etdirilmiş Çiatura marqans mədəninə ensiz dəmir yolu çəkilmiş və s. texniki işlər görülmüşdür. Bu dövrdə onun dörq elmi məqaləsi Peterburq jurnallarında çap olunmuşdur. İstedadlı mühəndis dəmir yol texnikası sahəsində yeni ixtiraları ilə dünyada tanınırdı.

1917-ci ildə Rusiyada fevral – burjua inqilabı baş verdi. Həmin il martın 9-da Müvəqqəti hökümətin göstərişi ilə X.Məlik – Aslanov Tiflisə köçürülmüş və Zaqafqaziya dəmir yolu üzrə müvəkkil təyin olunmuşdur. O, 1917-ci il noyabrın 15-də Zaqafqaziya komissarlığında Dəmir Yolu Nəqliyyatı Nazirliyi üzrə komissar və 1918-ci il aprelin 26-da yaranmış müstəqil Zaqafqaziya Federativ Respublikası hökümətində dəmir yolu (nəqliyyatı) naziri idi. 1918-ci ildə onun Tiflis dəmir yolu nəqliyyatı tarixindən bəhs edən kitabı (rusca) çap olunmuşdur.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Xudadatbəy Məlik – Aslanov bitərəf F.X.Xoyskinin (1875 - 1920) təşkil etdiyi birinci kabinədə dəmir yolu nəqliyyatı naziri və poçt – teleqraf naziri olmuşdur. O, F.Xoyskinin başçılıq etdiyi ikinci və üçüncü kabinələrdə də dəmir yolu naziri vəzifəsini tutmuşdur. X.Məlik – Aslanov dekabrın 7-də Bakıda açılmış Azərbaycan parlamentinin üzvü seçilmişdir. O, nazirlər şurasının sədri Nəsibbəy Yusifbəylinin təşkil etdiyi birinci və ikinci kabinədə də həmin vəzifəni icra etmişdir. X. Məlik – Aslanov təşkilatçılıq qabiliyyətinə görə N.Yusifbəylinin birinci müavini təyin olunmuşdu. Bundan başqa, o, 1919-cu il iyunun 11-də yaradılmış respublika

Dövlət Müdafiə Komitəsi sədrinin birinci müavini idi.

X. Məlik – Aslanovun təşəbbüsü ilə 1919-cu ildə Bakıda ana dilində dərs keçilən ilk dəmir yolu nəqliyyatı məktəbi açılmışdır. Onun gərgin əməyi sayəsində Azərbaycan dəmir yolunda böyük təmir işləri aparılmış və nəqliyyatın nizamlı surətdə işləməsi qaydaya salınmışdır.

Latın əlifbasına keçmək üçün 1919-cu ilin aprelində Nazirlər Şurasının göstərişi ilə X. Məlik – Aslanovun rəhbərliyi altında xüsusi komisiyya yatadılmış, həmin komissiya Azərbaycan parlamentinə layihə təqdim etmişdir. Lakin layihənin müzakirəsi yarımçıq qalmışdır.

X. Məlik – Aslanov 1921-ci ilin əvvəllərində Azərbaycan Dövlət Tikinti komitəsində əvvəlcə şöbə müdiri, sonra isə komitə sədri işləmişdir. Bundan sonra o, Azərbaycan Ali Xalq Təsərrüfatı Şurası yanında dəmir yolu tikintisi idarəsinin rəisi və şuranın məsləhətçisi idi. Azərbaycan Dövlət Plan Komitəsinin sənaye – nəqliyyat tikinti bölməsinin üzvü (1923-1925), Zaqafqaziya Dəmir Yolu İdarəsinin üzvü (1922 - 1924), Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində yol, sənaye, nəqliyyat və tikinti bölməsinin sədri (1921- 1930), həmin fakültənin dekanı (1924 - 1930), RSFSR və Azərbaycanın bir sıra elmi – texniki və mədəni – maarif təşkilatlarının üzvü (1921 - 1930), SSRİ Ali Xalq Təsərrüfatı Şurasının elmi – texniki kollegiyasının üzvü (1927 - 1930) olan Xudadatbəy Məlik- Aslanov 1926 – 1930-cu illərdə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi üzvülüyünə namizəd seçilmişdir. Bu dövrdə onun Moskva jurnallarında bir neçə məqaləsi çap olunmuşdur. 1927-ci ildə Politexnik İnsititutunun nəşriyyatı, 1929-cu ildə isə Azərbaycan Dövlət nəşriyyatı X.Məlik- Aslanov dəmir yolu texnikasına aid iki kitabını nəşr etmişdir.

X. Məlik- Aslanov 1930-cu ilin əvvəlində Azərbaycan Baş siyasi İdarəsi tərəfindən əsassız ittiham olunub həbs edilmiş və 1933-cu ilin ortalarında azad olunmuşdur. O, həmin ilin sentyabrın 1-dən Azərbaycan Nəqliyyat İnstitutunda dəmir yolu kafedrasına və Azərbaycan İnşaat İnstitutunda inşaat işinin təşkili kafedrasına rəhbərlik etmişdir. Texniki elmləri sahəsində ilk azərbaycanlı professorlardan biri olan X. Məlik –Aslanov 1934-cu ilin avqustunda əsassız ittiham edilərək yenidən həbs olunmuş və 1935-ci ilin iyulun 23-də vəfat etmişdir. 30-cu illərdə tuğyan edən Stalin repressiyası nəticəsində xalqımız öz görkəmli oğullarından birini də belə itirmişdir.

M.Əlioğlu.

# ASLANBƏY SƏFİKÜRDSKİ

Odlar yurd, № 19, sentyabr 1989

Aslanbəy Ağalar oğlu Səfikürdski 1880-ci ildə Gəncə qəzasının Səfikürd kəndində doğulmuşdur. Orta təhsilini Gəncə klassik gimnaziyasında aldıqdan sonra o. Peterburq universitetinin hüquq fakultəsinə daxil olmuşdur. Peterburq həyatı A.Səfikürdskinin bir ziyalı kimi formalaşmasında böyük rol oynamışdır. O, burada azərbaycanlı tələbələrin təşkil etdiyi həmyerlilər təşkilatının üzvü olmuşdur. Aslanbəy ali təhsilini başa çatdıraraq 1905-ci ildə Gəncəyə qayıtmışdır. O, tezliklə Gəncədə "Müsəlman xeyriyyə cəmiyyətinin" rəhbərlərindən biri, həmçinin "aktyorlar cəmiyyəti"nin sədri olmuşdur. 1915-ci ildə Peterburq universitetinin professoru Boduen – de Kurtilin sədrliyi altında Kiyevdə ölkənin qeyri –rus millətlərinin qurultayı keçirilmişdir. Qurultayda Azərbaycandan Qasımbəy Əmircanov və Aslanbəy Səfikürdski nümayəndə kimi iştirak etmişlər. İlk dəfə olaraq bu qurultayda "Azərbaycan muxtariyyəti" haqqında məsələ qaldırılmışdır. 1919-cu ildə A.Səfikürdski bu münasibətlə yazmışdır: "O vaxr elan olunmuşdur ki, Azərbaycanda məskun olan xalqlar tam muxtariyyət almalıdırlar. Qurultayda iştirak edən Gürcüstan və Ermənistan nümayəndələri də bu cür nöqteyi – nəzərdən dayanmışlar. Onda Qafqaz xalqları arasında sərhədlər barədə indikinə nisbətən mübahisə və fikir ayrılığı az idi. O vaxt bildirilmişdir ki, Azərbaycan bütün Bakı və Yelizavetpol (Gəncə) quberniyalarını, Zaqatala dairəsini, İrəvan və Tiflis quberniyalarının bir hissələrini əhatə etməlidir ki, Azərbaycan türkləri ilə məskundur. Gürcüstan və Ermənistan nümayəndələri buna etiraz etmirdilər. Hal – hazırda isə, təəssüf ki, bu məsələdə razılıq yoxdur" ("Azərbaycan" № 110, 28.5.1919).

A. Səfikürdski müxtəlif illərdə Gəncə və Şuşanın qəza məhkəmələrində iş kəsmək üzrə andçı – müvəkkil vəzifəsini icra etmişdir.

1917-ci ildə Rusiyada fevraql – burjua inqilabı baş verdi. A.Səfikürdski həmin ilin martında yaranmış Gəncə qəza icraiyyə komitəsinin tərkibinə seçilmişdir.

1918-ci il fevralın 28-də Zaqafqaziya seymi tərəfindən təsdiq olunmuş müsəlman fraksiyasında A.Səfikürdski "Müsəlman sosialist blokuna" daxil idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. A.Səfikürdski dekabrın 7-də Bakıda açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. O, ADR nazirlər şurasının sədri F. Xoyskinin təşkil etdiyi üçüncü hökümət kabinəsində (26. XII. 1918) poçt – teleqraf və əmək naziri təyin olunmuşdur. A. Səfikürdskinin həmin dövrdə Azərbaycanda bərbad hala düşmüş poçt və teleqraf sahəsinin nizama salınmasında xidmətləri diqqətəlayiqdir. Onun fəhlələrlə və sahibkarlar arasında əmək haqqı müqaviləsinin bağlanması və buna ciddi nəzarət edilməsi işində rolu böyük olmuşdur.

1919-cu il martın əvvəllərində F.Xoyskinin kabinəsi istefaya çıxdığı üçün A.Səfikürdski tutduğu vəzifəni tərk etmiş, Nəsibbəy Yusifbəylinin 1919-cu il martın 14-də təşkil etdiyi kabinədə ədliyyə və əmək naziri təyin olunmuşdur. Onun göstərişi ilə nazirliyin nəzdində Azərbaycanda ilk dəfə olaraq hüquq elmi üzrə mükəmməl kitabxanın təşkilinə başlanmışdır.

1920-ci il aprelin 27-də baş verən hadisələr vaxtı A.Səfikürdskinin də daxil olduğu ADR –in xüsusi nümayəndə heyəti bolşeviklərlə hakimiyyət haqqında danışıqlar aparmışdır. Danışıqlarda A.Səfikürdski təslimçi mövqeyi tutmuşdur. Həmin gün baş vermiş tarixi hadisələrdən sonra A.Səfikürdski respublika ədliyyə komissarının müavini və "Azərneft" birliyində hüquq işləri üzrə məsləhətçi işləmişdir. O,1937-ci il oktyabrın 15-də Bakı şəhərində ağır xəstəlikdən sonra vəfat etmişdir.

M.Əlioğlu.

# NURMƏMMƏDBƏY ŞAHSUVAROV

Odlar yurdu, № 4, fevral, 1990.

Öz dövrünün tanınmış şəxsiyyətlərindən biri olan Nurməmməd bəy Şahsuvarov Ədilxan oğlu 1883-cü ildə Azərbaycanın Laçın rayonunun Minkənd kəndində doğulmuşdur. O, ibtidai təhsilini kənd məktəbində alaraq, 1889- 1903-cü illərdə Qori müəllimlər seminariyasında oxumuşdur. H. Şahsuvarov bir müddət Gəncədə rus dili müəllimi işlədikdən sonra Tiflis Aleksandr Müəllimlər İnstitutuna daxil olmuş və oranı 1912-ci ildə bitirmişdir. O, həmin il Kiyev universitetinin hüquq fakültəsinə daxil olmuş və həmin ali məktəbi ekstern yolu 1915-ci ildə başa vurmuşdur. Dağıstan vilayəti xalq təhsili idarəsi üzrə Teymurxanşura şəhərinə inspektor təyin edilmişdir.

1917-ci ildə Rusiyada fevral – burjua inqilabı baş verdi. Bitərəf Nurməmmədbəy Şahsuvarov siyasi hadisələrdə yaxından iştirak etməyə başladı. 1918-ci ilin yayında Şimali Qafqazda yaşayan xalqların milli – azadlıq hərəkatı nəticəsində Dağlılar Respublikası yaradıldı. N.Şahsuvarov həmin respublikanın xalq maarif naziri təyin olundu.

1919-cu il iyunun əvvəlində Bakıya gələn N.Şahsuvarov Azərbaycan Demokratik Respublikası nazirlər şurasının sədri N.Yusifbəylinin təşkil etdiyi birinci hökümət kabinəsində maarif nazirinin müavini vəzifəsini icra etməyə başlamışdır. ("Azərbaycan" 3. 6. 1919, № 113). O, həmin dövrdə Azərbaycanın şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasına və digər mütərəqqi tədbirlərin həyata keçirilməsinə böyük əmək sərf etmişdir. Azərbaycanın ilk ali məktəbi Bakı Dövlət Universitetinin təşkilində də N.Şahsuvarovun xidmətini qeyd etmək lazımdır.

"İttihad" partiyasının üzvü N. Şahsuvarov nazirlər şurasının sədri N.Yusifbəylinin II hökümət kabinəsində 1920-ci il martın 5-də istefaya çıxan

H.Şahtaxtinskinin (1880- 1943) yerinə maarif və dini etiqad naziri təyin olunmuş, 25 gün sonra – martın 30-da bütün kabinə ilə birlikdə istefaya çıxmışdır.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra N.Şahsuvarov Azərbaycan SSR xalq maarif komissiyasının müavini təyin olunmuşdur. O, həmin dövrlərdə Bakıda pedaqoji, S.Ağamalıoğlu adına torpaq və geodeziya texnikumlarında rus dilindən dərs demişdir. Sonralar isə Bakı Dövlət Universitetində rus dili kafedrasının müdiri, Azərbaycan neft institutunda isə rus dili müəllimi vəzifəsində işləmişdir.

1940-ci ildə həbs olunan və Krasnodar diyarına sürgünə göndərilən Nurməmməd Şahsuvarov orada da öz ixtisası üzrə dərs demişdir. Üç il sonra – 1943-cü ildə sürgündən Bakıya qayıdan N. Şahsuvarov Azərbaycan Tibb İnstitutunda rus dili kafedrasının müdiri və müəllimi işləmişdir. O, Azərbaycanda rus dili sahəsində bir mütəxəssis kimi məşhur idi.

Öz dövrünün tanınmış şəxsiyyətlərindən biri olan Nurməmməd Şahsuvarov 1958-ci il avqustun 11-də Bakıda vəfat etmişdir. Onu da qeyd etmək lazımdır ki, o, öz vətənində Azərbaycan İstiqlal dövrünün həyatdan gedən son naziri idi.

Mövsüm Əliyev.

# ƏBDÜLƏLİ BƏY ƏMİRCANOV

Odlar yurdu, № 24, dekabr 1989.

Dövrünün tanınmış siyasi və ictimai xadimi olan Əbdüləli bəy Əmircanov Şirəli bəy oğlu 1870-ci ildə Şəkidə anadan olmuşdur. O, 1876 - 1883-cü illərdə Şəki şəhər məktəbində oxumuş, sonra Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuşdur. Əbdüləli bəy sonralar Azərbaycanın məşhur maarif xadimləri kimi tanınmış S.M.Qənizadə (1866-1924), H.Mahmudbəyov (1864-1928) və S.Əbrühəhmanbəyovla (1860 - 1922) birlikdə oxumuş və yaxındam dostluq etmişdir.

1888-ci ildə təhsilini başa vuran Əbdüləli bəy Əmircanov Şəki şəhər məktəbinə müəllim təyin olunmuşdur. Məktəbdə azərbaycanca dərs keçilməsi, rus dilinin öyrədilməsi, tarix, coğrafiya, təbiətşünaslıq və riyaziyyatın tədrisi sahəsində onun xidmətləri böyükdür.

Ə. Əmircanov XIX əsrin sonlarında Lənkərana köçmüş, müəllim işləmiş, görkəmli maarifçi Teymur bəy Bayraməlibəyovla (1862 - 1937) birlikdə bir çox mədəni – maarif tədbirlərini həyata keçirmişdir. O, həmin şəhərdə də ailə qurmuşdur.

XX əsrin əvvəllərində Bakıya köçən Əmircanov şəhərin rus – azərbaycan məktəblərində dərs deməklə yanaşı, dövlət idarələrində və müxtəlif şirkətlərdə mühasib vəzifələrində də işləmişdir. O, Bakıda bir sıra mədəni – maarif cəmiyyətlərinin I (1906-cı il) və II (1907-ci il) qurultaylarında yaxından iştirak etmişdir.

1917-ci ildə Rusiyada fevral – burjua inqilabı baş verdi. Ə. Əmircanov siyasi hadisələrə qoşuldu. 1918-ci il martın 18-dən 22-dək Bakıda cəbhədən qayıdan nizami erməni əsgəri birlikləri 30 minə yaxın azərbaycanlını qırdı. Onlar S. Şaumyanın göstərişi ilə Bakı Sovetinin qoşunu tərkibinə daxil edilmişdilər. Şəhərdə bu qırğının qarşısını almağa çalışanlardan biri də Ə.Əmircanov idi. O,

martın 27-də yaranmış Milli müsəlman Şurası Müvəqqəti İcraiyyə Komitəsinin üzvü idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Bitərəf Ə.Əmircanov Azərbaycan Respublikası nazirlər şurasının sədri Fətəlixan Xoyskinin (1875 - 1920) təşkil etdiyi II hökümət kabinəsində (17. VII. 1918) maliyyə naziri təyin olundu. Onun rəhbərliyi altında Azərbaycan hökümət bankı fəaliyyətə başlamışdır.

Bakı 15. IX. 1918-ci ildə oyuncaq Sentrokaspi diktaturası qüvvələrindən təmizləndikdən sonra, Azərbaycan respublikası höküməti Gəncədən Bakıya köçmüş və Ə. Əmircanov öz vəzifəsini burada icra etmişdir. Həmin il oktyabrın 6-da hökümət kabinəsində bəzi dəyişikliklərlə əlaqədar Ə. Əmircanov öz vəzifəsindən azad olunmuş, həmin gündən dövlət nəzarətçisi vəzifəsini tutmuşdur.

Ə. Əmircanov 1918-ci il dekabrın 7-də Bakıda təntənəli sürətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. O, parlamentdə bitərəflər qrupuna daxil idi.

1918-ci ilin dekabrında F.Xoyskinin kabinəsi istefaya çıxdığı üçün Ə. Əmircanov tutduğu vəzifəni tərk etmişdir.

1919-cu ilin ortalarında xarici ölkələrlə ticarət əlaqələri yaratmaq üçün Ə. Əmircanovun yaxından iştirakı ilə Bakıda "Dəyanət" şirkəti yaradılmışdır. Həmin dövrdə Bakıda həyata keçirilən bir sıra mədəni – maarif tədbirlərinin təşkilatçılarından biri də Ə. Əmircanov idi.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra Ə. Əmircanov Azərbaycanı tərk edərək İstanbula köçmüş və 1948-ci ildə orada vəfat etmişdir.

Mövsüm Əliyev.

# ƏKBƏRAĞA ŞEYXÜLİSLAMOV

Odlar yurdu, № 22, noyabr, 1988.

Dövrünün tanınmış siyasi və ictimai xadimi Əkbərağa İbrahim oğlu Şeyxülislamov 1891-ci ildə İrəvan şəhərində anadan olmuşdur. Orta təhsilini İrəvan gimnaziyasında başa vurduqdan sonra 1912-ci ildə Peterburq Yol Mühəndisliyi İnstitutuna daxil olmuşdur.

1917-ci ildə Rusiyada fevral – burjua inqilabı baş verdi. Gənc Əkbərağa yaranmış siyasi vəziyyətlə əlaqədar olaraq institutda bütün dərs kursunu başa vurduğuna baxmayaraq, ali məktəbi bitirmək haqqında diplomu almadan vətənə qayıtmalı oldu.

1918-ci ilin fevralında Ə. Şeyxülislamov Zaqafqaziya seyminin üzvü seçilmişdir. O, həmin il fevralın 28-də seym tərəfindən təsdiq olunmuş müsəlman fraksiyasının tərkibindəki "Hümmət" (menşevik) partiyasına daxil idi. Ə. Şeyxülislamov Zaqafqaziya seymi tərəfindən Türkiyə hökuməti ilə sülh danışıqları aparmaq üçün 1918-ci il martın 1-də yaradılmış nümayəndə heyətinin tərkibinə daxil idi. O, həmçinin Zaqafqaziya hökümətində daxili işlər nazirinin müavini vəzifəsini icra etmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Əkbərağa Şeyxüslislamov bitərəf F.Xoyskinin təşkil etdiyi birinci kabinədə torpaq və əmək naziri vəzifəsini tutmuşdur. Həmin il iyunun 17-də kabinə bütövlüklə istefaya çıxdığı üçün tutduğu vəzifəni tərk etmişdir. Ə. Şeyxülislamov 1918-ci il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. O. parlamentdə sosialist fraksiyasının tərkibinə daxil idi. Ə. Şeyxülislamov parlamentin açılışında daxil olduğu fraksiyanın adından hərarətli nitq söyləmişdir.

Ə. Şüyxülislamov 1918-ci il dekabrın 12-də Bakıda keçirilmiş siyasi partiyaların Demokratik müşavirəsində "Hümmət" (menşevik) partiyası adından

çıxış edərək sosialistlərin hökümət tərkibinə daxil olmasını tələb etmişdir. O, görkəmli siyasi və ictimai xadim Əlimərdanbəy Topçubaşovun (1862 - 1934) rəhbərliyi altında Azərbaycan respublikası nümayəndəliyinin tərkibində 1919-cu ildə açılacaq Versal sülh konfransında iştirak etmək üçün Parisə yola düşmüşdür. Nümayəndəlik İstanbul, Neapol və Roma şəhərlərindən keçərək, 1919-cu ilin martında çətinliklə Parisə gəlmişdir. Azərbaycan nümayəndəliyinin konfrans ərəfəsində burada çap etdirdiyi kitablar böyük əhəmiyyət kəsb edirdi. Fransızca buraxılmış "Qafqaz Azərbaycanı respublikası" kitabı Qərbi Avropa dillərində xalqımız və torpağımız haqqında ilk məlumat idi. Bundan başqa "Qafqaz Azərbaycanı respublikasının Paris sülh konfransına memorandumu" (ingiliscə və fransızca), nümayəndəliyin məsləhətçisi Ceyhun Hacıbəylinin (1891 - 1962) "İlk müsəlman respublikası Azərbaycan" (fransızca) kitabları da nəşr olunmuşdur. Həmin kitablarda və digər yazılarda milli dövlət "Azərbaycan Demokratik Respublikası" adı altında sabitləşmişdir.

Əkbərağa Şeyxülislamov 20-ci illərdə Parisdə Azərbaycandan II İnternasionalın üzvü olmuşdur. Onun ikinci dünya müharibəsinə qədər Parisdə rusca nəşr olunan "Azərbaycan" (№ 2) jurnalında çıxmış "Azərbaycan necə quruldu" adlı məqaləsi xalqımızın tarixini öyrənmək üçün çox qiymətlidir. Bu yazıda 1918-ci ilin 26- 28 may günlərində baş vermiş tarixi hadisələrin gedişi müfəssəl işıqlandırılmışdır. Buna görə də həmin məqalə Ankarada nəşr olunan "Mücahid" (№ 49 – 50, 1962) jurnalında yenidən çap edilmişdir.

Əkbərağa Şeyxülislamov 1961-ci il martın 2-də vəfat etmiş və Parisin yaxınlığındakı müsəlman qəbiristanlığında dəfn olunmuşdur.

Öz dövrünün görkəmli siyasi və ivtimai xadimi Mustafa bəy Vəkilov (1896 - 1965) Ceyhun bəy Hacıbəylinin dəfnində iştirak edərkən Ə. Şeyxülislamovun qəbrini də ziyarət etmişdir. O, Ceyhunbəyin vəfatının ildönümü münasibətilə "Mücahid" (№ 53 – 54, 1963) jurnalında çap etdirdiyi "Parisdə bir məzar daha" adlı məqaləsində yazmışdır: "Bir az o tərəfdə Əkbərağa Şeyxülislamov yatır. Yurdunun qurtuluşu uğrunda gənc yaşlarından bəri bir çox məşəqqətlərə köks gərmiş cəfakeş, idealist Əkbərağa"

Bu yaxınlarda Ə. Şeyxülislamovun foto – şəklini axtarıb tapan və onun ölüm ilini dəqiqləşdirib bu sətirlərin müəllifinə yazan YUNESKO –nun əməkdaşı, həmyerlimiz Ramiz Abutalıbova dərin minnətdarlığımızı bildiririk.

Mövsüm Əliyev.

# ƏHMƏDBƏY PEPİNOV

Odlar yurdu, № 15, (446) avqust 1989.

Əhmədbəy Ömər oğlu Pepinov 1893-cü ildə Gürcüstanın Axalkalaki mahalının Bolazur kəndində anadan olmuşdur. O, "Molla Nəsrəddin" jurnalının banilərindən biri görkəmli Azərbaycan jurnalisti və ictimai xadimi Ömər Faiq Nemanzadənin (1872 - 1938) bacısı oğludur. Ərəb – fars dilində yazıb oxumağı da Əhmədbəy dayısından öyrənmişdir. Tiflis gimnaziyasında təhsil aldığı illərdə Cəlil Məmmədquluzadənin (1866 - 1932) ailəsi ilə yaxınlıq etmişdir. 1913-cü ildə Ə.Pepinov Moskva Universitetinin hüquq fakültəsinə daxil olmuş və eyni vaxtda iqtisadiyyat fakültəsində də oxumuşdur. O, Moskvadan "Aşıq söz" qəzetinə məqalələr yazaraq "Axalkaləkili Əhməd Cövdət" imzası ilə çap etdirmiş, azərbaycanlı tələbələrin təşkil etdiyi "Azərbaycan həmyerlilər təşkilatının" əsas rəhbərlərindən biri olmuşdur. Ə.Pepinovun yaxından iştarakı ilə tələbələr Moskvada "Azərbaycan etnoqrafik konsert gecələri" və bir çox mədəni tədbirlər həyata keçirmişlər.

Ə. Pepinov ali təhsilini başa çatdırıb 1918-ci ilin əvvəllində Bakıya qayıtdı və Zaqafqaziyada baş verən siyasi hadisələrdə yaxından iştirak etməyə başladı. Həmin il fevralın 28-də Zaqafqaziya Seymi tərəfindən təsdiq olunmuş müsəlman fraksiyasında o, "Müsəlman sosialist blokuna" daxil idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. Həmin ilin yayında Azərbaycan Milli Şurasının sədri M. Ə. Rəsulzadənin (1884 - 1955) rəhbərliyi altında Türkiyə hökuməti ilə dostluq münasibətləri yaratmaq üçün İstanbula yola düşən nümayəndə heyətinin tərkibinə Ə. Pepinov da daxil idi. O, 19178-ci il dekabrın 7-də Bakıda təntənəli surətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmişdir. Bir az sonra isə Ə. Pepinov parlamentin katibi vəzifəsini icra etmişdir. Həmin dövrdə o, Azərbaycan parlamentinin sədri vəzifəsini icra edən Həsənbəy Ağayevin (1875 - 1920) qızı, sonralar isə ilk azərbaycanlı qadın musiqişünası olan X.Ağayeva ilə evlənmişdir.

Ə.Pepinov ADR nazirlər şurasının sədri Nəsibbəy Yusifbəylinin 5təşkil

etdiyi ikinci kabinədə ( 22. 12. 1919) əmək və torpaq naziri təyin olunmuşdur.

Azərbaycanda ilk ali məktəb olan Bakı Dövlət Universitetinin təşkil edilməsində (1919) Ə.Pepinovun müəyyən xidmətləri vardır. Parlamentdən Universitetin təşkili məsələsinin müzakirəsinin sürətləndirilməsində və bu məqsədlə pul vəsaiti ayrılmasında Ə.Pepinovun böyük əməyi vardır.

1918- 1920-ci illərdə Bakıda təntənəli "Azərbaycan gecələri" konsertinin və bir çox müsamirələrin təşkili də onun adı ilə bağlıdır.

1920-ci il martın 30-da N. Yusifbəylinin hökümət kabinəsinin istefaya çıxması ilə əlaqədar Ə.Pepinov tutduğu vəzifəni tərk etmişdir. O, həmin il aprelin əvvəllərində Azərbaycan parlamentinin üzvü Rəhimbəy Vəkilovla birlikdə Sovet Rusiyası hökuməti ilə danışıqlar aparmaq üçün Qroznı şəhərinə getmişdir. Azərbaycan parlamentinin təşəbbüsü ilə görülmüş bu tədbirdən məqsəd Samur körpüsünün şimal tərəfində dayanmış 11 Qızıl Ordunun Bakı üzərinə gözlənilən yürüşünü ləngitmək və nizami Azərbaycan ordusu hisssələrini Dağlıq Qarabağdan təcili Bakıya qaytarmaq idi. Məlum olduğu kimi, beynəlxalq imperalizmin göstərişi ilə həmin ilin martında Daqlıq Qarabağda Azərbaycan əleyhinə böyük üsyan qaldırılmışdı. Bu avantürüst plandan məqsəd nizami Azərbaycan ordusu hissələrini Bakıdan çıxartmaq idi. Həmin ilin martında qanlı Əsgəran döyüşündən sonra daşnak qoşunlarının tamamilə darmadağın edildiyinə baxmayaraq, Azərbaycan ordusu hissələrini Bakıya qayıtmağa macal tapmamışdı. Bu vaxt Bakıda cəmisi iki minə yaxın əsgər qalmışdı. Onlar da dövlət idarələrini qoruyurdular. ADR –in paytaxtı Bakı tam müdafiəsiz idi...

1920-ci il aprelin 27-də baş verən hadisədən sonra Bakıya qayıdan Əhmədbəy Pepinov Azərbaycanda mədəni – maarif və nəşriyyat işlərinə rəhbərlik etmişdir. 20-ci illərdə onun "Maarif və mədəniyyət", "Bakinski raboçi" və .s mətbuat orqanlarında xeyli məqaləsi dərc olunmuşdur. Həmin illərdə təqiblərə məruz qalan Əhmədbəy Pepinov 1930-cu ildə Ulyanovsk şəhərinə köçmüş və orada yaşamışdır. 1934-cü ildən o, Alma – Atada Qazaxıstan SSR maarif nazirinin müavini vəzifəsində işləmişdir. Öz dövrünün tanınmış şəxsiyyətlərindən biri olan Ə.Pepinov 1938-ci ildə Stalin represiyası nəticəsində həlak olmuşdur.

Mövsüm Əliyev

# HƏMİDBƏY ŞAHTAXTİNSKİ

Odlar yurdu, № 16, (447) avqust 1989.

Həmidbəy Ağa Xəlil oğlu Şahtaxtinski 1880-ci il mart ayının 12-də Azərbaycanın Naxçıvan qəzasının Şahtaxtı kəndində anadan olmuşdur. Orta təhsilini Naxçıvan gimnaziyasında başa vurduqdan sonra o, İrəvan müəllimlər seminariyasında oxumuş, orada "Müsəlman xeyriyyə cəmiyyəti" nin üzvü seçilmişdir. Sonra H. Şahtaxtinski Odessa Universitetinin hüquq fakültəsinə daxil olmuşdur. Odessa həyatı onun bir siyasi və ictimai xadim kimi formalaşmasında dərin iz buraxmışdır. Həmidbəy Şahtaxtinski Universitetdə yaradılmış "Azərbaycan həmyerlilər təşkilatı"nın başçılarından və fəal üzvlərindən biri idi.

H. Şahtaxtinski 1912-ci ildə ali təhsilini başa vurub Gəncəyə gəlir, şəhərin ictimai – siyasi həyatında yaxından iştirak edir. O Yelizavetpol (Gəncə) dairə məhkəməsində andçı – müvəkkilin köməkçisi vəzifəsində iki ilə yaxın işlədikdən sonra Bakıya köçərək burada dairə məhkəməsində eyni vəzifədə işə başlayır.

1917-ci ildə Rusiyada fevral – burjua inqilabı baş verdi. Həmin ilin mart ayından bütün partiyalar açıq fəaliyyətə keçdilər. Yeni partiyalar da təşkil olunmağa başladı. Rusiyanın müstəmləkə xalqları öz müstəqil dövlətlərini yatarmaq və azad yaşamaq uğrunda mübarizəyə başladılar. Məhz belə bir dövrdə H. Şahtaxtinski siyasi fəaliyyətə başlamışdı. Bildiyimiz kimi, keçmiş Rusiya imperiyasına daxil olan və çarizmin milli – müstəmləkə zülmünə məruz qalan xalqların böyük əksəriyyəti dil, adət, ənənə cəhətcə bir – birinə yaxın olan müsəlmanlardan ibarət idi. Buna görə də bu xalqlar imperializmə və müstəmləkə zülmünə qarşı mübarizədə islam dini bayrağı altında birləşirdilər. Fevral – burjua inqilabından sonra təsis edilən "Rusiyada müsəlmanlıq partiyası" 1917-ci il noyabrın axırlarından etibarən özünü "İttihad" partiyaası adlandırdı, siyasət meydanına bu adla qədəm basdı. Partiyanın proqram və əməli fəaliyyətinə sırf islam ideologiyası və siyasəti hakim kəsilmişdi. Qarabəy Qarabəyovun (1874 - 1953) sədr olduğu bu partiya M. Ə. Rəsulzadənin rəhbərlik etdiyi "Türk ədəmi – mərkəziyyət partiyası" "Müsavata" qarşı zidd cəbhə tuturdu. "Müsavat" partiyası

Rusiyanı Federativ şəkildə qurmaqla onun tərkibində Azərbaycana muxtariyyət tələb edirdisə, "İttihad" partiyası hər şeyi islam ideologiyasında görürdü və xalqın milli dirçəlişinə zidd çıxırdı.

H. Şahtaxtinski Azərbaycan milli şurasının üzvü idi.

1918-ci il mayın 28-də Azərbaycan Demokratik Respublikası elan olundu. H. Şahtaxtinski bitərəf F. Xoyskinin təşkil etdiyi ikinci (17. 6. 1918) və üçüncü (26. 12. 1918) hökümət kabinələrində maarif nazirinin müavini vəzifəsini icra etmişdir. O, 1918-ci il dekabrın 7- də təntənəli sürətdə açılmış Azərbaycan parlamentinə üzv seçilmiş, nazirlər şurasının sədri Nəsibbəy Yusifbəylinin təşkil etdiyi birinci hökümət kabinəsində də (14. 4. 1919) həmin vəzifədə işləmişdir. H. Şahtaxtinski o dövrdə Azərbaycan Respublikasının şəhər və kəndlərində ana dilində məktəb və seminariyaların açılmasına və digər mütərəqqi tədbirlərin həyata keçirilməsinə böyük əmək sərf etmişdir. Azərbaycanın ilk ali məktəbi olan Bakı Dövlət Universitetinin təşkilində onun xidmətini qeyd etmək lazımdır.

H. Şahtaxtinski nazirlər şurasının sədri N. Yusifbəylinin 1919-cu il dekabrın 22-də təşkil etdiyi ikinci hökümət kabinəsində maarif və dini etiqad naziri təyin olunmuşdur. Bir müddət sonra, 1920-ci il martın 5-də istefaya çıxmışdır.

Həmidbəy Şahtaxtinski o dövrdə Bakıda mövcud olmuş bir çox mədəni və maarif cəmiyyətlərinin rəhbərliyinə daxil idi.

1920-ci il aprelin 27-də baş verən hadisələrdən sonra H. Şahtaxtinski Bakı Dövlət Universitetində dərs deyən ilk azərbaycanlı kadrlardan və ana dilində ilk mühazirə oxuyan müəllimlərdən biri idi. 1930-cu ildə ona professor adı verilmişdir. H. Şahtaxtinski universitetdə dərs deməklə yanaşı 1926-cı ildə burada tibb fakültəsini də bitirmişdir.

H. Şahtaxtinski Stalin repressiyası nəticəsində 1941-ci ildə həbs edilmiş və 1943-cü il fevralın 3-də Arxangelsk vilayətində həlak olmuşdur.

Mövsüm Əliyev.

# AZƏRBAYCAN İSTİQLALININ MÜBƏYYİN ƏQDNAMƏ

Böyük Rusiya inqilabının cərəyanı ilə dövlət vücudunun ayrı – ayrı hissələrə ayrılması ilə, Zaqafqaziyanın rus orduları tərəfindən tərkinə mövcüb bir vəziyyəti – siyasiyyə hasil oldu. Kəndi qüvveyi – məxsusilərinə tərk olunan Zaqafqaziya millətləri müqəddəratlarının idarəsini bizzat kəndi əllərinə alaraq Zaqafqaziya Qoşma Xalq Cümhuriyyətini təsis etdilər. Və qayeyi siyasiyyənin inkişaf etməsi üzərinə gürcü milləti Zaqafqaziya Qoşma Cümhuriyyəti cüzindən çıxıb da müstəqil Gürcü Xalq Cümhuriyyəti təsisini səlah gördü.

Rusiya ilə Osmanlı imperatorluğu arasında zühür edən müharibənin təsviyyəsi üzündən hasil olan vəziyyəti hazirə siyasiyyə və məmləkət daxilində bulunan Azərbaycan dəxi bulunduğu xarici və daxili müşkülatdan çıxmaq üçün xüsusi bir dövlət təşkilatı qurmaq lüzumunu təqyin edir.

Buna binaən areyi – ümumiyyə ilə intixab olunan Azərbaycan Şurayi – Milliyyeyi – İslamiyyəsi bütün cəmaətə elan edir ki:

1. Bu gündən etibarən Azərbaycan xalqı hakimiyyət həqqinə malik olduğu kimi, Cənubi – Şərqi Zaqafqaziyadan ibarət Azərbaycan dəxi kamil müstəqil bir dövlətdir.

2. Müstəqil Azərbaycan dövlətinin şəkli idarəsi Xalq Cümhuriyyəti olaraq təqrir edilir.

3. Azərbaycan Xalq Cümhuriyyəti bütün millətlər və bilaxəssə həmcuvar olduğu millət və dövlətlərlə münasibət hissinin təsisinə əzm edər.

4. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, silk və cins fərqi gözləmədən qələmrounda yaşayan bütün vətəndaşlarına hüquqi siyasiyyə və vətəniyyə təmin eylər.

5. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstnamə inkişafları üçün geniş meydan buraxır.

6. Məclisi – müəssisan toplanıncaya qədər Azərbaycan idarəsinin başında areyi – ümumiyyə ilə intixab olunmuş Şurayi – Milliyyəyə qarşı məsul hökümәti - müvəqqətə durur.

Bu əqdnamə 1918 sənəsi mayis ayının 18-də Tiflisdə elan olunmuşdur.

"Azərbaycan" qəzeti, 4oktyabr, 1989-cu il.

# AZƏRBAYCAN VƏTƏNDAŞLARINA HÖKÜMƏTİN MÜRACİƏTİ

Azərbaycan vətəndaşları!

Bir sənə bundan əqdəm məbuslarınızın rəyi və arzusu mocibincə, Azərbaycan xalqı müstəqil yaşayış tərziqinə qədəm qoydu. 1919-ci il sənəsi mayın 28 – i Azərbaycan Cümhuriyyətinin milli bayramıdır. Öylə bir bayram ki, onun xatiri Ümumazərbaycan vətəndaşları üçün daima möhtərəm və müqəddəs sayılacaqdır. Çünki kəndi dövlətinizin milli bayrağı altında keçmiş olduğunuz bir sənəlik azad və zəhmətli həyatınız Azərbaycanın böylə tarixi bir günü olduğunu Sizə sözdən artıq izah edir. Siz çarizmin ən ağır tarixini keçirmisiniz. O, sizin ən gözəl həyatınızı, mədəniyyət və müqəddəs əməllərinizi ayaqları altında tapdamış və və məhv etmək istəmişdir. Biz hər bir hüquqdan və mədəni tərəqqiyyatdan və ən ibtidai siyasətdən belə məhrum olmuşduq. Bizim gözəl arzularımız qəti sürətdə əzilir və ayaqlar altına alınırdı. Sizin nəzərlərinizdən bolşevik hərc – mərcliyi, onun o mənhus dövrü keçmişdir. Kəndi evlərinizin talan və qarət edilib, uşaqlar və qadınlarımızın böyük fəlakət və müsibətlərə düşdüyünü və təhəmmül etdiyini gördünüz.

Qan dəryasında qutəvər olan Azərbaycan türk milləti kəndi müqəddəratını öhdəsinə alaraq, özbaşına buraxılmışdır.

O, mətanəti – qəlb və əzmi – qəti ilə istiqlalı düşünərək yaşayır. Və bilaxirə müstəqil və azad yaşamaq yolu arayıb, ona rəvan oldu. Öylə bir yol ki, onu ümumcahanın əzilmiş və döyülmüş millətləri tutmuşdu. Bu bir sənə ərz müddətində biz yorulmadan işlədik və bu işlədiyimiz ilə dövlətimizi möhkəmləndirərək, cəmaətimizin aşağı sinfinə milli dövlət təşkili hissini düşündürdük və göstərdik ki, cəmaət və millət məhbuslarının getdikləri yol doğru və xalqın azad fikir və məsləkidir. Bu az vaxt zərfində Azərbaycan türkləri kəndilərinin müstəqil və azad yaşamağa layiq olduqlarını gözəl surətdə göstərib və dövlət təşkilinə istedad və qabiliyyət yetirdiklərini isbat etdilər. Bunun sayəsində isə şimdi məmləkətdə insanı məmnun edəcək bir dərəcədə nizam və asayiş hökmfərmandır. Dövlətin fəaliyyəti isə bir dəqiqə də olsa, təxir etməyib haman hökümət işlərində davam etməkdədir.

İnqılabın bizə vermiş olduğu səmərəsi mühafizə edilmək ilə bərabər, indi Məclisi Məbusan seçkiləri ərəfəsindəsiniz. Bu məclisdə Azərbaycan milləti kəndi fikir və rəyini aşkar edəcəkdir. İstiqlaliyyəti müdafiə və mühafizə etmək

ümumazərbaycan xalqının müqəddəs vəzifəsidir.

Azərbaycan vətəndaşları! Təhlükə və təhdid hələ dəf olunmamışdır. Bizim üzərimizə qara buludlar gəlməkdədir. Bizim daxildəki hərəkatımız, nizam və asayışımız təmin edilər isə istiqlaliyyətimizi təhdid edən qüvvələrə yol verməz və rahat və azad yaşamağa malik olarsız.

Azərbaycan vətəndaçları!

Mayın 28-də böyük və ümumi bir bayram hesab edilməlidir. Bu gündə bilafərq millət hər kəs özünü müsavi hüquqla Azərbaycan vətəndaşı hiss etməlidir. Bu gün ümumcahan millətlərinin ədalət üzrə olan və ixtiyaratının təmin edilən günlərindən bir gündür.

Azərbaycan millətinin ittihad vən ittifaqına istinad edərək və buna ümidini izhar etməklə hökümət Azərbaycan Cümhuriyyətinin ikinci sənəsinə qədəmnihad olur.

Ümumazərbaycan vətəndaşlarının qüvvə və müavinətinə ümid ilə hökümət onları dövlət bayramı ilə təbrik edir.

Nəsibbəy Yusifbəyli

“Azərbaycan” qəzeti, 4 oktyabr, 1989- cu il.

# AZƏRBAYCAN HÖKÜMƏTİNİN TƏRKİBİ

## I kabinə: 28. 05. 1918 – 17. 06. 1918.

1. Nazirlər Şurasının sədri və daxili işlər naziri - **F. Xoyski (bitərəf).**
2. Hərbi nazir – **X. Sultanov (müsavat).**
3. Xarici işlər naziri – **M. H. Hacinski (bitərəf).**
4. Maliyyə və xalq maarifi naziri – **N. Yusifbəyli (müsavat).**
5. Ədliyyə naziri – **X. Xasməmmədov (müsavat).**
6. Ticarət və sənayə naziri – **M. Y. Cəfərov (bitərəf, sonra - müsavat).**
7. Əkinçilik və əmək naziri – **Ə. Şeyxülislamov (hümmət).**
8. Yollar, poçt və teleqraf naziri – **X. Məlikaslanov (bitərəf).**
9. Dövlət müfəttişi **– C. Hacinski (sosialist).**

## II kabinə: 17. 06. 1918 – 07. 12. 1918.

1. Nazirlər Şurasının sədri və ədliyyə naziri - **F. Xoyski (bitərəf).**
2. Xarici işlər naziri – **M. H. Hacinski (müsavat).**
3. Xalq maarifi və dini etiqad naziri - **N. Yusifbəyli (müsavat).**
4. Daxili işlər naziri – **B. Cavanşir (bitərəf).**
5. Əkinçilik naziri - **X. Sultanov (müsavat).**
6. Səhiyyə və sosial təminat naziri – **X. Rəfibəyli (bitərəf).**
7. Yollar naziri – **X. Məlikaslanov (bitərəf).**
8. Ticarət və sənayə naziri – **A. Aşurov (bitərəf).**
9. Maliyyə naziri – **Ə. Əmircanov (bitərəf).**
10. Portfelsiz nazir **– Ə. M. Topçubaşov (bitərəf).**
11. Portfelsiz nazir - **M. Rəfiyev (müsavat).**
12. Portfelsiz nazir – **X. Xasməmmədov (müsavat).**

## 6.10. 1918 tarixli kabinədaxili dəyişikliklərdən sonra.

1. Nazirlər Şurasının sədri - **F. Xoyski (bitərəf).**
2. Ticarət, sənayə və daxili işlər naziri – **B. Cavanşir (bitərəf).**
3. Xarici işlər naziri **– Ə. M. Topçubaşov (bitərəf).**
4. Maliyyə naziri – **M. H. Hacinski (müsavat).**
5. Xalq maarifi naziri - **N. Yusifbəyli (müsavat).**
6. Yollar naziri – **X. Xasməmmədov (müsavat).**
7. Əkinçilik naziri - **X. Sultanov (müsavat).**
8. Xalq səhiyyəsi naziri - **X. Rəfibəyli (bitərəf).**
9. Poçt və teleqraf naziri – **A. Aşurov (bitərəf).**
10. Sosial təminat və dini etiqad naziri - **M. Rəfiyev (müsavat).**
11. Hərbi işlər üzrə müvəkkil – **İ. Ziyatxan (bitərəf).**
12. Dövlət müfəttişi **– Ə. Əmircanov (bitərəf).**

## III kabinə: 26. 12. 1918 – 14. 03. 1919.

1. Nazirlər Şurasının sədri və xarici işlər naziri - **F. Xoyski (bitərəf).**
2. Daxili işlər naziri - **X. Xasməmmədov (müsavat).**
3. Maliyyə naziri – **İ. Protasov (Slavyan – Rus cəmiyyəti).**
4. Yollar naziri – **X. Məlikaslanov (bitərəf).**
5. Ədliyyə naziri **– T. Makinski (?).**
6. Maarif və dini etiqad naziri - **N. Yusifbəyli (müsavat).**
7. Poçt və teleqraf və əmək naziri – **A. Səfikürdinski (sosialist).**
8. Hərbi nazir – **S, Mehmandarov (bitərəf).**
9. Sosial təminat naziri – **M. Əsədullayev (bitərəf).**
10. Xalq səhiyyəsi naziri **– Y. Gindes (Slavyan – Rus cəmiyyəti).**
11. Ticarət və sənaye naziri – **M. Əsədullayev.**
12. Dövlət müfəttişi - **M. H. Hacinski (16. 01. 1919 tarixindən – Ə. Həsənov).**
13. Ərzaq naziri – **K. Lizqar (Slavyan – Rus cəmiyyəti).**
14. Əkinçilik naziri **– X. Sultanov (müsavat).**

## IV kabinə: 14. 03. 1919 – 22. 12. 1919.

1. Nazirlər Şurasının sədri və daxili işlər naziri - **N. Yusifbəyli (müsavat).**
2. Maliyyə naziri – **Ə. Həsənov (bitərəf).**
3. Ticarət və sənaye naziri – **A. Əminov (bitərəf).**
4. Xarici işlər naziri- **M. Y. Cəfərov (müsavat).**
5. Yollar naziri – **X. Məlikaslanov (bitərəf).**
6. Poçt və teleqraf naziri – **C. Hacinski (sosialist).**
7. Hərbi nazir – **S. Mehmandarov (bitərəf).**
8. Sosial təminat naziri – **V. Klenevski (Slavyan – Rus cəmiyyəti).**
9. Səhiyyə naziri – **A. Dastakov (?).**
10. Maarif və dini etiqad naziri – **R. Kaplanov (əhrar).**
11. Əkinçilik naziri **– A. Qardaşov (əhrar).**
12. Portfelsiz nazir - **X. Amaspur (daşnaksutun)**
13. Dövlət müfəttişi – **N. Nərimanbəyli (müsavat).**
14. Ədliyyə və əmək naziri – **A. Səfikürdski (sosialist).**
15. Sonralar daxili işlər naziri – **X. Xasməmmədov (müsavat).**

## V kabinə: 24. 12. 1919 – 01. 04. 1920.

1. Nazirlər Şurasının sədri - - **N. Yusifbəyli (müsavat).**
2. Xarici işlər naziri- **F. Xoyski (bitərəf).**
3. Hərbi nazir – **S. Mehmandarov (bitərəf).**
4. Daxili işlər naziri – **M. H. Hacinski (18. 02. 1920 – ci ildən sonra M. Vəkilov (birincisi əvvəl müavat, sonra kommunist, ikincisi - müsavat).**
5. Ədliyyə naziri – **X. Xasməmmədov (müsavat).**
6. Maliyyə naziri – **R. Kaplanov (əhrar).**
7. Maarif və dini etaqd naziri – **H. Şahtaxtinski (05. 03. 1920 –dən sonra H. Şahsuvarov, hər ikisi - İtihad).**
8. Əmək və əkinçilik naziri – **Ə. C. Pepinov (sosialist).**

9. Yollar naziri, eyni zamanda ticarət, sənaye və ərzaq üzrə müvəqqəti nazir – **X. Məlikaslanov (18. 02. 1920 –dən sonra ticarət, sənaye və ərzaq naziri – M.H.Hacinski).**
10. Poçt və teleqraf naziri – **C. Hacinski (sosialist).**
11. İctimai təminat və səhiyyə naziri – **M. Rəfiyev (müsavat).**
12. Dövlət müfəttişi – **H. Məmmədbəyov (ittihad).**

# KİTABIN İÇİNDƏKİLƏR

Tərtibçilərdən.
Azərbaycan hökuməti.
Azərbaycan parlamenti.
Ceyhun Hacıbəylinin arxivindən.
Məmməd Əmin Rəsulzadə.
Fətəlixan Xoyski.
Nəsibbəy Yusifbəyli.
Məmməd Yusif Cəfərov.
Əliağa Şıxlinski.
Səmədbəy Mehmandarov.
Ceyhun Hacıbəyli.
Əlimərdan bəy Topçubaşov.
Mustafabəy Vəkilov.
Həsənbəy Ağayev.
Mirzə Əsədullayev.
Xudadatbəy Rəfibəyov.
Məmməd Həsən Hacinski.
Nərimanbəy Nərimanbəyli.
Behbudağa Cavanşir.
Əliağa Həsənov.
Camobəy Hacinski.
Xudadatbəy Məlik – Aslanov.
Aslanbəy Səfikürdski.
Nurməmmədbəy Şahsuvarov.
Əbdüləli bəy Əmircanov.
Əkbərağa Şeyxülislamov.
Əhmədbəy Pepinov.
Həmidbəy Şahtaxtinski.
Azərbaycan istiqlalının mübəyyin əqdnamə.
Azərbaycan vətəndaşlarına hökümətin müraciəti.
Azərbaycan hökümətinin tərkibi.

Nəşriyyatın direktoru Ə. T. Əliyev.
Mətbəənin direktoru F. V. Fətəliyev.

Rəssamı F. Əfəndiyev.

Bədii direktoru N. Rəhimov.

Texniki redaktoru N. Şərifova.

Korrektoru A. Əhədova.

Yığılmağa verilmiş 16. 04. 90. Çapa imzalanmış
22. 05. 90. FQ 10747. Kağız formatı 60x84$^{1}/_{16}$. Mətbəə
kağızı № 1. Ədəbi qarnitur. Yüksək çap üsulu. Şərti ç/ v
5, 58. Rəngli şərti ç / v 592. Uçot nəşr v. 4, 76.
Tirajı 20000. Sifariş № 550. Qiyməti 3 man.

Azərbaycan SSR Dövlət Mətbuat Komitəsi.
"Gənclik" nəşriyyatı Bakı, Hüsü Hacıyev küçəsi, 4.
"Çapçı" koperativi.
3 № -li Bakı kitab mətbəəsi. Bakı, Ə. Tağızadə küçəsi, 4.

С о с т а в и т е л и В. АЛЛАХВЕРДИЕВ
Ш. МЕХТИЕВ

АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА
АЗЕРБАЙДЖАНСКОЕ ПРАВИТЕЛЬСТВО 1918—1920 ГГ.
(на азербайджанском языке)

Баку • Г я и д ж л и к • 1990